Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 48 (6141) 19 dekabr 2025-ci il | Qiyməti 40 qəpik

# 20 YAŞLI AZƏRBAYCAN FHN-İ



## Bu xidmətlər onlayn təqdim ediləcək



**Daxili İşlər Nazirliyi (DİN) bir sıra xidmətlərin (sənədlərin) təkmilləşdirilməsi üzrə layihə hazırlayıb.**

Adalet.az xəbər verir ki, DİN vətəndaşların gündəlik həyatını asanlaşdırmaq, dövlət xidmətlərinin keyfiyyətini və əlçatanlığını artırmaq, o cümlədən ölkəmizin rəqəmsal transformasiya prosesini sürətləndirmək məqsədilə bir sıra xidmətlərin təkmilləşdirilməsinə dair təkliflər hazırlayıb.

Təkliflərdə şəxsiyyət vəsiqələrinin, ümumvətəndaş pasportlarının və sürücülük vəsiqələrinin alınması və yenilənməsi, həmçinin nəqliyyat vasitələrinin qeydiyyatı üzrə ilkin sənədlərin qəbulu mərhələsinin rəqəmsallaşdırılması nəzərdə tutulmaqla vətəndaşlar həmin xidmətlər üzrə ilkin müraciətlərini dövlət qurumlarına getmədən, onlayn şəkildə də təqdim edə biləcəklər.

Bu təşəbbüs "ölkənin rəqəmsal hökumət" modelinin daha da güclənməsinə, dövlət xidmətlərinin keyfiyyətinin artırılmasına və vətəndaş məmnunluğuna xidmət edəcək, eyni zamanda BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə töhfə verəcəkdir.

## Bakı 2026-cı il Dünya İdman Paytaxtı elan olundu



**Bakı 2026-cı il "Dünya İdman Paytaxtı" elan olunub. Adalet.az xəbər verir ki, bu münasibətlə dekabrın 16-da dövlət rəsmilərinin və Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyasının (ACES) nümayəndələrinin iştirakı ilə "Dünya İdman Paytaxtı" xatirə lövhəsinin rəsmi imzalanma mərasimi keçirilib.**

"Dünya İdman Paytaxtı" titulu rəsmi olaraq Monakodan Bakıya təhvil verilib.

Tədbirdə gənclər və idman naziri Fərid Qayıbov, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, ACES-nin prezidenti Can Fransesko Lupattelli, qurumun baş katibi Huqo Alonso Kastanon və Monaka knyazlığının sabiq təhsil, gənclər və idman naziri İzabella Klaude Aline Bonnal iştirak ediblər.

"İdman Paytaxtı" layihəsi ACES Brüsseldə yerləşən qeyri-kommersiya assosiasiyasıdır və hər il müxtəlif qitələrdən şəhərlərə "İdman Paytaxtı" və digər idman sahəsi üzrə mükafatlar təqdim edir. Bu titul və mükafatlar etik prinsiplər əsasında verilir və cəmiyyətin sosial inteqrasiyası, psixo-fiziki rifahı və həyat keyfiyyətinin yüksəldilməsinə xidmət edir. ACES, həmçinin Avropa Komissiyasının Avropa İdman Həftəsinin və UNESCO-nun tərəfdaşıdır.

## TƏBİB rəhbərindən nöqsanlarla bağlı xəbərdarlıq



**Bəzi müəssisələrdə əlavə ödənişlərin tələb edilməsi, tibbi sərfin vətəndaşa aldırılması, imtiyazlı xəstələrə dərman təminatının qanunvericiliyə uyğun təşkil edilməməsi və s. kimi hallar yolverilməzdir.**

Adalet.az xəbər verir ki, bu fikirlər TƏBİB-in İcraçı direktoru Vüqar Qurbanovun rəhbərliyi ilə "İlin yekunlarına və növbəti il üçün qarşıya qoyulan hədəflərə dair" keçirilən müşavirədə səsləndirilib. Müşavirədə eyni zamanda tibb müəssisələrində tibbi xidmətin təşkilində mövcud çətinliklər, idarəetmə və maliyyə proseslərində rast gəlinən nöqsanlar, həmçinin neqativ hallarla bağlı xəbərdarlıqlar diqqətə çatdırılıb. Bununla yanaşı, aparılan yoxlamalarda ayrı-ayrı tibb müəssisələrində sterilizasiya, infeksiyaya nəzarət və keyfiyyət standartlarının tələblərinə tam əməl olunmaması ilə bağlı müşahidələrin qeydə alındığı bildirilib.

Vüqar Qurbanov məsul şəxslərə nəzarətin gücləndirilməsi və aşkarlanan çatışmazlıqların aradan qaldırılması ilə bağlı tapşırıqlar verib.

## Hakan Fidan: Türkiyə diplomatiyası zaman və məsafə tanımır

**"Türkiyə diplomatiyası zaman və məsafə tanımır".**



Adalet.az xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Hakan Fidan XVI Səfirlər Konfransının açılışında bildirib.

O qeyd edib ki, Yaxın Şərqdən Balkanlara qədər geniş coğrafiyada türk baxışından danışılması təsadüfi deyil: "İstər insanlığın gələcəyi, istər regional problemlərlə bağlı Türkiyənin həm deyəcəyi sözü, həm də masaya qoymağa doktrinası həmişə olub və olacaq. Ancaq reallıq budur ki, qarışıqlıq artıb. Diplomatlarımızdan gözləntim odur ki, günlük işlərin ağırlığında uzunmüddətli perspektivi gözdən qaçırmamasınlar".

Fidan bildirib ki, Qəzzada yaşananlar qlobal bir oyanışa səbəb olub. Türkiyə qlobal vicdanın mərkəzi olub. Artıq Qərb ölkələri belə ikidövlətli həll yolunu məqbul sayırsa, burada Türkiyənin payı böyükdür:

"Regionumuz qarşılaşdığı ən çətin problemlərdən biri olan Rusiya-Ukrayna müharibəsinin artıq dördüncü ilini geridə qoyur. İstanbul hələ də tərəflərin bir araya gəlib müzakirə apardığı yeganə platforma rolunu oynayır. Biz sülh masasını yenidən qurmağa hazırıq".

Suriyadakı vəziyyətdən də söz açan H.Fidan Türkiyənin oradakı işinin hələ yeni başladığını vurğulayıb:

"Biz Suriyanın yenidən dirçəldilməsinə dəstəyimizi göstərməyə davam edəcəyik".

*Əbülfət Mədətoğlu*

## İSİNMƏYƏN XATİRƏLƏR

Bax:səh-8

## GÜNÜN LƏTİFƏSİ



Birinci gün birinci sinif şagirdləri dərsə gəliblər. Müəllimə başa salır:

**- Uşaqlar siz dərsə gəlmisiz. Dərsdə sakit oturmaq lazımdır. Əgər nə isə soruşmaq istəyirsinizsə, əlinizi qaldırın!**

Bir oğlan əlini qaldırır.

**- Nəsə soruşmaq istəyirsən?**

**- Yox, sadəcə yoxlamaq istəyirəm sistem necə işləyir?**

# PREZİDENT İLHAM ƏLİYEV FƏRMANLAR İMZALADI



**Dövlət Sərhəd Xidmətinin döyüş bayraqlarının təsvirində dəyişiklik edilib.**

Bununla bağlı Prezident İlham Əliyev Fərman imzalayıb.

Fərmana əsasən, "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin döyüş bayraqlarının təsviri"ndə "Çevik Hərəkət Qüvvələri hərbi hissəsinin döyüş bayrağında - "Dövlət Sərhəd Xidməti Çevik Hərəkət Qüvvələri 0000 (hərbi hissənin nömrəsi) saylı hərbi hissə" sözləri yazılmış yeni bənd əlavə edilir.

***

**"Su obyektlərindən xüsusi məqsədlər üçün istifadəyə icazənin verilməsi Qaydası" təsdiq edilib.**

Bununla bağlı Prezident İlham Əliyev Fərman imzalayıb.

Fərmana əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabineti üç ay müddətində aşağıdakıları müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat verməli, su obyektlərindən xüsusi məqsədlər üçün istifadə ilə bağlı ödənişlərin məbləğlərini, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi ilə fiziki və hüquqi şəxslər arasında su obyektlərindən xüsusi məqsədlər üçün istifadəyə dair müqavilənin formasını, bu Fərmandan irəli gələn digər məsələləri həll etməlidir.

# Prezident AzMİU-nun əməkdaşlarını təltif edib

**Azərbaycan Memarlıq və İnşaat Universitetinin əməkdaşları təltif edilib.**

Bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycanda təhsilin inkişafında xidmətlərinə görə Azərbaycan Memarlıq və İnşaat Universitetinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**"Şərəf" ordeni ilə**
Məmmədova Gülçöhrə Hüseyn qızı

**3-cü dərəcəli "Əmək" ordeni ilə**
Ağayev Asəf Mirzə oğlu
Babayev Nəbi Miri oğlu
Əliyev Fəqan Qənbər oğlu
Hacıyev Müxlis Əhməd oğlu
Haqverdiyeva Tahirə Axi qızı
Mehtiyev Əlixan Qafar oğlu
Məmmədov Nurməmməd Yaşar oğlu
Şirinzadə İradə Nüsrət qızı

**"Tərəqqi" medalı ilə**
Abdullayeva Nərgiz Cavad qızı
Aslanov Telman İmran oğlu
Aslanova Nigar Məhər qızı
Danyalov Şəfi Danyal oğlu
Əhmədova Salatın Alı qızı
Əkbərova Samirə Misirxan qızı
Əliyev Ramiz Dadaş oğlu
Əliyeva Səlmi Saleh qızı
Fərzəliyev Sahib Abduləli oğlu
Həsənov Fərzəli Həsən oğlu
Hüseynov Hüseynağa İbrahim oğlu
Hüseynova Rəna Ömər qızı
İskəndərov Ramiz Əziz oğlu
Qasımov Akif Fazil oğlu
Quliyeva Əzizə Mürsəl qızı
Məmmədov Sabir Baladin oğlu
Musayeva Nailə Fuad qızı
Naqdiyev Əcəm Özübəy oğlu
Nəbiyev Aydın Xalıq oğlu
Sazairov Əmirxan Bəhsət oğlu
Yusifzadə Elçin Nazim oğlu.

Azərbaycanda təhsilin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Nağıyev Nizami Həsən oğluna Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

# *Elçin Əmirbəyov:* "Zəngəzur dəhlizi eyni anda bir neçə strateji marşrutu birləşdirir"

**Zəngəzur dəhlizi - bir neçə marşrutu özündə birləşdirən genişmiqyaslı layihədir.**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə xüsusi nümayəndəsi Elçin Əmirbəyov Polşanın "TVP World" telekanalına verdiyi müsahibəsində bildirib.

O xatırladıb ki, "Tramp Marşrutu" (TRIPP) - cari ilin avqustunda Vaşinqton sammitinin nəticələri üzrə həyata keçirilməsi barədə razılıq əldə olunmuş layihə - Zəngəzur dəhlizinin bir hissəsidir.



"Zəngəzur dəhlizi bir neçə məqsədə eyni anda nail olmağa imkan verəcək. İlk növbədə, o, Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirəcək. Bu marşrut həmçinin üç onillikdən sonra Ermənistanı və Azərbaycanı birləşdirəcək. Bundan əlavə, o, Asiyadan Avropaya alternativ marşrutlardan biri olacaq. Söhbət Asiya və Avropa arasında ticarət həcmlərinin hər iki istiqamətdə artmasına imkan verəcək mühüm nəqliyyat əlaqəsi halqasından gedir. Biz Cənubi Qafqazda möhkəm sülhün bərqərar olmasını istədiyimiz üçün, hər iki tərəf - Bakı və İrəvan - ABŞ-nin vasitəçiliyi ilə bu sülhün bərabər iqtisadi fayda və nəzərəçarpan nəticələr gətirməsi barədə razılığa gəldi. Düşünürəm ki, nəticə etibarilə bu, Ermənistan və Azərbaycan arasında müəyyən iqtisadi qarşılıqlı asılılığa gətirib çıxaracaq və onlar, məncə, vahid iqtisadi məkan kimi fəaliyyət göstərə bilərlər", - o qeyd edib.

Xüsusi nümayəndənin sözlərinə görə, 2025-ci il Bakı və İrəvan arasında münasibətlərdə, daha geniş mənada isə bütün Cənubi Qafqaz üçün dönüş ili kimi tarixə düşəcək.

"Üç onillik münaqişə, rəqabət və qarşıdurmadan sonra Ermənistan və Azərbaycan sülh yaratmağa qərar verdilər. 8 avqust Vaşinqton sammiti liderlərin möhkəm və dönməz sülhə sadiqliklərini təsdiqlədiyi son dərəcə mühüm an oldu. Biz hesab edirik ki, bu, uzunmüddətli münasibətlərin yalnız başlanğıcıdır.

Münaqişənin əsas səbəbi - Ermənistan tərəfinin Azərbaycana ərazi iddiaları - aradan qaldırıldı. Ölkəmiz öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra Bakı Ermənistan tərəfinə sülh sazişi layihəsi üzərində işə başlamağı təklif etdi. 2 il yarımlıq müzakirələrdən sonra, 2025-ci ilin martında tərəflər sülh sazişi layihəsinin mətnini razılaşdırdılar", - E.Əmirbəyov vurğulayıb.

**O əlavə edib, Vaşinqton sammiti zamanı Azərbaycan, Ermənistan və ABŞ liderləri bütün üç tərəfə uğurlu iqtisadi nəticələrə gətirəcək mühüm razılaşmalara nail olublar.**

## *"Rusiya ordusunda döyüşən vətəndaşlarımızın qarşısı alınmalıdır"*



**Xəbər verdiyimiz kimi, politoloq Elxan Şahinoğlu açıqlaması zamanı Rusiya ordusunda döyüşən Azərbaycan vətəndaşlarının məsuliyyətə cəlb edilməsini təklif edib. O, bildirib ki, müvafiq dövlət qurumları bu istiqamətdə tədbirlər görməlidirlər.**

Mövzuyla bağlı Adalet.az-a danışan hərbi ekspert Ədalət Verdiyev politoqun fikirləri ilə razılaşdığını bildirdi:

"Çünki bir Azərbaycan vətəndaşı, bəzən isə Vətən müharibəsində iştirak edən döyüşçülər arasında bəziləri gedib Rusiya ordusunda xidmət etmək üçün muzdlu hərbi qulluqçu olaraq işğalda iştirak edir.

Bu isə Azərbaycanın mövcud qanunvericiliyi ilə tamamilə qadağandır. Belə bir fəaliyyətlə məşğul olanlar mütləq cəzalandırılmalıdır. Digər tərəfdən isə bu fəaliyyətlərin qarşısının alınması üçün də müəyyən tədbirlər görülməlidir. Ola bilsin ki, qanunvericildə buna görə nəzərdə tutulan sanksiyalar sərtləşdirilməlidir. Bu barədə ictimai müzakirələr keçirilməlidir. Həmin şəxsləri bəzən dəfnlərində şəhid kimi Azərbaycan ictimaiyyətinə təqdim etməyə çalışan şəxslər və resurslar tapılır ki, bu da tamamilə yanlış bir addımdır. Hesab edirəm ki, ən yaxşı variantlarından biri bu məsələ ilə bağlı İctimai Televiziyada və ya Milli Məclisdə müəyyən müzakirələr təşkil etmək və bu fəaliyyətlərin qınaq obyektinə çevrilməsi üçün ciddi tədbirlər görülməlidir".

**Sübhan**

# FÖVQƏLADƏ HALLAR NAZİRİ, GENERAL-POLKOVNİK KƏMALƏDDİN HEYDƏROV CƏNABLARINA



**Çox hörmətli cənab nazir!**

Sizi və Sizin şəxsinizdə ölkəmizin Fövqəladə Hallar Nazirliyi strukturunun bütün əməkdaşlarını peşə bayramınız münasibətilə ürəkdən təbrik edir və hər birinizə can sağlığı, dövlətimiz naminə gördüyünüz işlərdə uğurlar diləyirəm.

**Cənab general-polkovnik!**

Ölkəmizdə hər kəsə yaxşı məlumdur ki, Azərbaycanın Fövqəladə Hallar Nazirliyi yarandığı gündən ölkə həyatının bütün sahələrində öz vəzifəsini şərəflə yerinə yetirib və bu gün də yerinə yetirir. Sizin həmin quruma rəhbər təyin edildiyiniz dövrdən sonra nazirliyin iş görmə qabiliyyəti, faydalılıq əmsalı, bir az da konkret desəm, Azərbaycanda və onun hüdudlarından kənarda gerçəkləşdirdiyi xidmətlər həqiqətən təqdirəlayiqdir.

Bu gün ölkə prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunmuş nazirliyin ən zəruri avadanlıqlarla, texniki vasitələrlə təminatı, yaradılmış iş şəraiti həm ürəkaçandı, həm də qürurvericidi. Heç də təsadüfi deyil ki, Azərbaycan FHN-çiləri təkcə ölkə daxilində deyil, yaxınuzaq məmləkətlərdə də öz bacarıqları ilə hər kəsi təəccübləndiriblər. Hətta Türkiyə prezidenti cənab Ərdoğan da Türkiyədəki sonuncu zəlzələ zamanı vurğuladı ki, başqa dövlətlər telefon açıb hansı yardımların lazım olduğunu soruşanda Azərbaycandan soruşdular ki, təyyarələrimiz hansı limanlara ensin. Bax, elə bu fikrin özü bizim Fövqəladə Hallar Nazirliyi əməkdaşlarının çevikliyinin, peşəkarlığının real göstəricisidir.

**Cənab nazir!**

Bu gün Fövqəladə Hallar Nazirliyinin əməkdaşları üçün Sizin rəhbərliyiniz altında reallaşan peşə təcrübəsi, yeni ixtisaslara yiyələnmək, müasir avadanlıqlardan, təcrübələrdən istifadə etmək işi bu qurumun nüfuzunu daha da artırır. Və ölkəmizdə indi hər kəs yaxşı bilir ki, FHN-çilər Qarabağ cəbhəsində, döyüş meydanlarında göstərdiyi igidliklə yanaşı, öz xidməti sahələrində də hər cür qəhrəmanlığa hazırdırlar. Və onlar bunu dəfələrlə sübut ediblər.

**Çox hörmətli Kəmaləddin müəllim!**

Bir daha Sizi və ölkəmizin ən önəmli strukturlarından biri olan Fövqəladə Hallar Nazirliyinin bütün əməkdaşlarını peşə bayramı münasibətilə ürəkdən təbrik edirəm.

**Hörmətlə:**
**Aqil ABBAS,**
**millət vəkili**

## *"Azərbaycan Qərblə əməkdaşlığı inkişaf etdirməlidir..."*



**"Prezidentin 20 minə yaxın məhkumu əhatə edəcək amnistiya aktı imzalayacağı yeni bir mərhələ kimi qiymətləndirilə bilər. Ölkədə real siyasi və hüquqi islahatların aparılması və sosial vəziyyətin yaxşılaşdırılması istiqamətində addımlar atılması labüddür. Avropa İttifaqı yeni güc olaraq beynəlxalq müstəvidə önə çıxır. Azərbaycan AŞPA-ya qayıtmalı və Qərblə bir çox istiqamətlərdə normal münasibətlər sisteminə üstünlük vermək lazımdır".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib. O, bildirib ki, bu gün Avropa İttifaqı Rusiyanın Ukraynada siyasi və hərbi fəaliyyətinə ciddi təzyiqlər edir: "Demək olar ki, Rusiyanın Ukraynada öz şərtlərini qəbul etdirməsinə imkan vermir. Artıq Rusiya zəifləyir. Qərbin Cənubi Qafqaza siyasi baxışı dəyişir. Göründüyü kimi, dövlət başçısı reallıqları obyektiv qiymətləndirir. Azərbaycan Qərblə əməkdaşlığı inkişaf etdirməlidir. Ötən həftə siyasi təhlilimdə Qərblə əməkdaşlığın vacibliyini qeyd etmişdim. Qərb Azərbaycandan öz seçimini etməsini istəyir. Təbii ki, Azərbaycan öz milli maraqlarına uyğun siyasət aparır. Nəzərə almaq lazımdır ki, Azərbaycan Rusiya və İran kimi iki aqressor qonşu ilə sərhəddir. Hər iki qonşu Qərblə konfontrasiyaya malik olmaqla yanaşı, daima Azərbaycanda öz şəbəkələrini qurmağa çalışır. Amnistiya aktının ardınca, müxtəlif sahələrdə fundamental qərarlar verilməsi labüddür".

**Vasif**

# FHN-in yaranmasının 20 illiyi qeyd olundu

**16 dekabr - Fövqəladə Hallar Nazirliyi işçilərinin peşə bayramı günü və Nazirliyin yaranmasının 20-ci ildönümü ilə əlaqədar təntənəli mərasim keçirilib.**

Adalet.az xəbər verir ki, mərasimdə Azərbaycanın fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov, Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibi Ərgüc Kələntərli, Qırğız Respublikasının fövqəladə hallar naziri general-leytenant Boobek Ajikeev, Özbəkistanın fövqəladə hallar nazirinin birinci müavini Sanjar Zuparov, Rusiya fövqəladə hallar nazirinin müavini Roman Kurının, Azərbaycan FHN-in əməkdaşları, FHN yanında İctimai şuranın üzvləri, fövqəladə hallar könüllüləri, media təmsilçiləri və.s səlahiyyətli şəxslər iştirak ediblər.

Tədbir iştirakçıları, əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edib. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üstünə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanı ziyarət edilib, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarları üzərinə gül dəstələri düzülüb, "Əbədi məşəl" abidəsi önünə əklil qoyulub.

Sonra mərasim iştirakçıları Fövqəladə Hallar Nazirliyinin Akademiyasında Nazirliyin xüsusi texnikalarından ibarət sərgi ilə tanış olublar. Sərgidə Azərbaycan FHN-in strukturuna daxil olan qurumların istifadəsində olan ən müasir texnika və avadanlıqlar nümayiş olunub.

Dövlət Himni səsləndirildikdən sonra Fövqəladə Hallar Nazirliyinin şəxsi heyətinin təntənəli keçidi olub.

Mərasim FHN Akademiyasının akt zalında davam etdirilib. Dövlət Himni səsləndirildikdən sonra ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş qəhrəman şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra tədbir iştirakçıları Nazirliyin İctimaiyyətlə əlaqə idarəsi tərəfindən hazırlanmış və Azərbaycan FHN-in 20 illik tarixindən bəhs edən videoçarxı izləyiblər.

Fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov mərasimdə çıxış edib. Peşə bayramı və əlamətdar yubiley münasibətilə Fövqəladə Hallar Nazirliyinin şəxsi heyətini, bu illər boyu çiyin-çiyinə çalışmış hər kəsi ürəkdən təbrik edən nazir FHN-in əməkdaşlarına çətin, lakin şərəfli işlərində daim uğurlar arzulayıb.

Nazir bildirib ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycan möhtərəm Prezident İlham Əliyevin uzaqgörən daxili və xarici siyasəti nəticəsində bu gün dünya birliyinin layiqli üzvünə, böyük nüfuza malik qüdrətli dövlətə çevrilib.

44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi altında yenilməz Azərbaycan Ordusu tərəfindən işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün, suverenliyimizin bərpası qazanılan uğurların zirvəsində dayanır. Ulu Öndərin ordu quruculuğu istiqamətində apardığı siyasəti, həyata keçirdiyi islahatları müasir dövrün tələblərinə uyğun davam etdirən Prezident İlham Əliyev ölkənin müdafiə qüdrətinin möhkəmləndirilməsinə, Silahlı Qüvvələrimizin ən müasir silah-sursatla, hərbi avadanlıqlarla təmin olunmasına xüsusi diqqət yetirməklə qələbə əzmində olan Ordu formalaşdırdı. Nəticədə qüdrətli Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə cəmi 44 gün davam edən Vətən müharibəsində "Dəmir yumruq" əməliyyatı nəticəsində 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında olan dədə-baba torpaqlarımızı azad etdi, ədaləti bərpa etdi. 2023-cü il sentyabrın 19-20-də keçirilən və cəmi 23 saat davam edən lokal xarakterli antiterror tədbirləri nəticəsində erməni separatizminə son qoyuldu, Azərbaycanın dövlət suverenliyi tam şəkildə bərpa olundu.

Zəfərdən sonra dövlətimizin başçısının və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın işğaldan azad edilmiş rayonlarımıza ardıcıl səfərləri, Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı yenidənqurma, quruculuq-abadlıq işlərini şəxsən nəzarətdə saxlamaları nəticəsində ərazilərimiz sürətlə yenidən qurulur, tarixinə, mədəni irsinə, ənənələrinə, dini mirasına qovuşur, bu torpaqlara həyat geri qayıdır.

Nazir müstəqil Azərbaycanın memarı Ümummilli Lider Heydər Əliyevin istər sovetlər birliyində yaşadığımız dövrdə, istərsə də müstəqillik illərində sosial-iqtisadi həyatın digər sahələri kimi, xalqımızın təhlükəsiz və firavan yaşayışının təmin edilməsi işinə daim xüsusi diqqətlə yanaşdığını xatırladıb.

Nazir deyib ki, mütərəqqi Heydər Əliyev siyasi kursunu uğurla davam və inkişaf etdirən, ölkə vətəndaşlarının təhlükəsizliyinin təmin edilməsi məsələlərinə son dərəcə həssas yanaşan Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2005-ci il dekabrın 16-da təbii və texnogen xarakterli fövqəladə halların vaxtında xəbərdar edilməsi, nəticələrinin çevik və effektli şəkildə aradan qaldırılması işinin vahid mərkəzdən idarə olunması məqsədilə Fövqəladə Hallar Nazirliyi yaradıldı. Bununla da fəlakətlərlə mübarizə işinin təşkilinə dövlət səviyyəsində sistemli yanaşmada yeni bir mərhələnin əsası qoyuldu.

Nazir ötən 20 il ərzində dövlət başçısının diqqət və qayğısı sayəsində Fövqəladə Hallar Nazirliyinin ən müasir maddi-texniki imkanlara malik, istənilən fövqəladə hadisə ilə uğurla mübarizə aparmaq iqtidarında olan peşəkar dövlət orqanı kimi formalaşdığını vurğulayıb.

Bildirib ki, Fövqəladə Hallar Nazirliyi yaradılarkən tabeliyinə verilən qurumların balansında olan xüsusi təyinatlı texnika və avadanlıqların əksər hissəsi fiziki və mənəvi köhnəlməyə məruz qalmış və müasir tələblərə cavab vermirdi. Dövlət başçısının diqqət və qayğısı sayəsində qısa zamanda Nazirliyin texnika parkının müasirləşdirilməsi istiqamətində ciddi addımlar atıldı, büdcə vəsaitləri hesabına dünyanın ən qabaqcıl ölkələrinin istehsalı olan müxtəlif təyinatlı maşın və avadanlıqlar alınaraq istismara verildi. Ötən illər ərzində alınan tək xüsusi texnikaların sayı 1134, o cümlədən yanğınsöndürmə avtomobillərinin sayı 789-dur. Bundan əlavə, yüzlərlə digər texniki vasitələr alınaraq istismara verilib.

Qısa müddətdə Bakıda və respublikanın bölgələrində doqquz regional mərkəzin fəaliyyəti təmin edildi, qurumların istifadəsi üçün yararsız inzibati və texniki binalar, depolar əsaslı təmir olundu, yeniləri tikildi. Belə ki, yola salınan illər ərzində yalnız yanğından mühafizə üzrə 80 ədəd yeni depo binası tikilərək istifadəyə verilib.

Nazir bildirib ki, xüsusi ixtisaslı ali təhsilli kadrların hazırlanması, əməkdaşların ixtisaslarının artırılması və fövqəladə hallar sahəsində elmi-tədqiqat işlərinin aparılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2008-ci ildə yaradılan Fövqəladə Hallar Nazirliyinin Akademiyası ötən müddətdə bakalavriat pilləsi üzrə 1650 nəfər, magistratura pilləsi üzrə 121 nəfər məzun yetişdirib.



Ümummilli Lider Heydər Əliyevin "Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan qaldırmaqdan daha asandır" müdrik kəlamını öz fəaliyyət prinsipi kimi qəbul edən Fövqəladə Hallar Nazirliyi fövqəladə halların vaxtında xəbərdar edilməsi və maarifləndirməni zəruri fəaliyyət istiqamətləri sırasında müəyyən edib. Ötən illər ərzində orta hesabla hər il 70 minə yaxın obyektdə yanğın-texniki müayinə, 4 minə yaxın obyektdə tikintiyə dövlət nəzarəti, 3,3 mindən artıq obyektdə təhlükə potensiallı qurğu və avadanlıqlar üzrə texniki müayinə, 200-ə yaxın obyektdə nüvə və radioloji təhlükəsizlik üzrə nəzarət-yoxlama tədbirləri həyata keçirilib, 1700-dən artıq kiçikhəcmli gəmiyə texniki baxış keçirilib.

Nazirliyin görülən kompleks tədbirlər sayəsində ötən illər ərzində baş vermiş müxtəlif mürəkkəblik dərəcəsinə malik fövqəladə hadisələrlə mübarizədən uğurla çıxdığını deyən nazir yanğın-xilasetmə əməliyyatlarına dair statistikaya diqqət çəkib. Qeyd edib ki, son 20 il ərzində ölkə iqtisadiyyatının üç dəfədən çox böyüdüyünü, çoxsaylı yeni istehsal müəssisələri və iş yerlərinin yaradıldığını, çoxşaxəli kommunikasiya sistemlərinin istifadəyə verildiyini, irimiqyaslı bərpa-quruculuq işlərinin aparıldığını, əhalinin sayının 2007-ci ildə təxminən 8 milyon yarımdan artaraq 2024-cü ildə 10 milyonu keçməsini nəzərə almaqla, 2007-ci ildə ölkə üzrə 4517 təbii və texnogen mənşəli hadisə qeydə alınmışdısa, 2024-cü il ərzində bu rəqəm 14856-ya bərabər olub. Bununla belə, hadisələrin sayında böyük artıma baxmayaraq, 2007-ci ildə göstərilən hadisələrdə 131 nəfər insan tələfatı qeydə alınmışdısa, 2024-cü ildə təbii və texnogen mənşəli hadisələrdə 83 nəfər həyatını itirib. Hadisələrin sayında bu qədər artım qarşısında insan itkisinin sayında azalma Fövqəladə Hallar Nazirliyinin çevik və effektli fəaliyyətinin mühüm göstəricisi olmaqla əldə edilən ən ciddi uğurlardan biri kimi dəyərləndirilməlidir. Bundan əlavə, Nazirlik yaranandan 2024-cü il də daxil olmaqla yanğın-xilasetmə qurumları tərəfindən yanğınlar, dağıntılar, qəzalar və digər fövqəladə hallar zamanı ümumilikdə 29 minə yaxın zərərçəkmiş, o cümlədən su hövzələrində batma təhlükəsində olan 5700-ə yaxın şəxs xilas edilib.

Nazir deyib: "Təkcə bir rəqəmi qeyd etsək, insanların Fövqəladə Hallar Nazirliyinə olan güvəni barədə aydın təsəvvür yaranmış olar. Belə ki, yanğın, partlayış, avtoqəza, tikintidə, sənayedə və dağ-mədən işlərində təhlükəsizlik qaydalarının pozulması və digər məsələlərlə bağlı "112" qaynar xəttinə 2024-cü il ərzində 2,2 milyona yaxın və ya orta hesabla hər gün 6 mindən artıq zəng daxil olub".

Ötən illər ərzində dünyanın bir çox ölkələrinin uyğun qurumları, habelə müvafiq beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı münasibətlər qurulub. Bu münasibətlər çərçivəsində müxtəlif səviyyəli qarşılıqlı səfərlər təşkil olunur, təcrübə mübadiləsi aparılır, əməkdaşların beynəlxalq təlim, seminar və treninqlərdə fəal iştirakı təmin olunur. Dövlət başçısının tapşırıqları əsasında Nazirliyin qüvvələri ötən illər ərzində müxtəlif ölkələrdə baş vermiş fəlakətlərin nəticələrinin aradan qaldırılması, həmçinin humanitar yardımların çatdırılması əməliyyatlarını da uğurla yerinə yetiriblər. Bu ilin iyul ayında Bakı şəhərində keçirilmiş Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş Assambleyasının 3-cü növbədənkənar sessiyasında Fövqəladə Hallar Nazirliyinin nümayəndəsinin təşkilatın Baş katibi seçilməsi isə sözsüz ki, ölkəmizin qlobal nüfuzundan, durmadan artan beynəlxalq çəkisindən xəbər verir.

K.Heydərov bir məsələni xüsusi vurğulayaraq bildirib ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva daim təbii və texnogen hadisələr zamanı zərərçəkən insanların yanında olur, onların problemlərinin həllinə xüsusi həssaslıqla, diqqət və qayğı ilə yanaşır, operativ olaraq irimiqyaslı hadisələrin baş verdiyi bölgələrə səfərləri zamanı fəlakətin nəticələrinin qısa müddətdə aradan qaldırılması üçün dövlətin bütün resurslarını səfərbər edirlər.

Nazir qeyd edib ki, Fövqəladə Hallar Nazirliyinin qüvvələri Vətən müharibəsi günlərində cəbhəboyu zonada yaşayan əhalinin təhlükəsiz məntəqələrdə yerləşdirilməsi və hər cür təminatının təşkili, döyüşlərdə yaralanmış əsgər və zabitlərimizin təyyarə və helikopterlərlə təxliyəsi, Ermənistanın mülki obyektlərə endirdiyi zərbələr nəticəsində yaranan yanğın və dağıntıların operativ aradan qaldırılması, zərərçəkmişlərin xilas edilməsi, onlara psixoloji yardımın təşkili kimi vəzifələri şərəflə yerinə yetirib.

Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarının fiziki sağlamlığına xüsusi diqqət yetirdiyini bildirən nazir deyib ki, ötən müddətdə müxtəlif idman növləri üzrə (taekvondo, karate, güləş, cüdo, boks, kikboksinq, ağırlıqqaldırma, stolüstü tennis, voleybol, minifutbol və s.) Nazirliyin komandaları, əməkdaşları və idmançı üzvləri Olimpiya Oyunları, İslam Həmrəyliyi Oyunları, MDB Oyunları, Dünya və Avropa çempionatları, beynəlxalq turnir və respublika yarışlarında uğurla çıxış edərək 256 qızıl, 318 gümüş və 532 bürünc medal qazanıblar.

Ötən illər ərzində qazanılan bütün uğurların əsasında dövlət başçısının daim Nazirliyə göstərdiyi diqqət və qayğının dayandığını vurğulayan nazir qeyd edib ki, möhtərəm cənab Prezidentin imzaladığı müvafiq sərəncamlarla Nazirliyin xidmətdə fərqlənən ümumilikdə 513 əməkdaşı müxtəlif orden və medallara, 34 nəfər fəxri adlara layiq görülüb.

Çıxışının sonunda peşə bayramı münasibətilə şəxsi heyəti bir daha təbrik edən nazir Kəmaləddin Heydərov Fövqəladə Hallar Nazirliyinin fəaliyyətinə hər zaman verdiyi yüksək qiymətə, göstərdiyi ali diqqət və qayğıya görə Nazirliyin şəxsi heyəti adından Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə dərin təşəkkürünü bildirib və əminliyini ifadə edib ki, ölkə əhalisinin və ərazilərinin təhlükəsizliyinin təmin edilməsi, maddi və mədəni sərvətlərin qorunması, vətəndaşlarımızın firavan həyat və fəaliyyətinin təmin edilməsi kimi şərəfli vəzifənin yerinə yetirilməsi üçün Nazirlik əməkdaşları bundan sonra da bütün qüvvə və bacarıqlarını səfərbər edəcəklər.

Sonra çıxış edən qonaqlar - Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibi Ərgüc Kələntərli, Qırğız Respublikasının fövqəladə hallar naziri Boobek Ajikeev və Rusiya Federasiyası fövqəladə hallar nazirinin müavini Roman Kurının Azərbaycan Fövqəladə Hallar Nazirliyinin kollektivini yubiley münasibətilə təbrik edib, fəaliyyətlərində uğurlar arzulayıblar.

Sonra "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarına ali hərbi və ali xüsusi rütbələrin verilməsi haqqında" və "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi əməkdaşlarının təltif edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2025-ci il tarixli sərəncamları oxunub.

Daha sonra tədbirdə xidmətdə fərqlənən əməkdaşların həvəsləndirilməsi tədbirləri haqqında fövqəladə hallar nazirinin əmri barədə məlumat verilib, bir qrup əməkdaşa təltiflər təqdim edilib.

Tədbirin sonunda mərasim iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevə müraciət qəbul olunub.

**Tədbirə bədii hissə ilə yekun vurulub.**

# "Qərb bunların içi üzünü bilib imtina edəndə şimala üz tutdular..."

**"Dövlətə xəyanət maddəsi bağlı Cinayət Məcəlləsində ən ağır maddədir. Bu gün Ramiz Mehdiyev də bu maddə ilə ittiham olunur. Məlum partiya sədri Əli Kərimlinin də Ramiz Mehdiyevlə gizli əlaqələrindən söhbət gedir. Çünki dövlətə xəyanət etmək keçmişinə, nəslinə, kökünə, şəcərəsinə xəyanət etmək deməkdir. Vətənə xəyanət etməyin mənası çox dərindir. Bu cür insanlara hansısa formada humanist münasibət göstərilməsi qətiyyən olmaz. Bu şəxslər ən sərt formada cəzalandırılmalıdır ki, başqalarına da nümunə olsun və belə xətaları heç kim etməsin".**




Bunu Adalet.az-a açıqlamasında "Yeni Xətt" Siyasi Tədqiqatlar Mərkəzinin rəhbəri Ramil Hüseynov deyib.

O, bildirib ki, Əli Kərimlinin gizli əlaqələrinin olması bu günün yox, çoxdanın məsələsidir:

"Çünki söhbət Milli Şuradan, Milyonerlər İttifaqından gedir. Partiya sədrlərinin zaman-zaman öz siyasi xətlərində dönüşlərin etməsi və bu dönüşlərin yaranması əslində elə həmin məsələlərlə bağlı imiş sən demə. Biz əvvəllər də buna öz mövqeyimizi bildirmişik, sadəcə o vaxt heç kim məsuliyyəti öz üzərinə götürmürdü. Gizli əlaqələr təbii ki, o vaxt da mövcud idi. Bilirsiniz o vaxt qərbyönümlü, kommunist, liberallar kimi adlarla fəaliyyət göstərən partiyalar var idi, hər biri özlərini bir ölkəylə bağlamaq istəyirdilər və həmin ölkənin nümayəndəsi kimi özlərini aparırdılar. Onların eləsi var idi ki, həqiqətən də özünü təqdim etmək istəyirdi, eləsi də var idi ki, artıq təqdim etmişdi və həmin ölkələr tərəfindən də müəyyən maliyyə və digər siyasi dəstəklərə nail olmuşdu".

O, bildirib ki, sonradan bu partiyaların içi üzü açıldı və onların dərin prespektivə malik olmayan, siyasi nəzəriyyəni bilməyən siyətçi olduğu ortaya çıxandan sonra Qərb dairələri bunlardan imtina etməyə başladı:

"Onlar da öz siyasətlərində bunlarla bağlı dönüş yaratdılar. Bunlar bunu hiss edən kimi Şimala doğru üz tutdular. Dövlətə xəyanət və yaxud da ki, hakimiyyətin dəyişilməsi ilə bağlı bunlarda ümidlər qığılcımı ondan yaranmağa başladı".

R.Hüseynov deyib ki, bunun da nəticəsi indi bəllidir ki, onlar bu gün həbsdədir:

"Bizim müvafiq dövlət qurumları çox peşəkar fəaliyyət göstərirlər. O qurumların hansısa bir əsasları olduğuna görə onlar bu gün həbsdə saxlanılır.

Onların Azərbaycan məhkəmələrinə həmişə saygısızlıq göstərmələri, "biz tanımırıq", "legitim saymırıq" kimi ifadələri də boş, mənasız bir illuziya idi. İndi onlar mərhələli şəkildə məhkəmələrə müraciət edib həbslərinin ev dustaqlığı ilə əvəz edilməsini istəyirlər.

Əgər həqiqətən də sizin üçün Azərbaycan qanunları qeyri-legitim idisə, onda niyə siz bu müraciətləri edirsiniz?! Bütün bunlar hamısı populist, xalqın gözünə yalan danışmaq idi. Xalq da bunların kim olduğunu bilir və ona görə də heç bir ciddi dəstək, siyasi uğur qazana bilmirlər. Bu uğursuzluq da onların psixoloji durumuna ciddi zərbə vurub və bu zərbənin altında da narsist siyasət həyata keçirməklə məşğuldurlar. Arzu edirəm ki, bu siyasi proseslərdə əli olan kimlər varsa, onları da xalqa tanıtdırsınlar. Dövlət orqanlarından xahişim budur".

**Vasif ƏLİHÜSEYN**

# Komitə sədri: "Qara bazarın formalaşmasına qarşı ciddi mübarizə aparılmalıdır"

**"Bütövlükdə siqaret bazarına münasibətdə dövlət fiskal maraqlar güdmür. Bu seqment tamamilə qadağan edildikdən sonra həm idxal rüsumlarından, həm aksizlərdən, eyni zamanda əlavə dəyər vergisindən dövlət bir növ imtina etmiş olur. Bu da büdcə üçün itkilərdir. Yəni tərəzinin gözünə qoyanda büdcə itkiləri, büdcə vəsaitləri, yoxsa əhalinin sağlamlığı? Təbii ki, dövlətimizin ümumi siyasəti vətəndaşa yönəlikdir. Bu baxımdan burada həm də dövlətimizin indiyə kimi əsas götürdüyü dəyərlər, prinsiplər olduqca önəmlidir".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisdə 3 komitənin birgə iclasında parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, deputat Azər Əmiraslanov deyib.

Deputat iqtisadi aspektlərə diqqət çəkib: "Elektron siqaretlər idxala əsaslanır və bunun yerli istehsalı yoxdur. Bir tərəfdən vətəndaşımız üçün, gənclərimiz üçün ziyanlıdır. İkinci bir tərəfdən də biz sanki bu məhsulların istehsalçısı olan xarici ölkələri maliyyələşdirmiş oluruq. Yəni bunun bəlli bir məbləğdə idxalı var. O baxımdan bunun həm də indiki şəraitdə iqtisadiyyatımız üçün bunun müsbət tərəflərini qeyd edə bilərik".



"Təbii ki, qadağalar varsa da, qara bazar, qaçaqmalçılıq, hansısa bir şəkildə bu cür məhsullara əlçatanlığın təmin edilməsi halları da müşahidə oluna bilər. Sonrakı mərhələdə biz hesab edirik ki, məhz bu qara bazarın formalaşmasına qarşı ciddi mübarizə tədbirləri aparılmalıdır. Hətta elektron siqaretlər rəsmi olaraq, yeni qadağan olunmadığı bir şəraitdə də bu istiqamətdə biz o cəhdləri görürük və bu cəhdlərin qarşısı alınmaqdadır. Bütövlükdə biz hesab edirik, bu təşəbbüs təqdirəlayiqdir. Bizim komitənin profili üzrə Vergi Məcəlləsində aksizlərdən azadolunmalar, güzəştlərlə bağlı maddədə, o cümlədən aksizli malların siyahısı, vergi dərəcələri ilə bağlı olan maddələrdə dəyişiklik olur. Dəyişiklik bundan ibarətdir ki, həmin siyahılardan, maddələrdən elektron siqaretlər çıxarılır. Bir halda ki, bunlar qadağan olunursa, bu da aksiz vergisinin obyektiv predmeti ola bilməz".

**Nicat**

# "Vəzifədə olan şəxslərin etdiyi haqsızlıqlar cəzasız qalmır..."

**Xəbər verdiyimiz kimi, Balakənin sabiq icra başçısı İslam Rzayevin rüşvət alması ilə bağlı Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən yayılan videosu ictimaiyyət tərəfindən birmənalı qarşılanmadı. Görüntülərdən də açıq-aşkar məlum olur ki, icra başçısı ancaq rüşvət yığmaqla məşğuldur.**



Məsələylə bağlı Adalet.az-a danışan professor Qulu Məhərrəmli bildirdi ki, DTX tərəfindən bu cür əməliyyatların keçirilməsi çox vacibdir: "Son dövrlərdə Dövlət Təhlükəsizlik Xidməti nə qədər əməliyyat keçirib, icra başçıları, vəzifədə olan şəxslər yaxalanıb, həbsxanaya düşüb. Amma görün heç nəticə çıxaran varmı?! Ona görə də bunların nəticə çıxartması üçün belə əməliyyatların aparılması vacibdir. Digər tərəfdən vəzifə sahibləri dərk etməlidir ki, onları o vəzifəyə ona görə təyin etmirlər ki, çapıb-talasınlar, insanlardan rüşvət alsınlar.

Həm mənəvi mühiti çirkləndirsinlər, həm də insanların qəzəbinə səbəb olacaq hərəkətlər etsinlər. Onları ona görə vəzifəyə təyin ediblər ki, hakimiyyəti, dövləti təmsil etsinlər. İnsanlar onlara inanır, Prezident onlara etimad göstərir. Amma bunun üzərindən tutaq ki, hər şeyi rüşvətlə həll etmək, insanların əsəbləri ilə oynamaq, onların haqqını tapdamaq. Belə addımlar istər-istəməz qəbul olunmur.

Professor deyib ki, heç kim düşünməməlidir ki, etdiyi ədalətsizliklər, haqsızlıqlar, aldığı rüşvətlər, insanların səhhətinin pozulmasına səbəb olan davranışlar cəzasız qalacaq:

"Bu cür əməliyyatlar göstərir ki, belə hallar cəzasız qalmır. Ona görə vəzifədə olan hər kəs düşünməlidir ki, onları vəzifəyə öz ciblərinə yox, insanlara xidmət etmək üçün təyin edirlər. Əsas məsələ budur. Ona görə də DTX bu əməliyyatları heç vaxt dayandırmamalıdır, əksinə davam etdirməlidir".

**Eldar**

*Səxavət Məmməd*



# Türkiyə S-400-ləri qaytarsa... - Azərbaycana lazımdırmı?

**Bir neçə gün öncə ABŞ-nin Türkiyədəki səfiri Tomas Barak bəyan edib ki, Türkiyə S-400 hava hücumundan müdafiə (HHM) sistemindən imtina edə bilər. Səfir hətta bu prosesin 4-6 ay ərzindən həll ola biləcəyini də qeyd edib.**

**Səfirin bəyanatında diqqət çəkən məqamlardan biri də, ABŞ ilə Türkiyə arasındakı gərginliyin səbəbi kimi Rusiyadan alınan S-400-lər olduğunun göstərilməsidir. ABŞ tərəfinin bu bəyanatından sonra S-400-lərin Rusiyaya qaytarılması, hətta Azərbaycana satılması kimi məsələlər, iddialar müzakirə olunur.**

**Əvvəla onu qeyd etmək lazımdır ki, ABŞ ilə Türkiyə arasındakı gərginliyin səbəbi kimi S-400-lərin Rusiyadan alınması göstərilsə də, əslində problem S-400-lərin alınmasından əvvəl başlamışdı. Problemin səbəbi kimi önə çıxarılan S-400-lər yox, Türkiyənin tələb etdiyi "Patriot" HHM-ləri idi. Türkiyə ABŞ-dən "Patriot"lar tələb edirdi. Ancaq ABŞ tərəfi bu sistemləri Türkiyəyə satmaqdan imtina etdi.**

**Bunun qarşılığında isə Türkiyə müasir HHM sistemləri axtarışına çıxdı və Rusiyadan S-400-lər aldı. Buna cavab olaraq isə, ABŞ Türkiyəni F-35 proqramından çıxardı. ABŞ tərəfi indi bəyan edir ki, Türkiyə S-400-dən imtina etsə, onu F-35 proqramına qaytara bilər. Hesab edək ki, Türkiyə S-400-ləri Rusiyaya qaytarır, yaxud Azərbaycana satılmasına nail olur (bu məsələyə aşağıda toxunacam) və F-35 proqramına qayıdır. Türkiyənin HHM tələbi olmayacaq? Düşünürəm ki, bu versiya baş tutsa belə, proses yenə sıfır nöqtəsinə qayıdacaq. Türkiyə yenə "Patriot" tələb edəcək. ABŞ "Patriot" satacaq? İndiki mərhələdə inanadırıcı görünmür. Çünki ABŞ yalnız F-35 proqramına qayıtmaqdan bəhs edir, HHM-lə bağlı problemi aradan qaldırmaq yönündə heç bir fikir səsləndirmir.**

**İran İsrail toqquşmasını Türkiyə tərəfi dərindən təhlil edib. Mətbauta yayılan hissədə Türkiyədə açıq şəkildə boşluqlar qeyd olunur və bu xüsusilə HHM, sığınacaqlar, orta və uzaq mənzilli raketlərə ehtiyaclarla bağlıdır. Yəni, Türkiyə HHM problemini həll etməlidir, özü də ən qısa zamanda. Türkiyə F-35 proqramından çıxarılıb, hesab edirəm ki, haqsız yerə və F-16-ların moderinləşdirilməsinə də qadağa qoyulub. Buna cavab olaraq da, Türkiyə Avropanın 4 ölkəsinin (Böyük Britaniya, Almaniya, İtaliya, İspaniya) birgə istehsalı olan Eurofighter Typhoon qırıcılarını almaq üçün danışıqlar aparır, hətta bu qırıcıların Türkiyəyə satışı barədə razılığın əldə olunması iddia olunur. Eurofighter Typhoon qırıcıları 4-cü nəsil qırıcılardan üstün, 5-ci nəsil qırıcılardan isə aşağıdır. Türkiyə qırıcı məsələsində alternativ tapıb. Ancaq Türkiyə HHM problemi ilə bağlı alternativ hələ də tapmayıb. İsraillə Türkiyə arasında böyük ticarət dövriyyəsi olsa da, Türkiyənin indiki məqamda İsraildən HHM sistemləri alacağı inandırıcı deyil.**

**Yeni strateji HHM sahəsində iki seçim var, ya "Patriot", ya da S-400. Rusiya Ukrayna müharibəsi də HHM sistemlərinin əhəmiyyətini ortaya qoyur. İran İsrail toqquşması isə bu məsələdə dövlətləri daha çevik davranmağa sövq edir.**

**Türkiyədən fərqli olaraq Azərbaycanın hava məkanının müdafiəsi sərhəddən sərhədə təşkil olunur. Azərbaycan S-300-dən əlavə Çindən HQ-9 HHM sistemləri də alıb. Sual yarana bilər, Azərbaycana S-400-lər lazımdır? Strateji baxımdan lazımdır. Türkiyə S-400-ləri Azərbaycana satmaq istəsə belə, bunu Rusiyanın icazəsi olmadan edə bilməz. Xatırlayaq, Yunanıstan S-300-ləri Ermənistana satmaq niyyətində olduğunu bildirən zaman Rusiyadan dərhal cavab gəldi ki, Moskvanın icazəsi olmadan bu mümkün deyil və söhbət birdəfəlik bağlandı. Alqı-satqı məsələsini qoyaq bir kənara, Rusiya, İran və Cənubi Qafqazda maraqları olan ölkələr regionda güc balansının bu qədər dəyişməsinə, Azərbaycanın bu qədər güclənməsinə razı olarlar? İnandırıcı deyil. Ümumiyyətlə, Azərbaycan üçün birinci dərəcəli məsələ S-400-dür? Qətiyyən! Azərbaycan onsuzda hava məkanı ən yaxşı qorunan ölkələrdən sayılır. Azərbaycan üçün birinci dərəcəli məsələ kadrların qorunması, inkişafı, yüzlərlə dron operatorlarının hazırlanması, süni intellekt sahəsinə yatırımların edilməsi, humanoidlər və digər məsələlərdir, yaxud olmalıdır.**

**Döyüş təyyarələri, HHM sistemləri strateji əhəmiyyətə sahibdir. Yəni, Türkiyənin S-400-ləri Rusiyaya qaytarması iki ölkə arasında gərginliyə gətirib çıxara bilər. Bu məsələ iki ölkə arasında hansı problemlər yaradar başqa yazının mövzusudur, daha çox da politoloqların işidir.**

**Ancaq dəqiq olan budur ki, iki ölkə arasında gərginlik birbaşa Cənubi Qafqazda hiss olunar. Hətta bu gərginlik təkcə diplomatik yox, sahədə də özünü göstərər.**

# Azərbaycan və Türkiyə bu halda bir-birinə qarşılıqlı hərbi yardım göstərəcək

**""Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Türkiyə Respublikasının Milli Müdafiə Nazirliyi arasında qarşılıqlı hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə dair Anlaşma Memorandumu"nun məqsədi qarşılıqlı olaraq tərəflərin dövlətlərinin təhlükəsizliyinin və ərazi bütövlüyünün təmin olunması, habelə suverenliyinin və müstəqilliyinin qorunması üçün tərəflər arasında müdafiə sahəsində əməkdaşlığın gücləndirilməsidir".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin iclasında parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, deputat Arzu Nağıyev deyib.

O bildirib ki, sənəd Azərbaycan-Türkiyə strateji müttəfiqliyinin, o cümlədən Şuşa Bəyannaməsində təsbit olunmuş müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın dərinləşdirilməsinə xidmət edir:

"Memorandumun məqsədi hərbi təhlükəsizlik sahəsində qarşılıqlı koordinasiyanın gücləndirilməsi, birgə təlimlərin, hərbi təhsilin və müdafiə sənayesi üzrə əməkdaşlığın inkişaf etdirilməsidir. Sənəd 8 maddədən ibarətdir. Razılığa əsasən, tərəf dövlətlər birinin silahlı təcavüzə məruz qaldığı halda BMT Nizamnaməsinin 51-ci maddəsi ilə tanınan fərdi və birgə özünümüdafiə hüquqlarının həyata keçirilməsi üçün bir-birlərinə qarşılıqlı yardımın göstərilməsi öhdəliyini götürürlər.

Tərəflərin bir-birlərinə hərbi yardım göstərməsi onlardan birinin sorğusu



əsasında və buna dair milli qanunvericiliklərində müəyyən edilmiş qaydaya uyğun olaraq həyata keçirilir. Tərəflər dinc dövrdə yuxarıda qeyd edildiyi kimi mütəmadi olaraq birgə hərbi təlimlər və manevrlər keçirirlər. Memorandum yalnız hərbi əməkdaşlıq və hərbi təhlükəsizlik sahəsindəki məsələləri əhatə edir və bu çərçivədə yalnız müdafiə sahəsində qarşılıqlı yardım, təlim, təchizat və tərəflərin birlikdə fəaliyyət qabiliyyətinin artırılmasını ehtiva edir. Tərəflər, öz milli qanunvericiliklərinə uyğun olaraq, hərbi sahədə məlumat mübadiləsini və hərbi kəşfiyyat əməkdaşlığını gücləndirirlər, buna müvafiq olaraq, hərbi təhlükəsizlik sahəsində əldə olunan məlumatları ( məxfi, tam məxfi, xüsusi əhəmiyyətli) bir-birləri ilə paylaşa və bu məlumatlardan birgə əməliyyatlar zamanı istifadə edə bilərlər".

Komitə sədri bildirib ki, tərəflər arasında bu Memorandumun təfsiri və ya həyata keçirilməsi ilə bağlı yaranan fikir ayrılıqları yalnız tərəflər arasında keçiriləcək danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilir:

"Anlaşma Memorandumuna tərəflərin qarşılıqlı yazılı razılığına əsasən istənilən zaman düzəliş və ya əlavələr edilə bilər. Tərəflərdən hər biri digər tərəfə ləğvetmə niyyətini diplomatik kanallar vasitəsilə yazılı şəkildə bildirərək Memorandumu ləğv edə bilər.

Bu halda Memorandum həmin bildirişin alındığı tarixdən 60 gün sonra ləğv edilir. Anlaşma Memorandumu beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq həyata keçirilir, üçüncü dövlətlərə qarşı yönəlmir və regionda sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə töhfə verir".

**Nicat**

*Rüstəm Hacıyev*



# Tramp ATƏT-in uğursuz yolunu təkrar edir?..

***ABŞ prezidenti Donald Tramp Ukrayna münaqişəsinin sülh yolu ilə həll olunması üçün növbəti addımını atır. Ağ Ev rəhbərinin xüsusi elçisi Stiv Uitkoff və kürəkəni biznesmen Cerald Kuşner, münaqişənin həll ilə bağlı Ukrayna nümayəndələrilə danışıqlar aparmaq üçün, ABŞ nümayəndə heyyətinin tərkibində Berlinə gediblər.***

***Bu barədə məlumat verən Bild mətbu orqanı bildirir ki, danışıqlar, Almaniya kanslerinin xarici siyasət və təhlükəsizlik məsələləri üzrə məsləhətçisi Günter Zautter və Ukraynanın Milli təhlükəsizlik və müdafiə şurasının katibi Rustem Umerovla aparılır.***

***Ukrayna prezidenti Volodimir Zelenski özünün Teleqram-kanalında bildirib ki, o da, ABŞ və Avropa İttifaqı nümayəndə heyyətləri ilə danışıqlar aparmaq üçün Berlinə gedəcək.***

***ATƏT də, düz otuz il erməni separatçıların beynəlxalq hüquqa zidd tələblər irəli sürmələri ucbatından heç bir nəticə əldə etməyəcəyini bilə-bilə, gah "aranda", gah "turanda" Azərbaycan və Ermənistan nümayəndə heyyətləri ilə saysız-hesabsız gprüşlər keçirir, danışıqlar aparırdı. Sonda, Ali Baş komandanımız "dəmir yumruğu" ilə məsələni özü həll etdi.***

***İndi, ABŞ prezidenti və administrasiyasıda yaxşı bilirlər ki, Ukrayna və ukraynalılar, heç vaxt Rusiya tərəfinin irəli sürdükləri, məğlubiyyətə bərabər tələbləri ilə razılaşmayacaqdır. Lakin... cəhdlərini davam etdirirlər.***

# Əhməd İsmayılov: "Azərbaycanda dezinformasiya problemi ölkənin nüfuzu artdıqca özünü daha qabarıq büruzə verir"

**Dezinformasiya bizim ümumi problemimizdir və onun həlli, cəmiyyətlərimizin müqavimətinin gücləndirilməsi hamımızın birgə səyindən, həmrəyliyindən birbaşa asılıdır.**

Adalet.az xəbər verir ki, bunu Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov Türk dövlətlərinin Dezinformasiya ilə Mübarizə Forumunda çıxışı zamanı deyib.

Onun sözlərinə görə, Azərbaycanda dezinformasiya problemi ölkənin beynəlxalq nüfuzu artmaqda davam etdikcə özünü daha qabarıq şəkildə büruzə verir:

"Xüsusilə, ölkəmizdə keçirilən böyük beynəlxalq tədbirlər zamanı müxtəlif qarayaxma kampaniyalarının şahidi oluruq.

Bu kampaniyalar çaşqınlıq və qeyri-sabitlik səpmək üçün nəzərdə tutulur, çox vaxt bizim reputasiyamıza xələl gətirmək məqsədi daşıyan yalan hekayələr formasında özünü göstərir".



Ə.İsmayılov qeyd edib ki, bu kimi zərərli tendensiyaları aradan qaldırmaqda peşəkar medianın üzərinə iki qat məsuliyyət düşür:

"Hər bir ölkənin doğru, qərəzsiz, obyektiv və məsuliyyətli informasiya mühitinin möhkəmləndirilməsi əsas məqsəd kimi qarşımızda dayanır. Eyni zamanda, Türkiyə-Azərbaycan birgə media platforması çərçivəsində, habelə digər türk dövlətləri ilə keçirdiyimiz birgə forumlar və mötəbər tədbirlərdə dezinformasiya ilə mübarizə məsələləri daim diqqət mərkəzində olmuşdur".

# Azərbaycanda bu şəxslərə iki dəfə çox maaş ödəniləcək



**"Əmək Məcəlləsinə təklif edilən dəyişikliklərə əsasən, istirahət, səsvermə, iş günü hesab edilməyən bayram günləri və ümumxalq hüzn günü görülən işə görə əməkhaqqı ödənilən zaman yalnız gündəlik deyil, saatlıq tarif maaşı da nəzərə alınacaq". Adalet.az xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O xatırladıb ki, dəyişikliklər Milli Məclisin Əmək və sosial siyasət komitəsində birinci oxunuşda dəstəklənərək plenar iclasa tövsiyə edilib.**

"Belə ki, həmin günlərdə əməyin vaxtamuzd ödənilmə sistemində gündəlik və saatlıq tarif maaşının iki mislindən, əməyin işəmuzd ödənilmə sistemində ikiqat işəmuzd qiymətlərində və aylıq maaş alan işçilərə iş aylıq iş vaxtı norması çərçivəsində görülmüşsə, maaşdan əlavə gündəlik və saatlıq vəzifə maaşı məbləğindən aşağı olmamaqla, əgər iş aylıq iş vaxtı normasından artıq vaxtda görülmüşsə, maaşdan əlavə gündəlik və saatlıq vəzifə maaşının ikiqat məbləğindən aşağı olmamaqla əməkhaqqı ödənilməsi.

Saatlıq vəzifə maaşının Məcəlləyə əlavə edilməsi işçilərin əmək hüquqlarının qorunması və onların daha yüksək maaş ilə təmin olunması baxımından vacib idi. Belə ki, bəzi hallarda həmin günlərdə iş müddəti tam iş günü deyil, müəyyən saatları əhatə edir. Yeni dəyişiklik bu hallarda praktikada da işçilərə hər saata görə əlavə maaş ödənilməsinə şərait yaradacaq.

Əgər işçinin saatlıq tarifi 25 manatdırsa, istirahət, səsvermə, iş günü hesab edilməyən bayram günləri və ümumxalq hüzn günü işləməkdə davam edibsə və 3 saat əlavə işdə olubsa, həmin saatlara görə 75 manat deyil, ən azı 150 manat maaş hesablanacaq. Digər tərəfdən, Azərbaycanda saatlıq iş rejiminə keçidin müzakirə olunduğunu nəzərə alsaq, bu maaş ödənişlərinin beynəlxalq standartlara uyğunlaşmasına imkan verəcək".

**Sübhan**

# "Sülh müqaviləsinin Moskvada imzalanmasını nəinki Azərbaycan tərəfi..."

**"Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin Moskvada imzalanması üçün Kremlin mübarizəyə başlaması haqda müxtəlif mülahizələr yürüdülür, fikirlər söylənilir. Rusiya rəsmiləri bu haqda zamanla müəyyən açıqlamalar veriblər və bir müddət əvvəl Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin "Rusiya Azərbaycan və Ermənistanın sülh sazişi imzalaması üçün öz ərazisini təqdim etmək təklifini qüvvədə saxlayır" deməişdi".**

Bunu Adalet.az-a açıqlamasında siyasi şərhçi Tural İrfan deyib.

Onun sözlərinə görə, lakin məsələ ondan ibarətdir ki, Ermənistan və Azərbaycan arasında münaqişə bitib və sülh prosesinə aparan yolda qarşıya çıxan cari məsələlərin bilavasitə danışıqlar, qarşılıqlı səfərlər, müzakirələr vasitəsi ilə həll olunduğu artıq reallıqdır:

"Yəni, daha heç bir vasitəçiyə ehtiyac yoxdur. Sülh sazişinin mətni isə Vaşinqtonda paraflandı. Ermənistan konstitusiyasındakı müəyyən müddəaları çıxardıqdan və öhdəsinə düşən bəzi məsələləri həll etdikdən sonra sülh müqaviləsinin imzalanması haqda və onun hansı məkanda həyata keçirilməsi mövzusunda danışıla bilər. Moskva bununla bağlı tələsgənlik edərək özünü sülh göyərçini kimi təqdim etmək istəyir. Halbuki bu ölkələr arasındakı keçmiş münaqişənin bünövrəsi Rusiyada qoyulmuşdu. Kreml bu kimi süni təşəbbüslərlə əsrlər boyu birinə düşmən edərək istila etdiyi iki xalqı yenidən əsarətdə, dövlətlərini də nəzarətdə saxlamağa ümid edir".

T.İrfan bildirib ki, sülh müqaviləsinin Moskvada imzalanmasını nəinki Azərbaycan tərəfi, ola bilsin Paşinyan hökuməti də qəbul etməz: "Artıq son dönəmlərdə erməni cəmiyyətində və rəsmilər arasında da keçmiş Qarabağ münaqişəsinin məhz Rusiyanın təhriki ilə yaradılmış problem olduğu etiraf olunur. Azərbaycana gəldikdə isə Ukrayna müharibəsinə görə ABŞ ilə Rusiya arasında dərin fikir ayrılığı var. Azərbaycan Rusiyanın Ukraynaya qarşı işğal siyasətini və müharibəni qəbul etmir. Eyni zamanda Azərbaycanın Rusiya səmasında təyyarəsi vurulub və bununla bağlı Moskva hələ də öhdəsinə düşən müvafiq addımları atıb narazılığın aradan tam qaldırılmasını təmin etməyib. Ola bilsin sülh müqaviləsinin imzalanması ərəfəsində müəyyən addımlar ataraq sənədin imzalanması üçün Moskvanın seçilməsi barədə yenidən cəhdlər etsin. Lakin bu cəhdlərin reallaşması mümkünsüz görünür həm də ona görə ki, Azərbaycan və Ermənistan Rusiyanın Cənubi Qafqazdakı təsir imkanlarının azaldılmasında maraqlıdır".

Siyasi şərhçinin sözlərinə görə, Ermənistanın Türkiyə ilə daha yaxından əməkdaşlıq və tərəfdaşlıq səyləri açıq hiss olunur:

"Odur ki, Azərbaycan və Ermənistanın vasitəçiyə ehtiyac duymadığı sülh prosesinin yekununda sənədin imzalanması elə Türkiyənin özündə də baş tuta bilər.

Artıq Azərbaycanla münasibətlərin qaydaya salınıb sülh müqaviləsi imzalanandan sonra İrəvanın Türkiyə ilə də müxtəlif sahələrdə əlaqələri inkişaf edəcək.

Bölgədə siyasi balansın Türkiyə xeyrinə dəyişməsi, ABŞ-ı və Avropa İttifaqı ilə inkişafı sürətlənən əlaqələr buna əsas verir ki, sözü gedən sənəd Moskvada imzalanmasın. Hər halda bu məsələ barədə danışmaq hələ tez olsa da Kremlin ciddi-cəhdləri mövzu ətrafında mülahizə və müzakirələri labüdləşdirir. Hələ Ermənistanda seçkilər və konstitusiya dəyişikliyi prosesi başa çatdıqdan sonra sülh müqaviləsinin imzalanması və məkanı məsələsi aktuallaşacaq".

**Vasif ƏLİHÜSEYN**

# Türkiyədə təhlükəli virus yayılır

**Dünyada narahatlıq doğuran mutasiyaya uğramış H3N2 qrip virusu Türkiyədə görünməyə başlayıb.**

Adalet.az xəbər verir ki, Qrip A kimi də adlanan virus artıq yeddi nəfərdə aşkarlanıb.

Sözügedən şəxslər artıq xəstəxanaya yerləşdiriliblər.

H3N2 virusunun şiddətli baş və oynaq ağrısı, yüksək hərarət və quru öskürək kimi simptomlarla özünü göstərir. 65 yaşdan yuxarı insanlarda, hipertoniya və diabet xəstələrində, astma və xroniki ağciyər xəstəlikləri olanlarda ağır pnevmoniyaya səbəb ola bilər.



**Faiq QİSMƏTOĞLU**
**faiqqismetoglu@box.az**

# Telefon bizim evimizi yıxıb...

**... Mobil telefonlar və sosial şəbəkələr olandan sonra insanlar bir-birindən yaman uzaq düşüblər! Sanki telefonlar və sosial şəbəkələr insanlar arasında bir uçurum yaradıb. Belə baxanda mobil telefonlar yaxşı şeydi ey! Evində oturub, dünyanın o başında olan insanlarla əlaqə yaradırsan.**

**Və hətta görüntülü danışıb həmin adamın nəfəsini də hiss edirsən. Eləcə də bir çox vacib işlərini bu cihazla gerçəkləşdirirsən! Belə baxanda bunun nəyi pisdi? Əlbəttə, heç nəyi! İstənilən informasiyanı, istənilən məlumatı onun vasitəsilə ala bilirsən! Amma adam da var ki, sutkanın 24 saatının 15 saatını telefonla keçirir! Və piyada yol gedəndə də, habelə yolu keçəndə də gözlərini telefonun ekranından çəkmir. Belə piyadaları avtomobil vura bilər, eləcə də həmin ekrandan gözlərin çəkməyən gənclərin bir neçəsi ilə Allaha and olsun küçədə toqquşmuşam.**

**Demişəm ki, ay oğul, ay qız, başını qaldırıb bir yola bax da! O da heç nə eşitməyibmiş kimi yoluna davam edib və başqa bir adamla toqquşub! Telefon insanların ünsiyyətini də məhv edib. Bacı, qardaş, əmioğlu, dayıoğlu illərlə bir-birinin qapısını açmır, ancaq bir-birilə telefonla əlaqə yaradır. Və bir də eşidir ki, əzizi rəhmətə gedib.**

**Bax onda oyanır və deyir ki, kaş onunla heç olmasa, bir dəfə görüşəydim! Artıq hər şey gec olur! Yəni "qatar" gedib. Beləcə biz doğmalarımızdan soyuyur, xəstə olanda, çətin vəziyyətdə ona baş çəkmirik. İtirəndən sonra isə bir dizimizə, bir də başımıza döyürük! Bir neçə gün bundan əvvəl metroda bir hadisənin şahidi oldum və onların bu hərəkətlərindən "üşüdüm"! Deməli belə. Bir qəşəng qızla qəşəng oğlan vaqona daxil olub əyləşdilər. Hiss olunurdu ki, sevgilidilər. Amma hər ikisi oturan kimi gözlərini mobil telefona dikdilər.**

**Beş-altı dəqiqədən sonra oğlan yatdı. Zalım oğlu elə bil ki, yorğan-döşəkdə yatmışdı. Qız telefonla yatmış sevgilisini çəkməyə başladı. Və beləcə sonuncu stansiyaya qədər oğlan yatdı və qız da onu çəkdi. Sözümün canı odur ki, telefon çıxandan sonra sevgi adiləşib, solub və gözəlliyini itirib... Nə isə... Bax telefon bizi beləcə bir-birimizdən soyudub və sevgimizi, məhəbbətimizi, insanlığımızı əlimizdən alıb.**

**Bəs, indi biz bu ülvi hisslərimizi necə geri qaytaraq??? Ya telefonu atıb sevgidən, ünsiyyətdən, insanlıqdan yapışmalıyıq, ya da onları atıb telefondan! Hansını seçək, qardaşlar???**

## Tramp sülh bağlayır, müharibə davam edir

**ABŞ prezidenti milad bayramınadək, yəni dekabrın 25-ə qədər Rusiya- Ukrayna müharibəsini sülh razılaşması yolu ilə həll etmək istəyir. Hətta Ukraynanın təhlükəsizliyinin qorunması naminə NATO-nun 5-ci maddəsini tədbiq edəcəyinə belə söz verir.**

Əslində 5-ci maddə təqdim olunan qaydada Ukraynanın təhlükəsizliyinə təminat verə bilməz. Ona görə də, ABŞ prezidentinin düşüncəsinə görə təhlükəsizliklə bağlı bu təklif sadəcə olaraq Ukraynanın biabırçı sülhlə razılaşması üçün stimul ola bilər.



Ukrayna NATO üzvü deyil və yaxın gələcəkdə də üzv olacağı mümkün görünmür. Ona görə də, Ukraynanın təhlükəsuzliyi ilə bağlı ABŞ-ın alyansın adından verdiyi vəd əbədi ola bilməz. Əslində NATO üzvü olmadan, verilən bu cür formal xarakter daşıyan vədlərin effekti də olmur.

Avropanın bəzi KİV-ləri, mənbələrinə istinadən bildirirlər ki, bu günlərdə ABŞ və Ukrayna nümayəndələrinin Berlində keçirilən görüşündə, məsələ ilə bağlı artıq bəndlərin 90 faizi razılaşdırılıb.

İndi əsas məsələ, qalan 10 faizdir ki, bu da Ukraynanın ərazi bütövlüyünün itirilməsi ilə bağlıdır ki, bu da ABŞ prezidentinin milad bayramına kimi sülh razılaşmasının imzalanmasına nail kla biləcəyini şübhə altlna salır.

Nəzərə alsaq ki, Rusiya işğal etdiyi ərazilərin Ukrayna tərəfindən tanınmasından başqa variantları qəbul etməyəcək, deməli müharibə 2026- cı ildə də davam edəcək...

**Rüstəm HACIYEV**

## Günəşli camaatına muştuluq?



**Günəşli camaatı uzun müddət sizin marşrut sarıdan bəxtiniz gətirməyib.Həmin istiqamətdə hərəkət edən 104, 36, 50 saylı marşrutda işləyən avtobuslar köhnə olub, istismar müddətini başa çatdırıb.**

Ona görə də, o avtobuslar tez-tez sıradan çıxaraq yarıyolda qalıblar. Sənişinlər yayda istidən, qışda soyuqdan əziyyət çəkiblər.Biz dəfələrlə bu marşrutlar barədə tənqidi yazılar vermişk. Və nə yaxşı ki, sənişinlərin və bizim səsimizi eşitdilər.

Artıq dörd aydır ki, 104 nömrəli marşrutda işləyən avtobuslar yenilənib və xəttə müsir tələblərə , standartlara cavab verən avtobuslar buraxılıb.Yeni Günəşli camaatının gözləri aydın! Belə ki, üç- dörd gündür ki, 36 nömrəli marşrutda işləyən avtobuslar da , yeniləri ilə əvəz edilib.

Bu isə insanlar rahatlıq gətirib. İndi qalıb bircə, 50 nömrəli marşrutda işləyən avtobuslar! 104-ün və 36 nömrəli marşrutun sağ əli 50 nömrəli marşruta olsun! Və tezliklə bu marşrutdakı avtobuslar da yenilənsə, Günəşli camaatı daha çox sevinər!!!

## Kələm sahələrdə qalıb...



**Elə fermerlər var ki, onların "çörəkləri" kələmdən çıxır. Ona görə də, kələm əkməyə böyük önəm verirlər. Bu ildə müxtəlif rayonlarda fermerlər yüzlərlə hektar sahədə kələm əkiblər və bol da məhsul var.**

Təəssüf ki, bol və keyfiyyətli məhsulun alıcısı yoxdur. Bax bu günlər Bərdə fermerlərinin becərdikləri kələm sahələrdə qalıb. Fermer Akif Əhmədov deyir ki, on hektar sahədə kələm əkimişəm və məhsul da boldur, amma alıcı gəlmir.Hətta kələmin kilosunu 15 qəpiyə versək də yenə onu alan tapılmır. İndi tonlarla kələm sahələrdə qalıb xarab olur.

Belə getsə, məhsulumuz satılmayacaq, məhv olacaq və ziyana düşəcəyik! Hansı ki , keçən il bundan yaxşıydı. Amma bu il hər şey əlimizdən gedir. Kəndlinin məhsulu sahələrdə qalıb çürüyür, ancaq Bakı bazarlarında və marketlərdə kələmin kiloqramı 1 manatdan aşağı düşmür.

Bəs məhsulu məhv olan kəndliyə kim kömək etmidir? Əlbəttə, onlara lazımi köməkliyi Kənd Təsərrüfatı Nazirliyi kömək edə bilər! Bu kömək olsa, fermerlərin məhsulu satılar, onlar ziyana düşməz və " çörək' pulun qazanarlar!!!

## Hava şəraitinə uyğun sürət...



**Son vaxtlar bir çox nəqliyyat vasitələrinin sürücüləri hava şəraitinə uyğun sürət həddi seçmədiyinə görə ağır qəzalar baş verib. Bu hadisələr həm Bakıda, həm də respublikanın avtomobil yollarında olub.**

Belə ki, bəzi sürücülər havanın yağışlı - yağmurlu olmasını, eləcə də yolların sürüşkənliyini nəzərə almır, avtomobilin əyləc sistemimdə nazasliq yaranır və maşınların təkərləri mövcud tələblərə cavab vermir. El dilində demiş olsaq , şinlər köhnə olur. Elə biz onu demirik ki, sərt döngələrə də diqqət yetirilməyəndə belə qəzalar qaçılmazdır!

Bir neçə gün bundan əvvəl Qaradağ rayonunin Qobu yaşayış sahəsindəki avtomobil yolunda yüksək sürətlə hərəkət edən iri yük maşını qarşıdan gələn taksi ilə toqquşub. Hadisə nəticəsində sürücü də daxil olmaqla üç nəfər dünyasın dəyişib. Yük taksini vurandan sonra bir evin həyət qapısına çırpılıb, dəmir qapını dağıdıb həyətdəki tikiliyə ziyan vurub.

Görürsünüzmü, yük maşının sürücüsünün məsuliyyətsizliyi üzündən belə bir facið yaranıb. Sadəcə olaraq yük maşının sürücüsü bir qədər diqqətli olsaydı, yağışlı gündə hava şəraitinə uyğun sürət həddi seçsəydi, bir sözlə, yol hərəkəti qaydalarına əməl etsəydi belə ağır qəza baş verməzdi. Çox təəssüf ki, bizdə bir əksər sürücülər yağışlı, qarlı havalarda yolların sürüşkən olduğunu nəzərə almır və ölümlə nəticələnən ağır qəzalar yaranır!!!

## Camaatı niyə qorxudurlar?

**Hidrometeoroloqlar və ayri- ayrı mütəxəssislər tez-tez bildirirlər ki, bu qış çox soyuq və sərt keçəcək. Buna sözümümüz yoxdur. Qışdı da, sərt də keçə bilər , mülayim də! Əsas məsələ odur təki soyuqdan insanlar donmasınlar.**



Qışın sərt keçəcəyi barədə verilən proqnozlar əhali arasında heç də birmənalı qarşılanmır. Ötən ilin də soyuq və qarlı keçəcəyini öncədən demişdilər. Nə oldu!

Qış o qədər də, soyuq olmadı, hətta bir qədər mülayim oldu. Nə elə çoxlu qar yağdı, nə də şaxtalar düşdü. İndi də bu qış barədə hər gün məlumat verirlər. Qışın soyuqluğundan çox bu xəbərlər insanları üşüdür. İndi camaatın yüz dərdi var, bir tərəfdən də həftə səkkiz, mən doqquz deyirlər ki, qış çox sərt keçəcək! Belə qeyri- dəqiq proqnozlara heç insanlar da inanmır.

Məsələn, bir neçə gün bundan əvvəl hidirometeroloqlar bildirirdilər ki, Bakıda çiskin yağış yağacaq! Amma həmin günü çiskin yağış yox, leysan yağış yağdı. Görürsünüzmü, hər verilən proqnoz da düz çıxmır. Hər şeyin neçə baş verəcəyini Allahdan başqa heç kim bilməz! Ona görə də, hər deyilənə inanmayın. Allah qoysa, qış gələr , bax onda bilərik ki, qıs necə keçir; soyuq və qarlı olur, yoxsa, mülayim! Darıxmayaq, yaşayarıq, görərik!!!

## 800 min təzə Çin avtomobilində texniki nasazlıq yaranıb...



**Heç kimə sirr deyil ki, bu gün Çin dünya bazarında bir çox məhsulların istehsalına görə, hökmranlıq edir.Bu öncə ABŞ - ı narahat edir! Amma görünən odur ki,ağır və yüngül sənaye sahəsində heç bir qüvvə Çinin qarşısın ala bilməyəcək! Bunlar hamısı aydındır.**

Ancaq aydın olmayan odur ki, Çinin xarici ölkələrə ixrac etdiyi 800 min avtomobillərində texniki nasazlıq aşkarlanıb. Bu isə həmin ölkənin avtomobillərinin alışında tərəddüdlər yaradıb. Elə bizim ölkəmizdə də Çin maşınlarının alıcılarının narazılığına səbəb olub. Düzdür, bir çox ölkəlrin istehsal etdikləri avtomobillərlə müqayisədə ucuzdur

Atalarında gözəl bir deyimi var:" Ucuz ətin şorbası olmaz". Bax Çin maşınları ucuz olsa da, başqa avtomobillərlə müqayisədə tez sıradan çıxır. Üstəlik də onun ölkəmizdə ehtiyat hissələrini tapmaq çox çətindir. Gərək həmin hissəni sifariş edəsən və ən azı üç - dörd ay gözləyəsən! Bu isə insanları narazı salan əsas səbəblərdən biridir!

## Avtomobil idarəetmədən çıxdı...



**Son bir neçə ayda republikanın avtomobil yollarında bir çox ağır qəzalar baş verib. Onlardan biri də avtomobillərin tez- tez idarəetmədən çıxması və aşmasıdır. Təbii ki bu qəzalar zamanı ölən və xəsarət alanlar olur.**

Bəs belə ağır qəzalara səbəb nə olur? İlk növbədə sürücülərin sükan arxasında yuxulaması və yorğunluq. Bəzi hallarda texniki nasazlıqlar da qəzaya səbəb ola bilər! Amma görünən odur ki, belə hadisələr hər gün olmasa da, ancaq tez- tez baş verir.

Bu günlərdə isə Biləsuvar rayonunun kəndlərinin birində" Lexus" markalı avtomobil idarəetmədən çıxaraq su kanalına düşüb.

Qəza zamanı beş nəfər dünyasını dəyişib. Çox güman ki, sürücü bir anlıq sükan arxasında yatıb. Aydındır ki, hər şey avtotexniki ekspertizanın rəyindən sonra bilinəcək.

Bas Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı, polis baş leytenantı Elvin Hacıyev deyir ki, bu cür qəzaların baş verməməsi üçün sürücülər yorğun halda sükan arxasında əyləşməməlidirlər. Onlar yola çıxarkən hər 2-3 saatdan bir avtomobil saxlamlı, dincəlməli və bundan sonra hərəkəti davam etdirməlidir! Çünki yorğun halda olanda sürucünü hər an yuxu tuta bilər. Bir daha sürücülərin nəzərinə çatdırırıq ki, yoxulu və yorğun vəziyyətdə sükan arxasında əyləşməsinlər!!!



**EMİL FAİQOĞLU**

# VƏTƏNƏ MƏHƏBBƏTİN ZAQATALA NÜMUNƏSİ

**...İl sona doğrudur. 2020-ci ildən sonra yaşadığımız hər il , hər ay, hər gün bizi həmin o tarixi Qələbəmizin qüruru ilə ruhlandırır.Qalib Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə dünyanın diqqət mərkəzindədir. Azərbaycan haqlı , ədalətli, səmimi həm də prinsipial mövqeyi ilə bütün sərhədləri gülərüzlə adlayır. Ölkədə paralel olaraq sülh və müdafiə istiqamətlərindəki uğurlarla yanaşı, sosial-iqtisadi inkişafın yeni mərhələsi də vüsət almaqdadır.Eyni zamanda işğal dövründə Xirosimadan betər xarabaya çevrilmiş Qarabağın kəndli-şəhərli modern inkişafı !**

*”Bütövlükdə Zaqatala rayonunda işlər yaxşı gedir, regionların sosial iqtisadi inkişafı, Dövlət Proqramları icra edilir. Həm şəhərdə, həm də kəndlərdə böyük quruculuq işləri aparılır. Bu proqram bizə imkan verəcək ki, yaxın zamanlarda bütün əsas sosial və iqtisadi məsələlər öz həllini tapsın. Tikinti işləri davam edir. Sakinlər bu işlərdə fəal iştirak edirlər”.*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev***

Bütün bunlar ölkəboyu yeni düzən yaradır, daha böyük uğurlara yol açır. Elə qızıl güllər diyarı adlandırdığımız Zaqatala rayonunda olduğu kimi. Bu rayonun gözəlliyinə, bu rayonun özəl xüsusiyyətlərinə, təbiət əzəmətinə, şəhər mədəniyyətinə çox epitetlər deyilib.Əlbəttə ki, ”Qızıl güllər diyarı” Zaqatalaya daha çox yaraşdırılıb. Zaqatala camaatı işlək, zəhmətsevər camaatdır. Kəndlərdə yetişdirilən müxtəlif məhsullar yay fəslindən başlayaraq payızın ortalarınadək tədarük olunur, müxtəlif müəssisələrdə emal edilir, satılır, gəlir gətirir. Dövlətimizin qayğısı hər yerdə olduğu kimi Zaqatala rayonunda da yüksək səviyyədə hiss edilir. Kəndlinin, fermerin işgüzarlığına, ərzaq bolluğu yaratmasına, yaxşı yaşamasına önəm verilir. Rayondakı müəssisələr, bütün istehsalat sahələri ili uğurlarla başa vurmaq üçün ciddi səy göstərir-



lər. Rayon icra hakimiyyəti bu uğurların tam təmin olunması üçün ən xırda məsələlərə belə diqqət və qayğı göstərir, idarəetmənin nümunəvi perspektivlərinə doğru irəliləyir. Bu səbəbdəndir ki, zaqatalalılar bütün sahələrdə uğurlar qazanmağa, vətənə layiqli tövhələr verməyə çalışırlar. İstər kənd təsərrüfatının aparıcı bölmələrində, istərsə də sənaye, tikinti, xidmət sahələrində davamlı inkişaf təmin olunur. Ürəkaçan məsələlərdən biri də şəhərin modern inkişafı, gözəlliyi ilə yanaşı qəsəbə və



kəndlərin də hərtərəfli müasirləşməsidir. Uzun illərdir bu rayona təcrübəli bir dövlət məmuru olaraq nümunəvi rəhbərlik edən icra başçısı Mübariz Əhmədzadə ilə söhbətimiz zamanı bildirir ki, Zaqatala kimi turizm potensiallı bir yerdə bu məsələlərin həlli, yəni infrastruktur inkişafının stabilliyi vacib şərtlərdəndir. Artıq Zaqatalanın ən ucqar istiqamətlərində belə müasir tələblərə ca-




vab verən yol, rabitə, iaişə və digər məsələlər öz həllini tapmaqdadır. Mübariz müəllimdən söz düşmüşkən bir nüansı da xüsusi diqqətə çatdırmaq zərurəti yaranır. Vərdişdənmi, ya məsuliyyətdənmi hər gün rayon həyatının bütün məsələləri ilə məşğul olmasa, məlumatlanmasa rahatlıq tapmır.

Başçının bütün sahələrə eyni diqqətlə yanaşması, səmimi davranışı, təvazökar həyat tərzi illərdir ki, onu bu böyük rayonda hamının doğma, əziz adamı kimi tanıdıb. Cənab Prezidentin vəzifə sahiblərindən tələb və istəyi də elə fəaliyyətin bu cür formalaşması və xalqın xidmətində dayanmasıdır.

Bütün bunlar zəhmətsevər, dövlətçiliyə sədaqətli, eyni zamanda prezidentlərini hədsiz dərəcədə sevən, ona güvənən Zaqatala camaatının halal haqqıdır.

...Bəzən tam təsəvvür üçün mütləq səbəb yaranır da. Bu dəfə də belədir.Və elə bir şəhərin, elə bir elin yaşamından , reallıqlarından söhbət gedir ki, bu tamamilə vacibdir. Şimal-qərb bölgəsinin yaraşığı olan Zaqatala bütün anlamlarda fenomendir. Həm də rayonda yaşayan insanların zəhmətkeşliyi, təbiətə, eynən elitar mədəniyyətə bağlılığı ilə .

Göstərilən yüksək etimadı layiqincə doğrultmağın ən yüksək yolu da məhz bu cür seçilir. İşgüzarlığın, sadəliyin, səmimiliyin, vətənsevərliyin, məntiqin nəticəsi olaraq.

Prezident Zaqatalanın sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında sərəncamlar da imzalayıb. Həmin sərəncamlardan xeyli vaxt keçir və bu müddətlərdə olduqca çox mühüm tədbirlər həyata keçirilmişdir. Sərəncamlarda şəhərin milli-memarlıq üslubunun qorunub saxlanılması , turizm potensialının genişləndirilməsi, tarixi abidələrin qorunması və bərpa olunması nəzərdə tutulur. Bu camaat həm də vətən sevdalı, vətəni candan sevən gözəl insanları birləşdirir. Vətənimizə bəd niyyətli himayədarlarının dəstəyi ilə uzun illər ziyan vuran, maskalanmış işğalçı siyasət yerindən mənfur düşmən 44 günlük Vətən müharibəsində darmadağın edildi. Azərbaycanın Silahlı Qüvvələri əfsanəvi Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ermənistanı təslim edərək tarixinin ən parlaq qələbəsini qazandı. Zaqatalanın da orduda xidmət edən və könüllü olaraq döyüşə atılan yüzlərlə vətənpərvər gənci düşmənə qarşı nifrət və qəzəblə döyüşərək qazanılan qələbədə şücaət göstərdilər, əziz və doğma Qarabağımız uğrunda qazi oldular, şəhidlik zirvəsinə ucaldılar. Biz də ”Ədalət” qəzeti olaraq həmin igidlər haqqında onlarla məqalə dərc etdik,



bütövlükdə Zaqatala rayonunun vətən uğrunda ön və arxa cəbhədə göstərdiyi fəallığı oxucularımızla bölüşdük.

Zaqatalada şəhər kənarındakı şəhidlər xiyabanı az qala hər gün yad edilir. Eyni zamanda rayon rəhbərliyinin təşəbbüsü, camaatın istəyi ilə şəhərdə, Balakən yolu üzərində çox dəyərli bir üslübda Şəhidlər Xiyabanı salınmaqla igid oğulların xatirəsi bir daha əbədiləşdirilmiş, sakinlərin tez-tez gəldiyi müqəddəs yerə çevrilmişdir.

**Zaqatalalıların qəlbi indi də əziz Şuşamızla, Qarabağın işğaldan azad edilmiş digər şəhər və kəndləri ilə birgə vurur. Zaqatalalılar Qarabağdakı quruculuq işlərinə də töhvə vermək arzusu ilə yaşayır, bütün məsələlərdə dəstək olmağa çalışırlar. Çünki bu rayonun camaatı öz vətənini, dövlətini, prezidentini bütün varlığı ilə sevən gözəl və ləyaqətli insanlardır.**

**MƏZAHİR ƏHMƏDOĞLU**

---

**Murad Köhnəqala**



# Tuvalılar - türkün qədim şamanları

**(II yazı)**

*Tuvalılar türk xalqlarının ən qədim, ən arxaik qollarından biridir. Onların yaşadığı Tuva torpağı Sibirin cənubunda, Altay-Sayan dağlarının qucağında yerləşir. Bu coğrafiya qədim türklərin beşiyi, həm də bu günə qədər toxunulmamış bir mədəniyyət adası kimi yaşayır. Tuvalıların dili türk dillərinin Sibir qoluna aiddir və sözlərində, miflərində, musiqilərində minilliklərdən süzülüb gələn türk yaddaşını hiss etmək olur.*

*Tarix boyu Tuva müxtəlif imperiyaların tərkib hissəsi olub. Hunlardan Göytürklərə, Uyğurlardan Monqol dövlətlərinə qədər bir çox güc bu bölgədən keçib. XVII-XIX əsrlərdə Tuva Çinlə Rusiya arasında sıxışmış ərazi kimi yaşayıb. XX əsrin əvvəlində isə bir müddət müstəqil Tuva Xalq Respublikası adı ilə mövcud olub. Sonralar Tuva Sovetlər İttifaqına birləşdirilib. Bu gün Tuva Rusiya Federasiyasının tərkibində respublikadır. Tuva həm də öz qədim türk kimliyini qorumaq üçün çarpışan nadir bölgələrdən biri olaraq qalır. XX əsrin əvvəlləri Tuva üçün taleyüklü dönüş nöqtəsi oldu. Çin imperiyası dağılanda bölgə faktiki olaraq özbaşına qaldı. 1914-cü ildə Tuva Rusiya imperiyasının protektoratına çevrildi, lakin daxili idarəçilik yenə yerli elitanın əlində idi. Bolşevik inqilabından sonra siyasi boşluq daha da dərinləşdi və 1921-ci ildə Sovet Rusiyasının təkidi ilə tarixə Tuva Xalq Respublikası adlı kiçik, amma maraqlı bir dövlət daxil oldu. Bu dövlət yalnız SSRİ və Monqolustan tərəfindən tanınmışdı, amma öz bayrağı, pulu və hökuməti vardı. 23 il davam edən bu "mini-respublika" nəhayət 1944-cü ildə rəsmi olaraq SSRİ-yə qoşuldu və Tuva öz müstəqilliyini itirdi. Bu gün Rusiya Federasiyasının tərkibinə daxil olan Tuva respublikasında 500 minə yaxın əhali yaşayır ki, bunun da böyük hissəsini tuvalılar təşkil edir. Tuvalıların dini inancları da türk etnosunun kökləri ilə sıx bağlıdır. Burada iki böyük ruhani qat mövcuddur. Birincisi, ən qədim qat olan şamanizmdir. Şamanizm təbiətin ruhları ilə insan arasındakı əlaqəyə əsaslanan, dağların, çayların, meşələrin "can" daşıdığına inanan sistemdi. Bu gün də Tuvanın hər bölgəsində şaman davulunun səsi eşidilməkdədir. İnsanlar uğur qazanmaq, xəstəlikdən qorunmaq üçün, həm də mərasimlər zamanı şamana müraciət edirlər.*



*İkinci inanc sistemi isə isə XVIII əsrdən yayılmış Tibet buddizmidir. Tuvalıların əksəriyyəti buddistdir və bu inanc bölgədə sakitlik, meditasiya və mərasim mədəniyyətində dərin iz qoyub. Bu iki sistem bir-birinə qarşı durmur, əksinə, harmoniyada yaşayır. Bu gün Tuva həm çətinliklərin, həm də dirçəlişin məkanıdır. Region iqtisadi baxımdan zəif inkişaf etsə də, mədəni irs sahəsində dünyaya açılan pəncərəyə çevrilib: tuvalıların boğazla oxuma sənəti, şaman ayinləri və təbiətə bağlı yaşam tərzi turistləri və tədqiqatçıları buraya cəlb edir. Gənclər həm müasir texnologiya ilə yaşayır, həm də əcdad ruhlarını yaşadan ənənələrdən ayrılmamağa çalışırlar.*

*Tuva bu gün də türklüyün qədim qatlarını içində yaşadan nadir yerdir. Dağların sükutu, çöllərin boşluğu və insanların təbiətlə birliyi burada zamanın başqa cür axdığı hissini yaradır. Tuvalılar üçün tarix, din, dil və torpaq təkcə keçmişin izləri deyil, bunlar həm də gələcəyi qorumaq üçün lazım olan mənəvi gücdür.*

---

# *"Strateji qida menyusu artıq bizim adət etdiyimiz kimi mətbəxlərdə bişmir..."*

**”Qlobal qida sektorunu idarə edənlər əslində dünyanı idarə edir. Çünki qida insanın sağlamlığını, davranışını, məhsuldarlığını və hətta demoqrafik gələcəyini formalaşdıran ən strateji təsirvasitəsidir. Qidada olan əlavələr, hormonlar, yüksək şəkər və trans-yağlarla doldurulmuş istehsal sonsuzluq hallarının artmasına, mənəvi və əxlaqi deqradasiyanın güclənməsinə, xroniki xəstəliklərin çoxalomasına, nəticədə isə dərman sənayesinin qazancının yüksəlməsinə səbəb olan böyük sistemin parçasıdır”.**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.”Bu sistemin ən təhlükəli tərəfi isə odur ki, o insanı uzunmüddətli asılılıqda saxlayan görünməz mexanizm yaradır. Nəticədə asılılıq, hormonal pozuntular, psixoloji zəifləmə və cansıxıcı həyat tərzi insanı həm bioloji, həm də mənəvi olaraq zəiflədir. Zəif insan isə bazarın və siyasətin ən rahat idarə olunan hədəfinə çevrilir. Əlqərəz, insanların nə yeyəcəyinə kim qərar verirsə, onların kimə çevriləcəyinə də o qərar verir. Buna görədə strateji qida menyusu artıq bizim adət etdiyimiz kimi mətbəxlərdə bişmir, o artıq qlobal qərar mərkəzlərində hazırlanır”, - deyə o, bildirib.

**Vasif**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# İSİNMƏYƏN XATİRƏLƏR

## Hələ ki onlarla isinirəm

**Hava qəflətən dəyişdi. Əslində heç qəflətən də deyildi. Az qala on gün idi ki, simləri tez-tez dəyişirdi - gah aşağıda çalırdı, gah yuxarıda. Necə deyərlər, "mesajını edirdi" bizlərə. Elə bu "mesajı edirdi" sözünü dilimə gətirəndə yadıma bir lətifə düşdü. Onu ustad Hüseyn Arifin adı ilə də bağlayırlar. Amma nə qədər doğrudur deyə bilmərəm. Lətifə belədir ki...**

Deməli, günlərin birində Əzrayıl hazır olur bir Allah bəndəsinin qarşısında və deyir:

- Dur gedək!

Allah bəndəsi bir aşağı baxır, bir yuxarı baxır və deyir:

- Bu boyda da namərdlik olar? Gəlməmişdən bir xəbər göndərərdin, mən də hazırlığımı edərdim. Heç olmasa əlimdəki işi bitirərdim.

Əzrayıl halını pozmadan deyir:

- Sağdakı qonşun Məmmədi tanıyırdın?

Bəndə dərhal cavab verir:

- Əlbəttə, Allah rəhmət eləsin.

Əzrayıl:

- Onu keçən ay apardım. Soldakı qonşun Qulamı tanıyırdın?

Bəndə yenə dillənir:

- Əlbəttə, Allah rəhmət eləsin.

Əzrayıl yenə halını pozmadan:

- Onu da keçən həftə apardım. Day bundan başqa nə cür xəbərdarlıq edəydim sənə?

Bəndə susur...

Bəli, indi hava da bizə müxtəlif simlərdə ismarıcını elədi. Gah isti oldu, gah qəflətən soyuq, gah yağış, gah tufan... Bütün bunlar xəbərdarlıq idi də... Bütün bunlar qarın gəldiyini söyləyirdi də - həm bizə, həm də başımızın böyüklərinə. Nə isə... dərd hava dərdi deyil. Dərd bu havada üşüməkdən necə qorunmağın dərdidi. Lap bir az da dəqiqliyə getsəm, heç üşüməkdən qorunmaq da dərd deyil. Yəni olub-qalanını geyinəcəksən, yorğanına, adyalına bürünüb bir küncdə oturacaqsan. Dərd üşüyən ürəyin, üşüyən ruhun dərdidi. Onu isitmək üçün o üşüyən ruh qədər, üşüyən ürək qədər də odlu-alovlu ürəyin, ruhun atəşi gərəkdi sarılsın bir-birinə, söykənsin bir-birinə... dursun göz-gözə, dursun nəfəs-nəfəsə və qalib gəlsin təbiətin çılpaqlığına... qalib gəlsin duyğuların pozulmuş nizamına... qalib gəlsin özünə, sözünə, bütövlüyünə...

Bəli, bu fikirlərin arxasınca düşüb getmək bəlkə də sizə xoş gəlməyəcək. Amma mən son vaxtlar daha çox baş verən hadisələrin mahiyyətində, cizgilərində, hərəkət mexanizmində öz iç dünyamın çırpıntılarını, düşüncələrini, istəklərini, lap hansısa xırdaca bir iynə ucu vintini görmək istəyirəm, tapmaq istəyirəm. Bəlkə də bu dəlilikdi, bəlkə də özündənmüştəbehlikdi... lap bəlkə də xəstəlikdi... nə bilim. Amma hər nədisə mən öz içimin diqtəsinə uyub ətrafda qurduğum xəyalın, içimdə daşıdığım aləmin, beynimdə cilaladığım düşüncələrin oxşarını, bənzərini, eynisini və yaxud da kiçicik bir nöqtəsini tapmaq üçün sinov gedirəm. Elə bilirəm onu tapsam, bəlkə nə isə dəyişdi.. bəlkə nə isə baş verdi.. və bəlkə o nə isə məni ümidləndirdi. Amma neyləyim ki, mən soraqlayıram, mən axtarıram, zaman isə öz axarındadı. Mən bu axara necə "dur!" deyim, necə "dayan!" deyim bilmirəm. Bildiyim odur ki:

*Gözümü yumuram*
*içində*
*gözümü açıram*
*önündə*
*ötən anlarımda,*
*günümdə*
*səninlə*
*göz-gözə*
*üz-üzə*
*dayanıram, dururam...*
*mən*
*səndə yaşayıram*
*səndə*
*özümü unuduram-*
*bunu*
*sən istəməsən də!..*

***

Var-gəl edirəm. Bu, havanın soyuq olmasına bir işarə deyil. Ona görə var-gəl edirəm ki, özümü axtarıram. Kimdənsə soruşmağa utanıram. Necə soruşum ki, məni görmüsünüz? Təsəvvür edin ki, belə bir sualla sizə müraciət edirəm. Onda mənə necə baxarsınız? Bax, onu təsəvvür edib ehtiyatlanıram və heç kimdən məni görüb-görmədiyini soruşmuram. Özüm özümü axtarıram var-gəl edə-edə, fikirlərimi dağa-arana daşıya-daşıya. Və bir də dəftər-kitabın, kağızqələmin arasına boylanıram. Fikirləşirəm ki, orda ilişib qalmış olaram. Adətən kitabxanada, kitab mağazalarında o qədər ilişib qalmışam ki... O yaddaşla baxıram kitab-dəftər arasına. Amma yox! Orada da yoxam. Deməli, mən çox-çox uzaqlardayam. Əgər yaxında olsaydım gözə dəyərdim, kimləsə qarşılaşardım. Heç olmasa dostlardan, tələbə yoldaşlardan kimsə halımı soruşardı, salam verərdi. Mən özümü görüb tanıyardım. Bax, bu məqamda rəhmətlik Vahid Əlifoğlu yadıma düşür. O bir dəfə mənə məktub yazmışdı. Yazmışdı ki: "Ayə, ay qağa, sənin nə ölümün var o Bakıda. Axtaranda da tapmaq olmur. Telefonuna da zəng çatmayanda ağlımdan yüz-yüz fikir gəlib keçir. Fikirləşirəm ki, bunu maşınmı vurdu? Küləkmi götürüb atdı dənizə? Yoxsa, gecəqondusu uçdu, qaldı altında?". Hə, Vahid, Allah sənə rəhmət eləsin! Vaxtında sənə qulaq asmadım, səni dinləmədim. Sözünü eşitsəydim, indi mənim də dörd yoldakı çayxanada küncün birində yerim varıydı. Oturmuşdum bir küncdə sənlə siqaret tüstülədib, çay içib böyük ədəbiyyatdan danışardıq. Amma qulaq asmadım. Yapışdım Bakının asfaltından. Axırda da elə asfalta da çevrildim tapdalana-tapdalana. Ruhumu hər kəs öz istədiyi kimi yabaladı, süngülədi, dəlik-deşik etdi...

İndi də ayağa durmaq, yerimək, bir az iri addımlar atmaq istəyirəm. Amma o təpərim yoxdu, o gücüm qalmayıb. Sən demə, o təpər də, o güc də dostlarımdan, Haqqa qovuşan üzü nurlu adamlardan ibarət imiş. Onlar öz gedişləriylə, öz köçləriylə mənim gücümü də, mənim təpərimi də apardılar. Amma yaxşı elədilər. Mən də onların dalınca gedəndə yüküm yüngül olacaq, tez gedib çatacam, yorulmayacam yolda... Nə isə...

Bəli, mən özümü axtardığım bir məqamda hardansa yadıma gəlib düşür və mən yadıma düşən o məqamı təkrar yaşamaq istəyirəm. Çünki onda mən var idim, onda mən özümü axtarmırdım hələ və səninlə göz-gözə dayanmışdım...

***

Yaxın günlərin söhbətidi. Bir dostla günümüzü-güzəranımızı müzakirə edirdik. Elə istəyirdik ki, uyğun bir variant tapaq. Elə bir variant ki, sıxıntılardan, bizə olan basqılardan və nəhayət, qurduğumuz xəyallardan sevdiklərimizi müəyyən qədər qoruya bilək. Çünki bizim zəifliyimiz, hətta xəyalpərvərliyimizin özü belə sevdiklərimizə həmişə problem yaşadır, onları həmişə çətin duruma salır. Bizim xəyalımızla onların gerçək ölçüləri ziddiyyət təşkil edib. Bu da sonda könül qırıqlığına, ruh incikliyinə səbəb olubdu. Bax, bundan sığortalanmaq mümkün olmasa da, hər halda bir az qorunmaq, bir az daldalanmaq mümkündür. Amma nə qədər çalışdıqsa, uyğun bir variant tapa bilmədik. Buna həm zamanın sürəti imkan vermədi, həm də bizim maddi durumumuz. Ona görə də əlimizi utandığı cibimizdən çıxarıb elə bir-birimizə tərəf uzatdıq. Möhkəm-möhkəm sıxıb ayrıldıq. Başqa vaxtlar belə etmirdik. Heç olmasa cibimizdə utandığından gizlənən əlimizi müəyyən qəpik-quruşla sevindirib ikimiz bir masa arxasında ən azı iki möhtəşəm tost demək xoşbəxtliyini yaşayırdıq. Amma sən demə, bunun ömru bura qədərmiş. O da tarixin arxivinə üz tutub. Və biz onun arxasınca kədərli-kədərli baxırıq. İçimizdə nələr düşünürük, dilimizdə isə:

- Qalsın gələn dəfəyə, onda oturarıq! - deyirik.

Hə, havanın şıltaqlığı müxtəlif ovqatlar yaratsa da, mənim yadımdan mövzunun lap ilk cümləsində dediyim üşüməyi çıxarmır. Çünki ürəyim üşüyür, ruhum üşüyür. Və mən indiki hava durumunu yalnız cismin üşüməsi kimi qəbul edənləri gülməli adamlar sayıram. Və onlara özümü axtara-axtara gülürəm. Görəsən bu adamlar niyə özlərini isti bir yerə verib isinmirlər ki? Çayxanalarımız, kafelərimiz, barlarımız, nə bilim saysız-hesabsız əyləncə yerlərimiz... Ya da məhəllədəki qazanxanalar.. Gedib kürəyini söykəyirsən iri ölçülü boruların birinə və xumarlanırsan. Nə səndən pul istəyən yoxdu, nə də kimsənin yerində durmursan ki, desin bir az o yana çəkil...

Hə, mən bütün bunları dedim və bilgisayarda da yazdırdım. Siz də uyğun bilsəniz oxuyacaqsınız. Amma mən sizdən soruşduğum suala cavab ala bilmədim. Yəqin o cavabı nə vaxtsa tapsanız mənim ünvanıma mesaj atarsınız. Çünki mən qalan ömrüm boyu ancaq var-gəl edə bilmərəm. Nəhayət ki, dayanmalıyam, özümü tapmalıyam.

Bax, indi bu dəqiqə hiss edirəm ki, göy üzünə doğru gedirəm və ordan qulağıma səslər gəlir. O səsləri sizə də mən pıçıldayıram. Yəni əslində onlar mənim anladığım dildə danışırlar. Ona görə mən sizə onu çevirib çatdırıram.

*Bir həzin*
*musiqinin*
*sədaları altında*
*həm də*
*göyün*
*sonuncu qatında*
*başını*
*söykəyib sinəmə*
*sol əlimi*
*alıb əlinə...*
*sağ əlimi isə*
*ilgək edib*
*belinə*
*ağır-ağır*
*rəqs edir*
*havalanmış*
*xatirələrim...*

**Hə, nə vaxtsa bu pıçıltıları lap açıq-aşkar eşitsəniz ürpənməyin, narahat olmayın. Onsuz da bu həyatın üzü havanın üzü kimi çox soyuqdu. Sadəcə, o, kimləri çöldən üşüdür, kimlərisə içdən. Mən hələ ki, xatirələrlə isinirəm.**

## "Azərbaycanın kredit reytinqinin yüksəlməsi hər zaman müsbət siqnaldır"

**"Niyə Azərbaycan tərəfi kredit reytinqinin yüksəlməsinə rəğmən onu geri götürüb? Düzdür, bununla bağlı rəsmi açıqlama var. Amma suallar yenə davam edir. Belə ki, bununla bağlı suallar yarandığı üçün Maliyyə Nazirliyi rəsmi qurum statusuna uyğun olaraq yetəri qədər peşəkar açıqlama verib. Açıqlamanın mətni geniş olduğu üçün jurnalistlər tərəfindən daha konkret izahı xahiş edilir".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.

Onun sözlərinə görə, bu açıqlamanın qısa formada izah belədir:

"Azərbaycan hökuməti beynəlxalq təcrübələrə uyğun olaraq iki reytinq agentliyi ilə ödənişli müqaviləyə malikdir. Bunlar Fitch Ratings və Moody's Ratings-dir. Üçüncü olan S&P ilə isə əməkdaşlıq müqavilə çərçivəsindən çıxarılıb. Bu səbəbdən S&P tərəfindən verilmiş reytinq texniki səbəb əsasında emitentin müraciətinə uyğun olaraq, sistemdən götürülüb".

Bəs daha konkret hansı hallarda ölkələr öz reytinq göstəricilərinin çox yüksəlməsinin deyil, sabit qalmasının tərəfdarı olurlar?

İqtisadçının sözlərinə görə, əvvəlcə nəzərə alaq ki, kredit reytinqi bir ölkənin borc öhdəliklərini yerinə yetirmə qabiliyyətini qiymətləndirən beynəlxalq ölçü vahididir:

"Məhz bu ölçü vahidi ölkəyə maraq göstərən investorların risk qavrayışını formalaşdırır. Yəni reytinqlər ölkənin maliyyə sabitliyini, borclanma səviyyəsini, xarici uçotlara davamlılığını, müəyyən göstəricilər əsasında bilavasitə beynəlxalq bazarlara siqnaldır. Bir sözlə, reytinq nə qədər yüksəkdirsə, ölkə qlobal maliyyə bazarlarında etibarını artırır və daha sərfəli şərtlərlə maliyyə vəsaiti cəlb edə bilmə imkanlarına malik olur. Bütün bunlar onu deməyə əsas verir ki, ölkənin kredit reytinqi yüksək olduqda bunun müsbət təsiri daha ucuz borclanma imkanı yaradır, ölkə investorun etibarını qazanır, maliyyə sektorunda sabitlik güclənir, dövlət layihələrinin maliyyələşdirilməsi optimallaşır".

Eldəniz Əmirov deyib ki, müəyyən məqamlarda isə bunun mənfi tərəfləri də ola bilir:

"Odur ki, beynəlxalq təcrübədə reytinqin geri götürülməsi ilə bağlı hallar olub. Bunun konkret səbəblərə gəlincə, adətən bir ölkənin borclanma ehtiyacının aşağı olması halında yüksək reytinqə ehtiyac duyulmaya bilir. Məsələn, Azərbaycanın xarici borcu hazırda çox aşağıdır, valyuta ehtiyatlarımızın 1/17 hissəsinə bərabərdir.

Belə bir şəraitdə kredit reytinqi ölkənin maliyyə bazarına çıxış üçün həyati (diqqət: həyati) əhəmiyyət daşımır. Digər tərəfdən, reytinqin saxlanması xərclər və öhdəliklər tələb edir. Azərbaycan kimi ölkələrdə isə borclanmaya ehtiyacın minimum olması bu istiqamətdə xərci azaltmağı daha məqsədəuyğun edir".

O, deyib ki, "S&P" reytinqi artırarkən, səbəblərdən biri kimi Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılmasını müsbət amil kimi qeyd edib:

"Bəzi hallarda bu məsələ dövlətlər üçün həssas mərhələdə kredit reytinqinin yüksəlməsinə kömək edir, amma bununla bərabər siyasi məqamları da ortaya çıxarır. Bunun yaranmaması üçün prosesin müvəqqəti dayandırılması, yaxud geri çevrilməsi nəzəri cəhətdən mümkündür. Eyni zamanda strateji çevikliyi əldə saxlamaq üçün bəzi ölkələr reytinqin yaratdığı gözlənti çərçivəsindən çıxmağa çalışırlar.

Fiskal siyasətdə daha sərbəst qərar vermək üçün kredit reytinqinin bir qədər geri götürülməsi daha məqsədəuyğun hesab edilir. Ümumilikdə isə Azərbaycanın kredit reytinqinin yüksəlməsi hər zaman müsbət siqnaldır".

**Vasif ƏLİHÜSEYN**

# Həyat dərsi

## Unudulmaz İsmayıl Qarayevin kiçik bir hekayəsinə baxış

**Həyat həqiqətləri bədii əsərə köçəndə inandırıcı olduğu qədər də düşündürücü olur.Elə bilirsən ki, müəllif bu həqiqəti sənin həyatından götürüb, sənin dilindən eşidib. Ona görə də gerçəkliyin acı və şirin tərəfli səni, yəni oxucunu düşünməyə məcbur edir. Öz dünyana çəkilib həmin həqiqətin cizgilərini yozursan. Bəzən bu yozum səni sərt suallarla qarşılaşdırır. Bəzən də bir çıxılmaz nöqtəyə aparır...**

Bütün hallarda həqiqət müdirklərin də dediyi kimi canındakı acını şirin kimi təqdim etmyi bacarır. Axı həqiqət nə qədər acı olsa da, sonu mütləq yozumla başa çatır. Anlayışla, qəbul edilmiş qərarla təsdiqlənir. Azərbaycan ədəbiyyatında özünəməxsus yeri və çəkisi olan Azərbaycan dilinin bütün incəlikləri ilə yaradıcılığında bir zərrə kimi incələyən yəni onun şirəsini, şşəkərini oxucuya həzm etdirən imza sahiblərindən biri də İsmayıl Qarayevdir. Şəxsən mən onun yaradıcılıq dünyasına özümü yaxın bilən , ondan yararlanan bir oxucu kimi hər dəfə əvvəl mütailə etdiyim əsərə yenidən qaydanda elə bilirəm ki, əsəri ilk dəfə oxuyuram. Bunun da səbəbi məhz müəllifin yararlandığı DİLdir. (Yeri gəlmişkən, xatırladım ki, bu gün tanınmış yazıçımız, hörmətli Seyran Səxavətin də ”Ölüm ayağında” olan dilimizin vəziyyəti artıq hamını düşündürür. Hətta bununla bağlı ölkə prezidenti də öz mövqeyini ortaya qoydu- Ə.M).

Bu gün təkrar oxuduğum və yaddaşımda ağsaqqal, ağbirçəklərdən eşidib, həyatda da şahidi olduğum bir sözün, necə deyərlər bədii təsdiqi ilə üzləşdim. Cəmi 2-3 vərəq olan bir hekayə oxucu kimi məni eşitdiyim, həmçinin ekran əsərlərində şahidi olduğum, müəyyən mənada da insan psixologiyasını sadə bir üsulla sərgiləyən fakt bu hekayənin ana xəttidir. Belə ki oxucu bu kiçik həcmli hekayədə uşaq dilində səslənən bir sözün nələrə səbəb olduğunu, nələri yaşatdığını, nələrə vəsilə verdiyini görə bilir.



Hekayənin adı ” Bir gecənin hekayəsi”dir. Hekayənin məzmunu ezamiyyətdən qayıtmış Əhlimanın kiçik yaşlı qızı ilə ata-bala söhbətidir. Deməli Əhlimanın anası evdə yoxdur, bacısına baş çəkməyə gedib. Evdə həyat yoldaşı Gülsəfə və qızı Ülkərdir. Əhliman kiçik yaşlı qızını əzizləyir.Ona qızıl diş saldıracağını, qızıl saat alacağını söyləyir. Uşaq o qədər gözütoxdur ki, atası ona yenə oyunçaq alacağını söyləyəndə bildirir ki ”xalam alıbdır”. Əhliman soruşur ki, xalan bizə gəlmişdi?

Deyir ki, bəli. Ata yenə soruşur:

**-Daha kim gəlmişdi?**

Ülkər uşaq səmimiyyəti ilə:

**-Başmaqçı əmi.**

Əhliman təəccüblə sualını təkrarlayır:

**-Kim?**

**-Başmaqçı!**

Və ardınca da başmaqçının evdə ”Anasının üstünə çıxdığını da” atasına söyləyir. Bayaqdan qızının nazı ilə oynayan ata onu qucağından kənara atır. Uşaq nə baş verdiyini anlamır. Əlini atasının alnına qoyub” Ata, başn ağrayır ?” deyə soruşur. Əhliman ona tərs- tərs baxır və Ülkər həyətdə paltar yuyan anasının yanına yüyürür:

**-Atamın başı ağrayır- deyir. Sonra da uşaqlarla oynamağa gedir.**

Gülsəfə isə əlində ağrıkəsici dərman Əhlimanın yanında gələndə Əhlimanın öncə onun dərman uzadan əlin, sonra isə

O əlin sahibini şillələyir. Gülsəfə dörd illik ailə həyatında ilk dəfə Əhlimanı belə görür. İlk dəfə nə baş verdiyini anlaya bilmir. Yalnız gicəllənib yıxılandan sonra dəryada fırtınaya düşən gəmini xatırlayır...

Bəli, qısa məzmunu nəzərinizə çatdırdığım bu qısa hekayədə bir sözün, bir acı həqiqətin yazıçı qələmində həyat reallığı olduğuna inanırsan. Necə deyərlər şübhəyə zərrəcə yer qalmır!!

**Deməli, ustad qələmi oxucu qəlbinə o vaxt yol tapır ki, o, acı da olsa həqiqəti çatdırır, onu təqdim edə bilir. Təqdimat da oxucu üçün elə həyatın öz dərsi sayılır. Yəni həyatın verdiyi dərs...**

**Əbülfət MƏDƏTOĞLU**

---



***Emin PİRİ***

# GÜNƏŞ NƏ ZAMAN DOĞACAQ

## 150 AZƏRBAYCANLININ QƏTLƏ YETİRİLMƏSİNDƏN 80 İL ÖTÜR...

**1945-ci ildə sosialist bir ölkədən Türkiyəyə sığınan, daha sonra düşmənə təslim edilərkən sərhəddə şəhid edilən 150 türkün əziz xatirəsinə həsr olunur.**

Bu sözlər Türkiyə istehsalı olan ”Günəş nə zaman doğacaq” adlı filmin sonluğudur. Bəli, o sosialist ölkə SSRİ idi. 1945-ci ildə Türkiyəyə sığınan o 150 nəfərsə azərbaycanlıydı. Bu hadisədən 75 il ötür.

Dövlətlər arası münasibətə, kapitalist və sol blok arasında yarana biləcək daha böyük ixtilafların qarşısını almaq üçün azərbaycanlı mühacirlər SSRİ-yə təslim edildi. Halbuki, onların başına nə gələcəyini bilirdilər. Amma dövlət marağı, dərin siyasət o insanların həyatından daha önəmli oldu. Burada Stalin diktaturasının Türkiyəyə böyük basqısını da nəzərə almaq lazımdır.

Bu film Türkiyə siyasi səhnəsində böyük dəyişikliklərə, terrorun daha da artmasına, sonda isə ölkədə hərbi çevrilişə rəvac verən bir amilə çevrildi.

Zaman-zaman bu olay Türkiyədə sol və sağ bloklar arasında birbirini qınamaq və ya təbliğat maşınına çevrildi. Təsadüfi deyil ki, Türkiyə prezidenti Ərdoğan bu olaya parlamentdə xüsusi toxundu:

”1945-ci ildə 145 azəri ziyalı Stalin zülmündən qaçır və Türkiyəyə sığınır. Azərilər öz qardaşlarının yurduna gəlib, qardaşları ilə qucaqlaşır. Stalin bu mühacirləri geri istəyir. Hökumət sərhəd polisinə teleqraf yollayır və həmin azərilərin geri təhvil verilməsi əmrini verir. Sərhəd polisinin komandiri gözlərinə inanmır. Azərilər türk əsgərlərinin ayaqlarına düşür. ”Nə olar bizi siz öldürün, amma onlara təslim etməyin” deyirlər. Azəriləri təslim edirlər. Sərhəddə türk əsgərlərinin gözləri önündə azərilər öldürülürlər. Komandirin də hadisədən sonra intihar etdiyi deyilir. Amma biz Azərbaycana da, Suriyaya da, Qəzzaya da köksümüzü irəli verərək gedə bilərik”.

Həmin azərbaycanlılara həsr edilən film 1977-ci ildə çəkilib. Daha çox şovinist və millətçi ruhda olan kino Türkiyə solçuları arasında böyük narazılıqla qarşılandı və toqquşmalara rəvac verdi.

Hər nə qədər azərbaycanlılara həsr olunsa da, film SSRİ tərkibində olan digər türk xalqlarından - Krım türklərinin həyatından, mücadiləsindən bəhs edir. Filmin Türkiyə siyasətində yer almasına əsas səbəbsə Maraş qətliamıdır. Zatən film kinoteatrda izlənilərkən terror aktı törədilmişdi.

Film sosialist bir ölkədə təzyiqlərə dözməyərək iki türkün həyatını verir. Bunlardan biri Alp Giray Türkiyəyə qaçmaq üçün illərlə öz kimliyini gizlətmiş və dövlət vəzifəsində yüksək mövqeyə sahib olmuşdu. Yavuzla birgə Türkiyəyə qaçmaqlarına baxmayaraq sovet kəşfiyyatı onların izini buraxmır.

Film azan səsiylə başlayır. Görüntüdə isə dini qadağalar və qapısı kilidlənmiş, hasarlanmış məscid. Yavuz kilidi qırır, minbərə çıxır və azan oxuyur. Əslində isə Yavuz azan oxumur, bu simvolik olaraq möcüzə kimi qeybdən oxunan kimi verilmişdir. Gizli azadlıq mücadiləsi aparan Alp Giray Nuriyev KQB-də polkovnik rütbəsinə kimi yüksəlmişdi. Buna baxmayaraq o, əsl kimliyini gizlətməyi bacarmışdı.

Azana görə həbs olunan Yavuz böyük işgəncələr görür, dəli damğası ilə KQB-nin otaqlarında əzab çəkir. Lakin Anqolaya xidmət üçün göndərilən KQB polkovniki Apl Girayın sayəsində qaçaraq Türkiyəyə sığınırlar. Onların Türkiyə sərhədlərinə çatması ”Çırpınırdı Qara dəniz, baxıb türkün bayrağına” mahnısı ilə süsləndirilib.

Onlar azad olan Türkiyənin xəyallarındakı kimi cənnət olduqlarını görmürlər. Bir növ yanıldıqlarının fərqinə varırlar. Əxlaqi keyfiyyətlər məhv olmuş, qardaş-qardaşı vəzifə, pul üçün öldürür, cinayətlər törədir. Qəzetlər SSRİ kimi ölkələri vəd edilmiş cənnət kimi təqdim edir. Bununla belə erotik mətbuatlar, aclıq, içki, işsizlik, haqsızlıq bir-birini qarışıq formada əvəz




edirdi. Türkiyə kəşfiyyatı tərəfindən agent olub-olmadıqlarını yoxlanılarkən, bir tərəfdən də SSRİ onların geri verilməsini tələb edir. SSRİ-də anasını qorumaq üçün iki sovet əsgərini öldürən Yavuzun geri verilməsi qərara alınır. Bir-birindən ayrılmaq istəməyən Nuriyev və Yavuz bu kərə türk polisindən qaçmağa məcbur olur.

Bu qaçaqaçda onlar qəssab Mehmet və qızı Cəmilə ilə qarşılaşırlar. Solçu və SSRİ tərəfdarı olan Cəmilə Yavuzun sayəsində SSRİnin heç də cənnət olmadığını, türklərin əsir və yurdlarının müstəmləkə olduğunu anlayır. Zaman keçdikcə Cəmilə Yavuzun sayəsində millətçiyə çevrilir və dünyanın hər yerində yaşayan türklərin azadlığını hayqıran birinə çevrilir. Alp Giray Türkiyədəki KQB agentləri tərəfindən öldürülür. Yavuz isə tutularaq sərhəddə sovet əsgərinə təslim edilir. O isə, elə körpü üzərində rus əsgərləri tərəfindən güllələnir.

”Yeşilçam” 1970-lərin ikinci yarısında erotik filmləri çəkməyə daha çox meylli olduğundan tam əksinə, bu cür filmin ortaya çıxması ayrı bir detal nümunəsidir. Filmin ingilis alt yazısı ilə ayrıca verilməsi də onun daha çox xarici bazar üçün hesablandığını deməyə əsas verir.

Bu filmdə Türkiyənin məşhur, film tarixində imzasını həkk etdirmiş aktyorlar rol oynayıb. Aydemir Akbaş, Oya Aydoğan və Cüneyt Arkının adlarını çəkmək bunlara bariz sübutdur.

Filmdə Allahsızlığı yaymaq bürosu başqanıyla uşaqların görüşməsi, onların beyninin yuyulması da xüsusi qeyd edilənlər arasındadır. Kommunist rəhbərliyin dəbdəbəli həyatı, zövqlü içkilər, əyləncəli həyata nisbətən işçi sinfinin aclıq çəkdiyi film boyu göstərilir.

Bu film 1978-ci ilin dekabrında Türkiyə tarixinin ən böyük qətliamlarından biri olan Maraş qətliamının əsas səbəbi kimi göstərilməkdədir.

Film göstərildiyi kinoteatrlarda və ya onun ətrafında tez-tez terror aktları baş verirdi. Maraşdakı ilk izlənim zamanı filmin ortasında bomba partladılır.

Filmin göstərildiyi yerlər MHP-nin mitinq və ya təbliğatına çevrilirdi. ”Günəş nə zaman doğacaq” filminin ortaya çıxmasından sonra sağ və sol blok arasında dərinləşmə daha da artdı və bir millət fanatikcə bir-birini düşmən görməyə başladı. Terror aktını isə qızılbaş ələvilərin törətdiyi xəbəri tezliklə ölkədə yayılır. Daha sonra bunu digər sol düşüncəli insanların etdiyi də bildirilir. Eyni zamanda Sovet kəşfiyyatının barmağı olduğunu hər kəs bildirməyə başlayır. Amma daha maraqlısı isə 2006-cı ildə Bülent Ecevitin arxivindən çıxan sənədlərə əsasən, bu qətliamları əslində Milli Kəşfiyyat İdarəsinin əməkdaşları tərəfindən törədilməsiydi.

Bir il davam edən Maraş toqquşmaları zamanı 111 nəfər ölür, 1000-dən artıq insan yaralanır. Bu hadisədən sonra 13 vilayətdə fövqəladə vəziyyət elan edilir, 835 nəfər ittiham olunaraq məhkəmə önünə çıxardılır.

İki il sonrasa ölkədə hərbi çevriliş baş verdi

Bu hadisələr zamanı bombadan istifadə etdiyi sübut olunan Ökkeş Şendillerin məhkəmədə edamı istənilir. Qəribədir ki, o, möcüzəvi formada azad edilir və 1991-ci ildə millət vəkili kimi Türkiyə parlamentinə daxil olur.

Filmin rejissoru Mehmet Kılıç, ssenari müəllifi isə Tufan Günerdi.

**”Günəş nə zaman doğacaq” sualını verən filmdən 14 il sonra Azərbaycana günəş doğdu. Krımdasa günəş hər zaman buludların arxasında gizləndi.**



*Nazim Abbasov,*
*Prokurorluğun veteranı,*
*3-cü dərəcəli Dövlət*
*ədliyyə müşaviri*

# Tələt Qənbərov ədalətin və vicdanın simvolu

**18 dekabr 2025-ci ildə Azərbaycan Respublikasının Əməkdar hüquqşünası, Baş Ədliyyə müşaviri Tələt Qənbərovun ölümündən 30 il ötür. Prokurorluğun veteranı, 3-cü dərəcəli Dövlət ədliyyə müşaviri Nazim Abbasovun "Tələt Qənbərov ədalətin və vicdanın simvolu" adlı məqaləsini oxuculara təqdim edirik.**

***

**Bir çoxları kimi mənim də peşə seçimimdə Tələt Qənbərovun prokuror kimi, həm də yaxın qohum kimi rolu olmuşdur. Qohumlar arasında hüquq-mühafizə və məhkəmə orqanları işçiləri oldugundan, onların gərgin iş rejimlərini görərək, valideynlərim bu peşənin seçilməsinin tərəfdarı deyildirlər.**

**Tələt müəllim rayon prokuroru vəzifəsində işlədiyinə görə Bakıya hərdən bir, əsasən bazar günləri gələndə onunla görüşə bilirdik. Onu da qeyd edim ki, qohumlar arasında mənə məxsusi bir münasibəti, simpatiyası var idi. Məhz onun məsləhət və tövsiyyələri şeçimimdə həlledici rol oynadı. Sonralar da prokurorluqda fəaliyyətə müstəntiq kimi başlayanda da həmişə məni diqqətdə saxlayardı, deyirdi ki, sən də prokuror olmalısan.**



**Öz peşəsini yüksək tutmaqla, həddindən artıq sevirdi, tutdugu vəzifəyə son dərəcə məsuliyyətlə yanaşırdı. Prinsipal və cəsarətli prokuror idi, sərt mövqeyi ilə seçiirdi. Eyni zamanda ədalətli, humanist, qanunun aliliyini hər şeydən üstün tutan prokuror idi.**

**Tələt müəllimin özünə məxsus xarakteri var idi, xidmətdə də, məişətdə də, ailədə də sərtliyi ilə seçilirdi, ancaq sərtliyi qədər də yumşaq kövrək ürəyə sahib idi. Həmişə çalışardı imkansızların tərəfində olsun, onlara əl tutsun, xeyirxah və təmənnasız insan idi. İşlədiyi orqanda da, cəmiyyətdə də ailədə də böyük nüfüz qazanmışdı, heç kim onun sözündən çıxmazdı, çünki özü sözü bütöv bir kişi olub.**

**1990-cı ildə prokurorluqda müstəntiq işlədiyim zaman mənə hakim seçilmək təklif olundu, mən də razılaşaraq sənədlərimi toplayıb, müvafiq quruma təqdim etdim, artıq məsələ müsbət həll olunmaq ərəfəsində idi, bazar günlərinin birində Tələt müəllimlə təsadüfən görüşdük, bu barədə ona məlumat verdim. Çox fikirləşmədən özünə məxsus tərzdə etirazını bildirdi, dedi, axı mən sənə demişəm prokuror olmalısan və təsəvvür edin ki, onun bu bir kəlməsi ilə mən sənədlərimi geri götürərək, bu fikirdən döndüm.**

**Çox təəssüflər olsun ki, vaxtsız dünyadan köçdü, Qarabag həsrəti, doguldugu Şuşa nisgili ilə. Ancaq bu gün ən böyük təsəllimiz dogma torpaqlarımızın cəsur əsgərlərimiz və onlara rəhbərlik edən Ali Baş Komandanımızın sayəsində geri qaytarılması həyatdan köçmüş bütün ulularımızın ruhunu şad etdi.**

**Allah rəhmət eləsin.**

## *Əldə telefonla gəzməyin təhlükəsi*

**Əlində telefonla gəzmək təhlükəlidir. Adalet.az xəbər verir ki, ABŞ, Danimarka və Yeni Zelandiya alimlərinin fikrincə, bu, bədənə və beyinə zərər verir.**

Cihazlarından daim istifadə edən piyadalar şüuraltı olaraq yavaşlayır, daha qısa addımlar atır və hər iki ayağını yerdə daha uzun saxlayırlar. Bu yeriş duruşu pozur və diqqəti azaldır, yıxılma və toqquşma riskini artırır.

Fiziki risklərdən əlavə, emosional nəticələr də var. Gəzərkən ekranlarına baxan şəxslər özlərini daha az rahat və daha az xoşbəxt hiss edirdilər. Cihaz açıq havada olmağın hər hansı psixoloji faydasını inkar edir. Bir sözlə, gəzinti planlaşdırırsınızsa, telefonunuzu kənara qoyun.

# *Seyran Səxavət Füzuli dərdi ilə yoğrulmuş sözün səxavətidir*

**Nağıllarımızın yaddaşından süzülüb gəlmiş, sözün sirlərini dilinin ucunda gəzdirən, bu zəmanənin özünəməxsus sənətkarı Seyran Səxavət, hələ ədəbiyyata gəlişinin ilk günlərindən alın yazısının hökmü ilə tanındı. Sözün səxavətli övladı, qəlbi Füzulinin dərdi ilə yoğrulmuş böyük sənətkar Seyran Səxavət, bu dünyaya gəlişində atası Əsgər Xanlarovun adını qəlbində saxlasa da, tale onu görkəmli alim Qasım Qasımzadənin müdrik xeyir-duası ilə Seyran Səxavət olaraq tanıtdı. O, hələ 1962-ci ildən ədəbiyyata şeirləri ilə qədəm qoyub, sonra isə "Hamı elə bilirdi ki...", "Dar köynək", "Daş evlər", "Qızıl təşt", "Nekroloq", "Yəhudi əlifbası" kimi nəsr əsərləri ilə öz töhfəsini verir, hər bir əsəri bir hadisəyə çevrilir, sanki hər cümləsi bu torpağın nəfəsini daşıyır.**

Bəli, bəziləri onun dəyərini vaxtında ala bilməmiş sənətkarlardan olduğunu düşünür. Lakin onun sözündəki dərinlik, o dərinlikdəki fəlsəfə zamanın süzgəcindən keçərək hər zaman anlaşılır. Nəsrə keçməzdən əvvəl gəncliyin sevimli şairi kimi qəbul edilsə də, onun poeziyasındakı bədii-fəlsəfi yük və intellektual dərinlik onu dövrünün ən orijinal səslərindən birinə çevirir. Yazıçılar Birliyinin katibi Rəşad Məcid vurğulayır ki, gənclər təmiz Azərbaycan dilində yazmaq istəyirsə, Seyran Səxavəti oxusunlar, bu, təkcə dilə yox, həm də onun Qarabağ camaatının şirin danışığını ədəbiyyata gətirmək məharətinə verilən ən böyük qiymətdir. Xalq şairi Ramiz Rövşən isə zarafatla deyir ki, "Şairlərin xoşbəxtliyindən, nasirlərin bədbəxtliyindən Seyran Səxavət şeirdən nəsrə keçdi", bu da onun poeziyasının nə qədər güclü olduğunun etirafıdır.

Şairin 18 yaşında yazdığı "Səxavətli baharım" şeiri sadəcə bir bahariyyə yox, onun bütün yaradıcılığının poetik kodu və ya bədii idrak qalasının açarı kimi dəyərləndirilir. Yazıçı Vaqif Bəhmənlinin dediyi kimi, Seyran Səxavətin şeirləri insanda elə dərin iz buraxır ki, sanki bədəndə "nakolka" (döymə) kimi qalıb pozulmur.

Seyran Səxavətin şeirlərindəki bədii forma zənginliyi və əlvanlığı onu fərqləndirir.

O, istənilən vəzndə yazsa da, poeziyasında həmişə həyat, təbiətin və insanın mənəvi aləminin şeiriyyəti, dərin zəka və fikir ön planda olur. Şair-tərcüməçi Kamran Nəzirli qeyd edir ki, şeirdə yenilik təkcə sərbəst şeir yazmaqla deyil, həm də Seyran Səxavətin örnəyində olduğu kimi, vəznli-qafiyəli şeirlə dövrün müasir problemlərini və ən incə duyğularını poetik formada ortaya qoymaqla mümkündür.

Bu mənada Seyran Səxavətin poeziyası lirik duyğuların ən uca zirvəsidir. Onun "Adalar" və "Mənim planetim" kitablarında yer alan şeirlər saf eşqin, tənhalığın və daxili mübarizənin poetik aynasıdır. O, məhəbbətin təkrarsızlığını belə ifadə edir, sanki eşqin təkrarı yoxdur: "İnsanlar bir dəfə doğulduğundan,



Elə bir dəfə də sevə bilərmiş..." Bu, sevginin təkrarsız və əbədi bir hadisə olduğu fikrinin poetik ifadəsidir. Onun üçün sevdiyi varlıq öz canından, ürəyindən belə əzizdir, bu eşqin fədakarlığını göstərir: "Sıxma ürəyimi, ürək cəhənnəm, Axı sən ordasan, sən sıxılarsan..." Tənhalığın isə o, dünyanın fərqli dillərini öyrənməyə hazır olmaqla, öz həqiqət dilini tapa bilmədiyini söyləyir: "Burda tənhalıqdan lap iyrənmişəm, Gedib yetmiş iki dil öyrənmişəm, Hələ tapmamışam dilini sənin..." Tərcüməçi Kamran Nəzirli qeyd edir ki, şairin bu cür misralarını tərcümə etmək belə, hər iki dilin və mədəniyyətin ruhunu dərindən bilməyi tələb edir.

Nəsrə gəldikdə isə, Seyran Səxavət xalqın ruhunu qəhrəmanlarının dilinə köçürür. Rəşad Məcid böyük həyəcanla danışır ki, onun əsərlərinin qəhrəmanları - poçtalyon Qədir, yaxud "Qaçhaqaç"dakı Yusif Səmədoğlu və Zakir Fəxri kimi simalar - bizim tanıdığımız, həyatda gördüyümüz insanlardır.

Onun nəsrinin dərinliyini anlamaq üçün "Kişi salonu" hekayəsindəki dil-ədəbiyyat müəllimi Səlimin faciəvi obrazını xatırlamaq lazımdır. Səlimin gecələr dəlləkxanaların lövhələrini çəkiclə sındırması, polisin belə izinə düşə bilmədiyi tənha bir etirazdır. Bu, sadəcə bir vandalizm deyil, işğalla barışmayan, kütləvi riyakarlığa dözə bilməyən bir vicdanın qışqırığıdır: "Qarabağsız kişi olmaz!!!" Bu etiraz həm də Səlimin daxili yarasını, müəllimə hörmətin, "şəxsiyyət" anlayışının ucuzlaşmasına qarşı çıxan bir ziyalının dərdini daşıyır. Onun dərdini heç kimə açmaması, Kamran Nəzirlinin qeyd etdiyi kimi, iç yarasını gizlətməsi, sənətkarın cəmiyyət içindəki tənhalığının ən kədərli ifadəsidir.

Seyran Səxavət Azərbaycanın ədəbi mühitində özünəməxsus yer tutmaqla yanaşı, Nüsrət Kəsəmənli, aktyor Fuad Poladov və yazıçı Yusif Səmədoğlu kimi görkəmli sənətkarlarla sarsılmaz dostluq əlaqələri ilə də seçilir. Fuad Poladov onu ən ağır anlarında mənəvi güc aldığı bir ziyalı olduğunu daim vurğulayırdı. Kinorejissor Tahir Əliyev isə Seyran Səxavətin mahiyyət etibarilə böyük yazıçı olduğunu vurğulayır, onun "Karusel" hekayəsinin ssenariyə çevrilməsi planlarının, hətta bu mövzunun dünya şöhrətli rejissor Kşiştof Zanussi ilə müzakirə olunduğunu xatırladır. Bu, Seyran Səxavət nəsrinin hələ də güclü vizual və dramaturji dəyərə malik olduğunu göstərir. Yazıçı-tərcüməçi Kamran Nəzirli isə sənətkarı təkcə yazıçı kimi yox, həm də dil mütəxəssisi kimi təhlil edir. O, Seyran Səxavətin xalq dilini zənginləşdirərək, ona əlavə "sərvət" gətirməsini və poetik, şairanə roman dili yaratmasını onun ən böyük novatorluğu sayır. Kamran Nəzirli onu bir şəxsiyyət kimi də sevir, çünki Seyran Səxavət qürur, məğrurluq və sərtliklə yanaşı, mülayimliyi, həlimliyi cəmləşdirərək, özündə nadir bir harmoniya yaratmağı bacarır.

Bəli, biz bu böyük sənətkarın yaradıcılığının yalnız bir hissəsini işıqlandıra bilirik, amma verdiyi ədəbi səxavət o qədər böyükdür ki, onun haqqında nə qədər danışılsa da, hələ deyilməyən, hələ kəşf edilməmiş sirləri qalır.

Seyran Səxavət - sözün həqiqətini, xalqın dərdi və dilini öz qələmində birləşdirən, hal-hazırda yaşayan və yaradan bir ədəbi möcüzədir.

Seyran Səxavət ədəbiyyata gətirdiyi dil şirinliyi, xalq dilinin incəlikləri, dərin fəlsəfəsi və sosial problemlərə həssas yanaşması ilə Azərbaycan sənətində özünəməxsus iz buraxmışdır. Onun yaradıcılığı gələcək nəsillər üçün də saflıq, həqiqət və vətənpərvərlik dərsi olaraq qalacaqdır.

**Nəhayət, unutmaq olmaz ki, 2026-cı ildə böyük sənətkarın 80 yaşı tamam olur. Ümidvaram ki, gec də olsa, bu yubiley yaşında əsrimizin nəhəng ədəbi möcüzəsi olan dəyərli dostum Seyran Səxavət dövlətimiz tərəfindən ən yüksək təltif və mükafatlara layiq görüləcək, beləliklə də, öz həqiqi qiymətini alacaqdır.**

**Şəmsi Qoca**

# Bakcell texno-blogerlər üçün "Media Tech" təlimini həyata keçirdi

**İnnovasiya lideri Bakcell-in rəqəmsal bacarıqların inkişafına yönəlmiş "MediaTech" layihəsi çərçivəsində təlim proqramı baş tutub.**

**Adalet.az xəbər verir ki, "Smart Nation" ilə birgə həyata keçirilən "MediaTech: Blog the Future" tədbiri ilk dəfə texno-blogerlər üçün nəzərdə tutulmuş innovativ məzmunlu təlim proqramı olub. Təlimin əsas məqsədi texnoloji influenserlərə maraq göstərən yeni nəsil kontent istehsalçılarını bir araya gətirmək, onların praktiki biliklərini artırmaq və bu bilikləri müasir, innovativ yanaşmalarla möhkəmləndirmək olub.**

**Ümumilikdə 60-dan çox texno-blogerin iştirak etdiyi proqramda iştirakçılar rəqəmsal məzmun istehsalı, şəxsi brendinq, rəqəmsal marketinq strategiyaları, alqoritmlərin iş prinsipləri və mobil videoyaradıcılıq kimi sahələr üzrə intensiv sessiyalarda iştirak ediblər. Sessiyalar real nümunələr və praktik tapşırıqlar əsasında qurularaq iştirakçılara əldə etdikləri bilikləri dərhal tətbiq etmək imkanı yaradıb. Təlimin sonunda gələcəyin texnoloji influenserlər sosial media üçün məzmun qurulusu yaratmaq, rəqəmsal auditoriya ilə effektiv ünsiyyət qurmaq, trend analizləri aparmaq və mobil kontent istehsalında innovativ metodlardan istifadə etmək bacarıqlarını inkişaf etdiriblər.Bu təşəbbüs Bakcell-in Azərbaycanda rəqəmsal savadlılığın artırılmasına, innovasiya və texnologiya ekosisteminin gücləndirilməsinə yönəlmiş davamlı və strateji fəaliyyətlərinin növbəti uğurlu nümunəsidir.**

### Bakcell haqqında

**Bakcell Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir.**

**Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir.**

**Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan Bakcell süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir.**

**Bakcell müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.**

# Əyyub Abasov-120. "Zəngəzur" romanı faciələrimizin bədii-tarixi salnaməsidir



Hacı Nərimanoğlu
"Zəngəzur" Cəmiyyətləri İctimai Birliyinin sədri, tarix üzrə fəlsəfə doktoru

**Tanınmış yazıçı, əməkdar incəsənət xadimi, ikicildlik məşhur "Zəngəzur" romanının müəllifi Əyyub Cəbrayıl oğlu Abbasov 1905-ci ildə Zəngəzur qəzasının Qarakilsə (Sisian) rayonunun Şəki kəndində doğulub, 18 dekabr 1957-ci ildə 52 yaşında Bakıda vəfat edib.**

Tarixdə bəzən bir bədii əsəri, elmdə bir kəşfi ilə də adını əbədiləşdirən yazıçılar, alimlər olub. 70 illik kommunist-sovet rejimi dövründə yaranan çox sayda əsərlər var ki, artıq bu gün ədəbiyyata, sənətə aidiyyəti olmayan makulatura məmulatına çevrilib, lazımsız poliqrafiya məhsulu kimi kənara atılıb qalıb. Ancaq o əsərlər yaşayır, müəllifin adını yaşada bilir ki, o zamanın bütün təqib, təzyiqlərinə baxmayaraq dövrün ədəbi qəliblərinə sığmayıb, kanonlardan kənara çıxıb, bütün mövcud risqləri görüb dəyərləndirməklə yenə də yazıçı-vətəndaş vicdanının səsi ilə həqiqəti yazıb, əks etdirib. Əyyub Abasovun xalqımız, ədəbiyyatımız qarşısında ən böyük xidməti, yadigarı 2 cildlik 980 səhifəlik "Zəngəzur" tarixi romanıdır ("Nağıl Evi" mətbəəsi-2013). "Zəngəzur" romanının nəşrinə qədər daha çox şair, dramaturq kimi tanınan Ə.Abasovun bu romanı öncə vicdan və cəsarətin səsiydi, həm də müəllifin böyük ədəbi istedadının göstəricisi idi. 1918-ci il avqustun 5-də Andranik Ozanyanın 8 minlik nizami daşnak qoşunlarının Zəngəzurda ermənilərin törətdikləri qırğınları, ata, anasının, qardaşlarının, bütün doğmalarının qanına qəltan edildiyini, göz açıb ilk gördüyü, könül verib ilk sevdiyi Sisianın (Qarakilsə) qədim Şəki kəndinin, digər yurd yerlərinin yağmalanıb odlara qalandığını qoyun-quzularını otardığı təpənin başından görmüşdü. Bu vəhşətdən təsadüfən qurtulub qaçan həmkəndlilərinə qoşulan Əyyub Naxçıvana, tək bacısı Həmidə heç zaman olmadığı, heç kəsi tanımadığı Zəngəzurun şərqinə tərəf üz tutur, hər ikisi də bir-birini ölüb itmiş bilir və taleyin hökmü ilə 15 il sonra mənim doğulub böyüdüyüm Qubadlının Saray kəndində bir-birini tapıb qovuşmasının mənzərəsini şahidlərin görüb danışdığı dildə yazmışam...

General Andranik Ozanyanın Zəngəzura hücumu, erməni əhalisi qarşısındakı çıxışlarında söylədikləri romanda dəfələrlə təkrar olunur: "Müsəlman kəndlərinin biri də salamat qalmamalıdır", "Türkü öldürmək cinayət deyil, qəhrəmanlıqdır, türkü öldürməyənlər millət xainidir, özləri öldürülməlidir..."

İnsan qəssabı Andronik biləndə ki, ilk hücumlardan sonra Sisianın bəzi müsəlman kəndlərindən hələ də sağ qalanlar olub, hirsindən dəli olur, əvvəlcədən işini ehtiyatlı tutur, elə mühasirə planları qurur ki, törətdiyi vəhşəti Zəngəzurdan kənara çıxarıb danışan canlı şahid qalmasın. "Andronik birinci davada buraxdığı səhvə yol vermək istəmirdi. İkinci hücumda bütün çıxış yollarını kəsməli, heç kəsi salamat buraxmamalı idi."

Bu vampir xislətli cəllad quldurbaşı qoşununu və erməni əhalisini Gorusda bir meydana toplayıb "qələbə" münasibəti ilə onları təbrik edib deyir: "Gördünüzmü, Türkiyədə qırılan ermənilərin intiqamını Zəngəzur müsəlmanlarından necə alıram! İndi mən qalan müsəlman kəndlərinin də daşını daş üstə qoymayacağam. Mən Andranikəm, axırıncı soldatım qalana qədər vuruşacağam!"...

Bu da qədim Zəngəzur ellərində erməni daşnak dəstələrinin yaratdığı müdhiş mənzərənin romandakı təsviri: "Onlar yayın bu gözəl gecəsində kəndə qonaq deyil, ölümün pəncəsindən qurtulub gəlmişdilər. Bu adamlar dağıdılmış, yandırılmış ayrı-ayrı kəndlərdən: Şəkidən, Ağudidən, Vağüdidən, Uruddan, Qarakilsədən gəlmişdilər. Hamısı Andronikin topunun, tüfənginin ağzından qurtarmışdı. Lakin fəlakət onları yenə izləyirdi..."bala, vay", "bacı, vay","ata, vay", "yazıq balam, qaldı", "yurdum, komam yandı", "çö-rək..." fəryadı, ürəkləri yandıran ah-naləsəsindən qulaq tutulurdu...bu ətrafda yeməyə ot da, gicitkan da qalmayıb..."

Onun bu insanlıqdan uzaq vəhşiliyinə hətta, hələ ətrafda nələr baş verdiyini görüb anlamaqda çətinlik çəkən ermənilər də heyrətlə baxırdı, bu zülmə mat-məəttəl qalmışdı.

"Zəngəzur"dakı bu sətirlər o illərdə yazılıb nəşr olunmuşdu ki, Ermənistan rəhbərliyi və dünyanın bütün ölkələrinə səpələnmiş erməni başbilənləri 1915-ci ildə Anadoluda türklər tərəfindən ermənilərin guya "soyqırım"a məruz qalmasının ildönümünü və Andranikin 100 illiyini qeyd etməyə açıq və gizli şəkildə ciddi hazırlıqlar görürdü. Q.Qəribçiyanın, S.Xanzadyanın, A.Mikoyanın, İ.Baqramyanın kitablarında Andronikin artıq "Xalq Qəhrəmanı", "Erməni xalqının Xilaskarı" obrazı yaradılırdı. Ə. Abasov isə romanında bütün bu saxta tarixi alt-üst edirdi. Xalq yazıçısı, tənqidçi ədəbiyyatşünas Elçin həm də məhz bu amili nəzərə alaraq sosialist realizminin hakim ədəbi metod olduğu dövrdə Azərbaycan nəsrində yaranan belə cəsarətli əsərlərdən konkret ikisinin - Əyyub Abbasovun "Zəngəzur" və Mirzə İbrahimovun "Gələcək gün" romanlarının adını çəkir (Elçin "Sosrealizm bizə nə verdi?", "Ədəbiyyat" qəzeti, № 12, 05.04.2013).

Romanın əsas obrazlarından olan erməni keşiş Mesropun bu sözləri erməni kilsə düşüncəsinin ifadəsidir: "Mənim millətim hamı millətlərdən alidir. Heç bir millətin tarixi ermənilərinki kimi qədim deyil. Hər daşı qaldırsan, altından bir erməni tarixi çıxar..."

Hətta, çar Rusiyasının xarabalıqları üzərində, tarixi Azərbaycan-türk torpaqlarında yeni elan edilən Ermənistan Milli Şurasının qurucuları da eyni kinli fikirlərin daşıyıcıları idi. Bu bədnam şuranın Andranikin yanına danışıqlara göndərdiyi general Karo Hamparsumyan yenicə İrəvanı özlərinə paytaxt etməyi bacaran başbilənlərinə məktubunda yazır: "Andronik ermənilərə millətçilik və başqa xalqlara qarşı ittiham hissi aşılamaqda bizim məqsəd və ideyamıza yaxındır." O da buradakı həmcinsləri ilə söhbətlərində bunu anladır: "əsas vəzifə şüarımızı unutmamaqdır. "Makrel sırpel", yəni süpürüb atmaq. Ermənistanda ancaq ermənilər yaşaya bilər. Müsəlmanlar, ruslar ölkədən təmizlənməlidir. Andronikin başladığı, lakin axıra çatdırmadığı işi Xatisov hökuməti başa vuracaqdır."

Cəllad Andronikdən sonra Zəngəzurun xarabalıqları üzərində at oynadan digər erməni generalları - Dro, Hjde, Karo kimi erməni daşnak generalları da sanki amansızlıqda, vəhşi xislətdə yarışa girmişdilər: "Njde Şahmərdanın zəncirlənmiş qollarına, kürəyinə bənd edilmiş qaynar samovarın pörtələyib qabar atdığı kürəyinə baxıb qəhqəhə ilə güldü: - Birinci tamaşa qutardı, ikinci tamaşa daha maraqlı olacaq...Onları uçurumun kənarına çəkin!..."

Zəngəzur qəzasının mərkəzi Gorusun yaxınlığında Tatev monastrında qərargah quran Njde əsir götürdüyü yerli kommunistləri, müsəlman əhalinin köməyinə gələn Qafqaz İslam Ordusunun türk əsgər və zabitlərini, Qızıl Ordunun rus əsgər və zabitlərindən 200 nəfəri güllələtdirərək Tatev qalasından dərəyə tulladır. Bu gerçək real tarixi fakt romanda da əksini tapıb.




Ə.Abasov əsrin əvvəlində və sonunda Azərbaycan xalqının başına gətirilən müsibətlərin səbəbini, mahiyyətini obrazın dili ilə, uzaqgörənliklə təsvir edir; çar Rusiyasının Zəngəzurdakı pristavı Timofey Timofeyeviç Karpov şərait dəyişən kimi, burjua inqilabından sonra mərkəzin tapşırığı ilə dönüb olur "Zəngəzur" qubernatoru daşnakbaşı Andronik qoşunlarının kəşfiyyat rəisi, 1-ci məsləhətçisi, sonra da öz yerini bolşevik Rusiyasının Zəngəzurda yaratdığı Tatev şura hökumətinin faktiki başçısı, qızıl ordunun polk komandiri Gerasimova verir.

Njde qırmızı rus ordusunun gəlişini öyrənəndə kömək üçün keşiş Mesropu silah-sursat gətirmək üçün Tehrana göndərir. Rus-fars birliyinin romanda bədii əksini tam dəqiqliklə tapan xalqımıza qarşı məkrli fitnə-fasadları xüsusilə 1988-2020-ci illərdə baş verən hadisələrlə tam üst-üstə düşür.

Romanda bütün bu detallar arxiv sənədləri, gerçək faktlar, məhkəmə qərarları, Azərbaycan Xalq Cümhuriyyətinin yaratdığı Fövqəladə Komissiyanın topladığı sənəd-sübutlarla da əksini tapır.

Akademik İsa Həbibbəyli bu sətirlərin müəllifinin "Əyyub Abasov: Zəngəzur faciəsini yaşayan və yaşadan ədib" kitabına ("Mütərcim" - 2016) "Tarixi gerçəkliyin böyük romanını yaradan görkəmli yazıçı" başlıqlı Ön sözündə bu cəhətləri əsas tutaraq yazır: "Zəngəzur" romanı XX əsrin əvvəllərinin erməni terroru ilə bağlı qanlı hadisələrinin obyektiv ədəbi salnaməsi hesab olunmağa layiqdir. Bu, Azərbaycan ədəbiyyatında Zəngəzur hadisələrinə həsr edilmiş ilk tarixi roman kimi mühüm əhəmiyyətə malikdir.

Əsərdə Zəngəzur hadisələri bütün reallıqları, acı həqiqətləri ilə birlikdə obyektiv mövqedən əks etdirilmişdir. Bu mənada "Zəngəzur" romanı geniş oxucular üçün vətənpərvərlik məktəbi funksiyasını yerinə yetirdiyi kimi, tarixçilər üçün də mühüm bir mənbəşünaslıq bazası sayıla bilər. Əyyub Abasovun "Zəngəzur" romanında tarixiliklə bədiilik bir-birini tamamlayır".

Ə.Abasov savadı, bilik təcrübəsi sayəsində gənc yaşlarından Azərbaycanın ədəbi-bədii camesində böyük nüfuz qazanıb, Naxçıvan Pedaqoji Texnikumunda dərs hissə müdiri, maarif şöbəsinin müdiri olub, "Kommunist" qəzetinin redaksiyasında çalışıb, Leninqradda 3 illik redaktorluq və tərcüməçilik kursunu bitirib, Nazirlər Soveti yanında İncəsənət İşləri üzrə Komitəsində işləyib, İkinci Dünya müharibəsində faşistlərə qarşı vuruşub, MK-da təlimatçı, Bakı Teatr Məktəbinin direktoru, nəşriyyatda redaktor olub. İlk yazıları ilə istedad sahibi olduğunu göstərib, Naxçıvanda çıxan "Şərq qapısı" qəzetinin fəal yazarlarından idi. 21 yaşında Naxçıvanda yaradılan "Qızıl Qələm" Ədəbi Birliyinin rəhbəri seçilmişdi, 1932-ci ildə Naxçıvan Sovet Yazıçılar Cəmiyyətinin buraxdığı ilk kitab onun "Mübarizə" adlı şeirlər toplusu idi, sonra da 10-dan çox kitabı, "Seçilmiş əsərləri" (20 min tirajla) çıxdı, 20-dən çox şeirinə musiqi bəstələndi, pyesləri səhnəyə qoyuldu. Sabit Rəhman 1948-ci ildə Yazıçılar İttifaqının hesabat məruzəsində Ə.Abasovun Abdulla Şaiqlə yanaşı "uşaq ədəbiyyatı sahəsində çalışan ən qabiliyyətli yazıçı" olduğunu demişdi, tərcümələri kitab şəklində kütləvi tirajla növbəsiz buraxılırdı (Muxtar Auezzov "Abay", Cambul, A.Markov, Y.Dolmatovski, S.Mixalkov və s), tanınmış simalar, ədəbi tənqidin ən məşhur simaları - Süleyman Rəhimov, Mehdi Hüseyn, Osman Sarıvəlli, Süleyman Rüstəm, Bəxtiyar Vahabzadə, Nəriman Həsənzadə, Məmməd Arif Dadaşzadə, Məmməd Cəfər, Cəfər Cəfərov, xalası oğlu Əkrəm Cəfər, kürəkəni professor Cahangir Qəhrəmanov onu ədəbiyyatımızın ən istedadlı nümayəndələrindən biri kimi dəyərləndirirdi, xeyirxahlığı, səmimiyyəti, prinsipiallığı ilə də ədəbi aləmdə xüsusi nüfuz qazanmasından konkret dəlillər yazıb. Sovet-KQB rejiminin tüğyan etdiyi bir dövrdə "Zəngəzur"u yazmaqla onu gözləyən təhlükələri də görməyə bilməzdi, ancaq bunların heç biri onu həmvətənlərinin yaşadığı ağrı-acıları, doğulub uşaqlıq illərini keçirdiyi Zəngəzur ellərinin faciələrini qələmə almaqdan çəkindirə bilməmişdi.

Ə.Abasov XX əsrin 50-ci illərində "Zəngəzur"u yazmaqla uzaqgörənliklə bizə erməni məkrini anlatmışdı, xalqımızın yenidən soyqırımı, etnik təmizləmə siyasətinə məruz qalacağını çatdırmaq istəmişdi, duyuq salmışdı, bu dərslərdən ibrət almağa, ayıq-sayıq olmağa çağırmışdı, təəssüf, tarixin dərslərindən ibrət almamışdıq, bu səbəbdən daha ağır faciələr yaşamalı olmuşduq.

Hətta, senzuradan keçirmək üçün romanın süjet, kompozisiyasına, zəngin obrazlar sisteminə qatdığı xalqlar dostluğu, kommunist ideyalarının təbliği də onu xilas edə bilmədi. Romanın 2-ci cildi çıxandan az sonra Əyyub Abasov 1957-ci ilin 18 dekabrında 52 yaşında istedad və yaradıcılığının püxtələşdiyi bir vaxtda şübhəli şəraitdə "ürəktutması"ndan həyatla vidalaşdı. Və hər şey bundan sonra aşkar bəlli idi; "Zəngəzur" romanı qısa vaxtda satışdan, kitabxanalardan yığışdırıldı, qadağan edildi, son nüsxələrinin də yığılması üçün gizli kampaniya başlandı.

**(ardı 13-cü səhifədə)**

## *"WhatsApp"da yenilik*

**"WhatsApp" mobil tətbiqində ünsiyyəti daha rahat etmək üçün messencerə bir sıra yeni funksiyalar əlavə edilib. Söhbət səsli və ya video-mesaj buraxmaq seçimi ilə buraxılmış zəng bildirişləri, qrup zənglərində reaksiyalar, status stikerləri və digərlərindən gedir.**

**Adalet.az xəbər verir ki, əsas yeniliklərdən biri istifadəçi zəngə cavab vermədikdə qısa səsli və ya videomesajlar buraxmaq imkanının olmasıdır. Əgər kontakt "WhatsApp"da zəngə cavab verməyibsə, zəng edən şəxsin ekranında mesaj yazmaq üçün düymə görünəcək və bu düymə səsli poçtda olduğu kimi dərhal zəng edilən tərəfin çatına göndəriləcək.**



**Səsli qrup çatlarında artıq emoji ilə reaksiyalar funksiyası peyda olub ki, bu da iştirakçılara natiqi kəsmədən emosiyalarını ifadə etməyə imkan verir. Videozənglər zamanı tətbiq artıq avtomatik olaraq mövcud natiqi ayırır. Bundan başqa, "Meta" süni intellektlə işləyən alətlər də yenilənib: istifadəçilər mətn sorğusuna əsasən daha ətraflı şəkillər yarada, süni intellektlə dialoqda animate it "animasiya et" əmrini göndərərək söhbətdəki istənilən şəkli qısa animasiyaya çevirə bilərlər.**

**"Status" funksiyası üçün tənzimlənə bilən emojiləri olan interaktiv stikerlər, eləcə də sual stikerləri əlavə olunub. Bu cür suallara cavablar status müəllifinə gizli şəkildə göndərilir və yeni "Aktivlik" bölməsində idarə olunur. Analoji sualları artıq kanallara da əlavə etmək olar: abunəçilərin cavabları administratora məxfi şəkildə daxil olur, cavab verənin şəxsiyyəti isə digər iştirakçılardan gizli qalır. Tətbiqin masaüstü versiyalarında (Mac, Windows və veb) media fayllarla vərəq yenidən dizayn edilib, o, sənədləri, istinadları və medianı bir yerdə birləşdirir, eləcə də söhbətlərdə istinad önizləmələr təkmilləşdirilib.**

**Şirkətin məlumatına görə, buraxılmış zəng bildirişləri, süni intellekt alətləri və interaktiv stikerlər də daxil olmaqla, bu funksiyalarla yeniləmə tədricən iOS, Android və masaüstü istifadəçiləri arasında tədricən yayılır.**

**Bütün yeni imkanların tam buraxılması istifadəçinin cihazından, hesabından və bölgəsindən asılı olaraq dəyişə bilər.**



Ələmdar MƏMMƏDOV

# Mən bu zamana sığmazam

## Zirvəyə doğru: İlyas - İlahi qüvvə, köməyə gələn

(əvvəli ötən saylarımızda)

**İlyas müəllim oğlunun həbs olunmasını çox ağrılı qəbul etdi. Bu dağ vüqarlı, qranit qürurlu insan çox çalışsa da, oğlunu məhbəs həyatından qurtara bilmirdi. Rusiyada geniş imkanları olan bir nəfərə ağız açmaq lazım idi. İlyas müəllim qüruru ilə övladının arasında seçim qarşısında qalmışdı. Sonda O, qürurunu seçdi və oğlunu azad edə biləcək şəxsə ağız açmadı. Etimad atasının hərəkətini anlayışla qarşıladı.**

2011-ci ildə məhbəs həyatı sona yetən kimi Bakıya qayıdan Etimad on iki illik məhəbbət hicranına son qoyaraq, tanınmış telejurnalist Sevil Nuriyeva ilə ailə həyatı qurub, İstanbul şəhərində yaşamağa başladı. Uca Tanrı 2014-cü ildə onlara İlyas adında oğlan övladı qismət etdi.

Etimad Türkiyədə olanda da atasının siyasi fəaliyyətinə nüfuz edir, barəsində yazılanları diqqətlə izləyirdi. Yadımdadır, 2018-ci ildə "Qvqat.com" saytında İlyas müəllim haqqında qələmə aldığım "Ədaləti həyat kredosuna çevirən insan" başlıqlı yazım dərc olunan gün gecəyarısı mənə İstanbuldan telefon gəldi - Etimad İsmayılov idi. Xeyli söhbət etdik. Yazıya görə minnətdarlığını bildirdi. Görüşmək ümidi ilə sağollaşdıq. Lakin görüşmək qismət olmadı...

Etimad qardaş Türkiyənin də ictimai-siyasi həyatında imkanı daxilində yaxından iştirak edirdi.

15 İyul dövlət çevrilişinə cəhd zamanı çoxları qaçıb gizləndiyi bir vaxtda Etimad xanımı və məsləkdaşı Sevil Nuriyeva ilə birlikdə ən qaynar nöqtələrdə oldu. Evdən çıxmamışdan əvvəl iki rikət namaz qılmağı, Allaha dua etməyi də unutmamışdı bu fədakar cütlük. Etimad Sevil xanımı əvvəlcə telestudiyaya, oradan da Ərdoğanı qarşılamaq üçün hava limanına apardı. Onların bu fədakarlığı izsiz qalmadı. Sevil xanım mediya nümayəndəsi kimi Ərdoğanı Fransaya səfəri zamanı müşahidə edənlər arasında idi. Təsadüfi deyil ki, Etimad dəfn olunan günü Türkiyənin Birinci xanımı Əminə Ərdoğan telefon açaraq Sevil xanım və Etimadın anası Zəkiyyə xanıma başsağlığı vermişdi.

Etimadın və Sevil xanımın qardaş ölkədə müxtəlif təbəqələrdən çoxsaylı dostları var idi. Onlar da Etimadın vaxtsız ölümünə kədərlənmişdilər.

Azərbaycan Respublikasının Xalq artisti Azərin xanım Etimadın ölümü münasibətilə öz kədərini belə ifadə etdi: "Çox sadiq bir vətəndaş idi Etimad. Mən Etimadı bir neçə illər bundan əvvəl çox yaxın rəfiqəm Sevilin həyat yoldaşı olaraq tanıdım.

Etimad sadəcə öz sahəsində - hüquq, ya da siyasət sahəsində düşünmür, Etimad hərtərəfli düşünür və bunun içində təbii ki, Azərbaycanın bugünkü sənətinin vəziyyəti də var idi. Həqiqətən də çox sadiq bir vətəndaş idi Etimad. Biz bu gün işimizlə, peşəmizlə məşğul ola bilərik, qazancımız da ola bilər, amma bununla yanaşı, Vətənimizi və onun 20 faiz işğal altında olan torpaqlarını, qaçqınını, köçkününü də unutmamalıyıq ki, Etimad belə insanlardan biri idi.

Düşünürəm ki, inşallah, əbədi dünyada Etimadın yeri çox gözəldir, çünki Etimad həm də çox xeyirsevər insan idi. Darda olan, çətin vəziyyətdə yaşayan insanlara əl uzadırdı. İnşallah ki, Allahın sevdiyi qullarından biridir və inşallah ki, Allah ona Cənnətində bir məkan ayırar. Mənə çox çətindir, amma düşünürəm ki, onun oğlu İlyas gələcəkdə onunla fəxr edəcək.

Atası ona çox yaxşı bir ad qoyub getdi. Bu da bir oğul, eyni zamanda bir ata üçün çox vacib və önəmli bir məsələdir.

Allah rəhmət eləsin!"

Etimad İsmayılovun dostu və silahdaşı Mustafa Cankat Aytek "Onu heç vaxt unutmayacağıq"-deyərək, Etimad yoxluğunun ağrısından danışdı: "Allaha və bütün müqəddəslərimizə and olsun ki, Onu əsla və əsla unutmayacağıq!

Mən mərhum mücahid Etimad İsmayılovun mənəvi qardaşı, iki dünyada da Dostu, silahdaşıyam.

O acı xəbəri aldığım gün, 19 sentyabr 2018-ci il, əsrlərdir heç cür ibrət almadığımız, tarixin ən qara və acı günü olan Kərbəla faciəsinin ildönümü və mənim doğum günüm idi.

O gün yuxudan oyananda, ömrüm boyu bir daha əsla unuda bilməyəcəyim bu tarixin, acı bir gün olaraq məndə çox dərin bir yara qoyacağını haradan və necə bilə bilərdim ki?

O gün rəhmətliyin sonuncu dəfə səsini eşitdiyim gün idi.

Allaha və bütün müqəddəslərimizə and olsun ki; Onu əsla və əsla unutmayacağıq.

Ədalətli və əsil bir atanın qiymətli övladı olan Etimad özünə yaraşan bir həyat anlayışına sahib idi, gözü halaldan başqa heç bir şeyi görməyən, qəlbi Allah eşqi və ümmət sevgisiylə dolu, Türkiyə və Azərbaycan üçün gözünü qırpmadan can verməyə hazır, malını, canını və bütün varlığını



Güclü Türk Milləti, Turan Ülküsü və bir-birinə dayaqlanmış, birləşmiş, qucaqlaşmış, çiyin-çiyinə verərək texnologiya və elmdə bütün dünyanın önünə keçmiş bir ümmət anlayışı və bu məqsəd üçün həsr etmiş Allahın Aslanı Türk millətinin bağrından qopan abidə kimi bir əsgərdi mərhum Etimad".

Etimad İsmayılovun Türkiyədə yaşayan dostu, azərbaycanlı musiqiçi Cavid Abidov ona məktub yazaraq təsəlli tapmağa çalışdı:

"Nə yaxşı ki, həyatımda varsan!

Salam, Etimad. Son zamanlar ürəyim yaman sıxılır. Vaqif Mustafazadəyə qulaq asıram. Kim bilir, bəlkə də bu gün yaşasaydı, mən heç onu dinləməzdim. Bəzi insanlar öz ilahi bacarıqları sayəsində bu dünyadakı missiyalarını tez bitirib arzuladıqları zirvəyə tez yola düşürlər. Biz isə təəssüflə itirdiyimizin həyəcanını yaşayırıq. Yeganə təsəllimiz qəlbimizdə, yaddaşlarımızda qalır. Səninlə tanış olanda mən sənə musiqiçi olduğumu deməmişdim.

Çünki hiss elədim ki, sən ətrafında özün kimi işini mükəmməl bilən və dərin düşünən insanlara dəyər verirsən. Mən isə özümü bu normalarda görmədiyim üçün sənə sevdiyim işi söyləmədim. Amma sonradan təsadüfən mənim TRT-də Azərini royalda müşayiət etdiyim zaman izləmisən. Onda mənə zəng edib təəccüblə və bir az da fəxrlə çox yaxşı musiqiçi olduğumu dedin. Bunu səndən eşitmək mənim üçün böyük stimul idi. Çox sağ ol, qardaş. Nə yaxşı ki, həyatımda varsan. İstədim səninlə bir az düşüncələrimi paylaşım. Cavab verməsən də olar. İnşallah, qismət olarsa görüşərik...

Polis Akademiyasının müəllimi, "Yeni Şəfəq" qəzetinin iqtisadiyyat yazarı, Prezident yanında İqtisadiyyat üzrə müşavirlər qrupunun üzvü Ləvənt Yılmaz belə yazdı: "Mən Etimad abimə baxarkən tərtəmiz bir müsəlman gördüm. Rəhmətlik Etimad abimin deyimi ilə qardaşıyam. Bəzi şeylər çətin anladılar, çətin ifadə edilər, onları yaşamaq lazımdır. Bəzi yaşananlar da onu anladan üçün dinləyənə daha çətindir. Belə bir çətinlik içində bu yazını yazıram. Çox qısa müddət tanıdım Etimad abini, kaş ki, daha əvvəldən tanısaydım. O qısa müddət ərzində belə, ondan o qədər çox şey öyrəndim ki Dünyaya necə baxılacağını, dünyanın necə analiz edilə biləcəyini, necə düzgün və dürüst insan olunacağını, bu ölkə, bu millət, bu ümmət, bu dövlət üçün necə faydalı olunacağını, bunun üçün nələr edilməli olduğunu canlı bir nümunə olaraq rəhmətlik Etimad abimdən gördüm.

Mən Etimad abimə baxarkən tərtəmiz bir müsəlman gördüm. Namazında-niyazında, haramı-halalı bilən, haqqı, Qurani-Kərimi bilən və ona görə yaşayan tərtəmiz bir insan gördüm.

Amma bu dünyadan köçüb getməsi, onun arxasınca qoyduğu düşüncələri, fikirləri, dünyagörüşünü də alıb götürmədi. Onlar burada qaldı. Mən əminəm ki, onun dünyagörüşü, onun inancı, duyğuları, imanı nəticəsində ortaya qoyduğu vizyonu, xəyalları bir gün həyata keçəcək, həqiqət olacaq. Bəzi şeylərdən bəhs etmək istəmirəm. Onun xəyalları bir gün gerçək olacaq. Biz görə bilməsək də, bizə əmanət qoyub getdiyi İlyas görəcək, buna əminəm.

Mən ondan razı oldum, Allah da ondan razı olsun! Məkanı cənnət olsun!"

İHH - insan hüquqları və azadlıqları dərnəyinin başqanı Bülənt İldırım. "Mavi Mərmərə" gəmisini Qəzzaya aparan adam. Bu təşkilat Misirin keçmiş prezidenti Məhəmməd Mursinin müdafiəsini təşkil etmişdi. Etimad İsmayılov İHH-nın başlatdığı "Mursiyə azadlıq!" kampaniyasına keçmiş SSRİ məkanından könüllü qoşulan yeganə vəkil idi.

"Mən onu ədalətli, vəfalı, sevgi dolu, mərhəmətli, lazım gələndə dəliqanlı gördüm. Etimaddan necə bəhs edə bilərəm deyə düşündüm. Əvvəla onu deyim ki, çox inanılmış adam idi. Verdiyi sözün üstündə duran, insanlara hörmət edən, cəsur, hər zaman müsəlmanların problemləri haqqında düşünən, hansı məzhəbdən olur-olsun zalımın qarşısında dayanan bir insan idi. Məzhəb ayırımı etməzdi. Sünni, şiə, ya da sələfi, sufi təriqətlərinə də fikir verməzdi. Kimin yardıma ehtiyacı varsa, hansı müsəlmanın başı bəlada isə, kim haqsızlığa məruz qalmışsa, onun yanında idi. Çünki o bilirdi ki, Allah zalımların qarşısında dayanmağı, məzlumların yanında olmağı əmr edir. Hansısa futbol komandasına azarkeşlik edər kimi haqlı-haqsız fərqi qoymadan öz məzhəbini, öz dinini dəstəkləməyi əmr etmir Allah. Mən onu ədalətli, vəfalı, sevgi dolu, mərhəmətli, lazım gələndə dəliqanlı gördüm. Böyük itkidir. Hamımızı kədərə boğdu. Həqiqətən də ümmət üçün böyük layihələri olan və ümmətin qurtuluşu üçün düşünən, bunun üçün yaşayan bir adam idi. Allah onu sevənlərə, həyat yoldaşına, yaxınlarına səbir versin!

Allah rəhmət eləsin!"

Azərbaycanlı jurnalist, köşə yazarı Şahvələd Çobanoğlu kədərini bu cümlələrlə ifadə etdi: "İlyas müəllimə doğru-dürüst bassağlığı verə bilmədim. Bilmədim nə deyim. Bir neçə söz dilimdə qayıtdı.

Etimad bəyi baş prokuror oğlu olub, özünü baş prokuror oğlu kimi aparmayan bir adam kimi tanımışam. Müstəntiq oğlunun da atasının rütbəsindən aldığı dəyişməz havaya girdiyi bir ölkədə onun bu xarakteri diqqət çəkməyə bilməzdi.

Atasını çox sevən, onunla qürur duyan, lakin özünə güvənməyi bacaran, özü olmağı bacaran biri idi.

Xarakterli bir adam idi.

Etimadı bir insan kimi ən düzgün xarakterizə edən də həyat yoldaşı Sevil xanımdır.

**Həyat yoldaşının ad günü münasibətilə təbrik edərək ona olan hisslərini sosial şəbəkədə bölüşmüşdü.**

(ardı var)

## Çinlə ticarət dövriyyəsi 4 milyard dolları ötdü

**Bu ilin yanvar-noyabr aylarında Azərbaycanla Çin arasında ticarət əməliyyatlarının həcmi 4,214 milyard ABŞ dolları təşkil edib.**

Adalet.az bu barədə Dövlət Gömrük Komitəsinə istinadən xəbər verir.

Məlumata əsasən, bu, 2024-cü ilin eyni aylarındakı göstərici ilə müqayisədə 816,1 milyon ABŞ dolları və ya 24% çoxdur.

Hesabat dövründə Çin ilə ticarət dövriyyəsi Azərbaycanın ümumi ticarət dövriyyəsinin 9,45%-i həcmində olub. Bununla da sözügedən ölkə hesabat dövrü ərzində Azərbaycanın ən çox ticarət əməliyyatları apardığı ölkələr sırasında 4-cü pillədə qərarlaşıb.

Cari ilin yanvar-noyabr aylarında Azərbaycandan Çinə 79,6 milyon dollarlıq məhsul ixracı qeydə alınıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 66,6 milyon ABŞ dolları və ya 4,8 dəfə çoxdur.

Hesabat dövründə Çindən Azərbaycana isə 4,1 milyard ABŞ dolları dəyərində ixrac əməliyyatları icra olunub ki, bu da 2024-cü ilin eyni dövrü ilə müqayisədə 749,4 milyon ABŞ dolları və ya 22,2% artım deməkdir. Bununla da hesabat dövründə Çin Azərbaycanın ən çox məhsul idxal etdiyi ölkələr sırasında ilk pillədə qərarlaşıb.

Qeyd edək ki, 2025-ci ilin yanvar-noyabr aylarında Azərbaycandan xaricə ümumilikdə 8,117 milyard ABŞ dolları dəyərində 22,804 milyard kubmetr təbii qaz (qaz halında) ixrac edilib. Bu, ötən ilin eyni dövründəki göstərici ilə müqayisədə dəyər ifadəsində 513,275 milyon ABŞ dolları və ya 6,7% çox, həcm baxımından isə 718 milyon kubmetr və ya 3% azdır.

Dövr ərzində təbii qazın ölkənin ümumi ixracında payı 34,69%-ə bərabər olub.

Qeyd edək ki, bu ilin yanvar-noyabr aylarında Azərbaycan xarici ölkələrlə 44,589 milyard ABŞ dolları dəyərində ticarət əməliyyatı aparıb. Bu, ötən ilin eyni dövrünə nisbətən 1,480 milyard dollar və ya 3,4% çoxdur.

Xarici ticarət dövriyyəsinin 23,401 milyard ABŞ dolları ixracın, 21,188 milyard ABŞ dolları isə idxalın payına düşün. Son 1 ildə ixrac 937 milyon dolar və ya 3,8% azalıb, idxal isə 2,416 milyard dollar və ya 12,9% artıb.

**Yekunda xarici ticarətdə 2,213 milyard dollarlıq müsbət saldo yaranıb ki, bu da illik müqayisədə 3,353 milyard dollar və ya 2,5 dəfə azdır.**

# İKİ HEKAYƏ

## 31 IL SONRA ATA YURDUMDAN MƏNƏ PAY GƏTIRDILƏR...

**Otuz il əvvəl - 1994-cü ilin fevralında tətilə gələndə atam güclü qollarını boynuma dolayıb məni bağrına basdı. Amma ürəyi soyumadığı üçün uzun müddət əlimi buraxmadı. Onun ovcundakı qabarlar əllərimi daladı. Atam mənimlə görüşməyə gələn qonaqları yola salanda fürsət tapıb anamdan soruşdum: "Kişi harada işləyir?"**

Ən çətin vəziyyətdə belə təmkinini itirməyən anam bu dəfə çox çarəsiz görünürdü. Az qala pıçıltı ilə cavab verdi: "Ay oğul, iş var?! Hansı məktəbə gedirsə, əliboş yola salırlar".

Bu, həmin vaxt idi ki, bütün qarabağlılar kimi biz də yurd-yuvamızdan, isti ocağımızdan didərgin düşmüşdük. Mən sentyabrın axırında təhsil alamq üçün Türkiyəyə getmişdim, ailəm, qohum-əqrabam isə bir ay sonra Araz çayını keçərək, Beyləqanın Qaralar kəndində yaşayan tələbə yoldaşımın evinə pənah aparmışdı. Haylarına ilk çatan indi Beyləqan rayon icra hakimiyyətinin başçısı vəzifəsində çalışan Əziz Əzizov olmuşdu. Elə o vaxtdan qaçqınların və məcburi köçkünlərin hamisi, təmənnasız dayağı olan Əziz müəllim 15 gün ərzində acınacaqlı vəziyyətdə yaşayan 15 ailəni öz maşını ilə Bakıya gətirərək, o vaxt əməkdaşı olduğu keçmiş tramvay parkının inzibati binasında yerləşdirmişdi. Amma heç kim işləmirdi.

Odu ki, anamdan soruşdum: "Bəs kişinin əlləri niyə qabar-qabardır?"

Suala sualla cavab verdi: "Atanı tanımırsan? Kənddən çıxdığımız günə kimi əlini işdən soyutmadı. Həmin qabarlardır, çətin gedər..."

Cəbrayılda, Azərbaycanın üç alimlər kəndindən biri olan Soltanlıda ikimərtəbəli, topdağıtmaz evimiz vardı. Camaat kənddən çıxanda ermənilərin atdığı top mərmilərindən biri evimizə düşsə də, o nəhəng tikilinin ancaq bir tərəfini uçura bilmişdi.

Mən hələ 9-cu sinifdə oxuyanda evdə təmir işləri başlamışdı. Anam tez-tez atama deyirdi: "Ay kişi, əlli tərpən, sabah Seymurun tələbə yoldaşları gələcək, uşaqların yanında biabır olacağıq..."

Türkiyədə təhsil alanda tələbə yoldaşlarım tez-tez bizə qonaq gəlirdi.

Amma Cəbrayıldakı o gözəl evə deyil, yataqxanadakı darısqal mənzilimizə. Hər dəfə qonağımız olanda anam rəhmətlik Tamara arvadın yanında gecələyir, tələbə yoldaşlarım isə mənimlə, atam və qardaşımla birlikdə eni-uzunluğu cəmi 5-6 metr olan yataqxanadakı evimzidə yatırdılar. Yerimiz darısqal olsa da, ürəyimiz geniş idi. Amma nə qədər geniş olsa da, bu dərdə tab gətirə bilmirdi...

Aradan təxminən 28 il keçəndən sonra ata yurdumun xarabalıqlarını görmək mənə qismət oldu. İşğaldan azad olunmuş ərazilərə jurnalistlərin səfəri çərçivəsində bir neçə dəqiqəliyə də olsa, doğulduğum evə baş çəkə bildim. Sizə təqdim olunan fotoda evimizin halı aydın görünür. Həmin gün mənə elə gəldi ki, Cəbrayıl ikinci dəfə işğal olundu...

Geri qayıdanda qohum-əqrabanın "sual yağışı"na düşdüm. Əmim oğlu Xəyal isə məni əməlli başlı məzəmmət etdi: "Əvvəldən xəbərim olsaydı, yerini deyərdim, məhsulu gətirərdin".

Xəyalla aramızda belə bir dialoq oldu:

- Məhsul nədir?
- Xəbərin yoxdur?
- Nədən?
- Həə. Sən o vaxt Türkiyədə idin. Kənddən çıxanda rəhmətlik Vaqif əmimlə birlikdə həyətdə 10 litr tut arağı basdırmışıq.
- İndiyə araq qalar?
- Niyə qalmır? Bu dəqiqə getsəm, gözüyumulu taparam...

Həmin gün öyrəndim ki, insanlar kəndi tərk edib Araz çayı ilə İrana keçəndə çox əşyanı, məhsulu həyətdə basdırıblar...

Bu söhbətin üstündən bir neçə ay keçdi. İşğaldan azad olunmuş ərazilərə gediş-gəliş artıq əvvəlki qədər çətin deyildi. Hərə bir yolla kəndə gedib öz ata-baba yurdunun xarabalıqlarını görə bilirdi. Tez-tez eşidirdim ki, filankəs kənddən tut arağı gətirib.

Bir neçə ay əvvəl telefonuma tanımadığım nömrədən zəng gəldi. Nömrəni tanımasam da, "Alo" deyən kimi qonşumuzun səsini tanıdım.

Hal-əhval tutandan sonra belə dedi: "Qonşu, keçən həftə kəndə getmişdim. Sizin həyətdəki o məhsulu gətirmişəm".



Dərhal əmioğlu Xəyalın sözləri yadıma düşdü. Qeyri-ixtiyari soruşdum: "Necə tapdın? Yerini sənə kim dedi?"

O dəqiqə izahat verdi: "Rəhmətlik müəllim o vaxt arağı basdıranda, mən də yanında idim".

Nə deyəcəyimi bilmədim. Jurnalıist mən olsam da, dil-dil ötən o idi:

"Ay qonşu, başına dönüm, məhsulun başında bir az içmişəm. Qalanını uşaqdan göndərsəm, inciməzsən ki?"

Gözlərim doldu. Zarafat deyil, 31 il sonra ata yurdumdan mənə pay gəlmişdi. Tut arağının qoxusunu sevməsəm də, o payı görməyi çox istəyirdim. Odur ki, tez-tələsik dilləndim: "Halal-xoşun olsun. Yarısı sənin, yarısı mənim olsun".

Dərhal beynimdən bu fikir keçdi: "Yarısını qardaşım Teymura verəcəm. Axı mənim kimi ona da ata yurdundan pay çatmayıb..."

Bir az ordan-burdan danışandan sonra söz verdi ki, yaxın günlərdə həyətimizdəki ağ tutdan çəkilən o arağın 5 litrini oğlundan mənə göndərəcək...

Bu minvalla aradan 3 ay keçdi. Bu üç ay müddətində üç dəfə mənə zəng etdi. Hər dəfə də eyni sözü dedi: "Qonşu, sən Allah bağışla. Məhsulun üstündən bir az içmişəm".

Bilirəm indi nə fikirləşirsiniz. Yox, siz düşündüyünüz kimi deyil...

Bir həftə əvvəl işdən evə qayıdanda anamın ilk sözü bu oldu: "Kənddəki qonşumuz filankəs sənə yarım litr tut arağı göndərib".

Tut arağını sevməsəm də, şüşənin qapağını azca qaldırdım. Evə qeyri-adi qoxu yayıldı. Bu, kəndimizin qoxusu idi...

31 il sonra ata yurdundan pay gəlmişdi. Anamla göz yaşlarımızı saxlaya bilmədik...

Sonra araqdan bir qaşıq uddum. Bal kimi idi. İndi bildim ki, ata yurdundan nə göndərsələr, bal kimi şirin olur...

## VƏLI DAYI, KƏNDIMIZDƏN MUĞAYAT OL!

Yaxın qohumum, qədim Soltanlı elinin ən zəhmətkeş sakinlərindən olan Vəli Məhəmməd oğlu haqq dünyasına qovuşdu. Vəli kişi xəmiri zəhmətdən yoğrulmuş el ağsaqqalı idi. Beş balasını alnının təri, gözünün nuru ilə boya-başa çatdırmışdı. Öz əməyi ilə ucalan, ömrünün sonuna kimi bu ucalıqda qalan adamlardan idi.

Mən çoban Vəlinin üzünü görməzdən əvvəl adını eşitmişdim. Kəhər atın yalmanına yatanda ermənilər Laçın, Kəlbəcər yaylaqlarından didərgin düşürmüş. Nankor qonsularımızla onun davası sovetin qılıncının dalının-qabağının kəsdiyi vaxtlarda başlamışdı. Yaylaqlarda çapulculuq edən ermənilər Vəli dayının atını ayaq səslərindən tanıyırmışlar...

Vəli Məhəmməd oğlunu üç gün əvvəl ulu tarixin həmyaşıdı olan dogma Söltanlı kəndində torpağa tapşırdıq. Bizdən qabaq onun yurd niskilinə son qoyuldu. Bizdən əvvəl o, uğrunda igidlərin canını fəda etdiyi Vətən torpağına qovuşdu.

Vəli dayı, bilirəm, yerin rahatdır. Qu tükündən yumşaq olan barlı-bəhərli Soltanlı torpağında rahat uyuyursan. Onu da bilirəm ki, Xan Araz gecə-gündüz sənə layla çalır

Ağsaqqal, kimləri gördün, kimlərlə görüşdün? Babalarımız müqəddəs Vətən torpağını 27 il düşmən əsarətində qoyduğumuz üçün bizdən çox inciyiblər? 44 günlük Vətən müharibəsi onların nigaran ruhuna sığal çəkə bilibmi?

Vəli dayı, Nurullah Əmənulla oğlunu gördünmü? Məktəb üzü görməyən, amma ayağı indiki bəzi diplomluların başından çox bilən babama balalarının, nəvələrinin onun kimi alnıaçıq, üzüağ yaşadığını dedinmi? Nəvəsi Maisin - igid Maisin Vətən uğrunda canını fəda edib şəhadətə yüksəldiyini söylədinmi? Maisin nəslində Mais kimi cəsur oğulların doğulduğunu xəbər verdinmi?

Vəli dayı, sən torpaqlarımız azad olunandan sonra dogma yurda dönən ilk adamlardansan. Qışın soyuğunda, yayın istisində Soltanlının yovşanlı çöllərinin ətrini ciyərlərinə çəkdin. Axırda da torpaq səni özünə çəkdi

Ağsaqqal, bizim ellərdən muğayat ol!

Soltanlı yenidən tikilir, dirçəldilir. İnşallah, tezliklə biz də dogma yurda dönəcəyik. Külü soyumuş ocaqlarımızı yenidən qalamaq, ata evimizin çırağını yandırmaq üçün qayıdacağıq

Biz dönənə kimi o ellər sənə, sən də torpağa əmanətsən

Torpağın yumşaq olsun

**Seymur VERDİZADƏ**

# Əyyub Abasov-120. "Zəngəzur" romanı faciələrimizin bədii-tarixi salnaməsidir

**(əvvəli 11-ci səhifədə)**

Acı təəssüflər olsun ki, Əyyub Abasov ədəbiyyat tarixi dərsliklərində, müntəxabatlarda layiq olduğu yeri hələ də tapa bilməyib. Ancaq o olduqca çətin bir dövrdə istedadı, ədəbi-bədii irsi, şəxsiyyəti ilə öndə olan ədəbi simalardan sayılırdı.

Bu sətirlərin müəllifi 1978-ci ildə mərhum Süleyman Rəhimovun evində xatirələrini vərəqlərə yazarkən Qubadlının ucqar kəndindən gələn bişməmiş tələbə səmimiyyəti ilə soruşur: - niyə heç ermənilərin bizim kəndlərdə törətdiyi qırğınlardan yazmadınız?! Aldığım cavab bu günkü kimi yadımdadır: - yazdı da, Əyyub Abasov "Zəngəzur"da yazdı, çox dedim, eşitmədi, kitabı çıxan kimi də başın yedilər, yazdığının izin də itirdilər

Professor Qulu Xəlilov Əyyub Abasovun dəfn gününü belə xatırlayıb yazırdı: "Əyyub Abasovun qəfil ölümü yazıçılara bərk təsir etmişdi, dəfnində Yazıçılar İttifaqının sədri Mehdi Hüseyni sarsılmış gördüm, rəngi qapqara qaralmışdı, büdrəyib yıxılmaq dərəcəsinə gəlmişdi...".

Xalq şairi Nəriman Həsənzadə Əyyub Abasovla tanışlığını belə yazır: "...Bizdə rəhmətlik gözəl yazıçı Əyyub Abasov varıydı, əvvəl şair idi, sonra əvəzssiz iki cildlik "Zəngəzur" romanını yazdı. Elə onunla da tarixdə qaldı.

"Gənclik" nəşriyyatında şöbə müdiri idi. Mir Cəlal müəllim dedi ki, "Əyyub, Nərimanın şeirləri mənim xoşuma gəldi, onun kitabını nəşr elətdirin". Əyyub Abasov da Mir Cəlal müəllimin bir sözünü iki eləmədi, məni apardı nəşriyyata, müqavilə bağladı, beləcə ilk şeirlər kitabım buraxıldı."

Ə.Abasovu görüb yaxından tanıyanlar, haqqında yazanlar onu olduqca mehriban, səmimi, işinə məsuliyyətlə yanaşan, vicdanlı, milli düşüncəli insan kimi xarakterizə edirlər. Onun gənc yaşında Mərkəzi Komitədəki məsul vəzifəsindən uzaqlaşdırılmasında bu sonuncu amilin də rolu olmamış deyil.

Müasir Azərbaycanın qurcusu Heydər Əliyevin ata-baba yurdu xalqımızın qədim, əzəli yurd yerlərindən olan Zəngəzur mahalının Sisian bölgəsinin Comardlı kəndidir. "Zəngəzur" romanı taleyin hökmü ilə Naxçıvanı özünə yurd seçmiş əməksevər insan Əlirza kişi ilə İzzət xanımın ailəsində də sevilə-sevilə, həm də ürək ağrısı ilə oxunurdu. "Belə bahar günlərinin birində Əlirza və İzzət Əliyevlərin ailəsində dördüncü övlad dünyaya göz açdı. Körpəyə İzzət xanımın azərbaycanlıların Zəngəzurdan didərgin salındığı zaman həlak olmuş qardaşı Heydərin adını (heydər - başçı, öndə gedən deməkdir) qoydular. O Heydərin yaşı həmişəlik iyirmi üç olaraq qaldı...

İllər ötəndən sonra Əliyevlər ailəsində Əyyub Abasovun "Zəngəzur" romanı əldən-ələ keçdi. Çünki bu iki qalın cilddə yazılanları oxuyan Şəfiqə eynən bu hadisələri, analarının da ona danışdığını qardaşlarına söyləmişdi. - Yanılmırsan, Şəfıqə, - deyə Həsən təsdiq elədi. - Bu kitabı yazan adam didərginlik ağrısını çox dəqiq göstərmişdir". (V.Andriyanov, H.Mirələmov. Heydər Əliyev. Bakı, "Nurlan", 2008, səh.13-14, www.kulis.lent.az saytı, "Heydər Əliyevin bacısı anası haqqında danışır", 10 may 2013).

"Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 26 mart 1998-ci il tarixli 690 nömrəli Fərmanının icrasının həyata keçirilməsi ilə bağlı təsdiq edilmiş tədbirlər planında Əyyub Abasovun "Zəngəzur" romanının Azərbaycan və rus dillərində təkrar nəşrinə də (30 çap vərəqi) qərar verilmişdi.

Lakin o illərdə Prezident Administrasiyasında mühüm post tutub bütün sahələri ciddi nəzarətində saxlayan ramiz mehdiyev komandası və Apaaratda yuva qurmuş milli düşüncədən uzaq məmurlar bu kitabın nəşrinə imkan vermədilər və bu işi mərhumun alim nəvəsi - Elçin Qəhrəman oğlu Cahangirov övlad sevgisi ilə şəxsi vəsaiti hesabına yerinə yetirdi. 2020-ci il sentyabrın 27-də başlayıb 44 gün davam edən, hər günü xalqımıza qələbə sevinci, qürur yaşadan Vətən müharibəsində tarixi Zəngəzurun şərq hissəsi işğaldan azad edilərək yenidən Ana Vətən Azərbaycana qovuşdu. Vətən müharibəsində hərbi əməliyyatlara, döyüşlərə yüksək komandanlıq bacarığı ilə rəhbərlik etməsi ilə ümumxalq sevgisi qazanan Prezident, Ali Baş Komandan İlham Əliyev böyük siyasi uzaqgörənliklə "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" 7 iyul 2021-ci il tarixli Fərmanı ilə işğaldan azad edilmiş ərazilərimizdə "Şərqi Zəngəzur iqtisadi rayonu" (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) yaratdı. İndi o yerlərdə geniş miqyaslı dirçəliş, bərpa, tikinti-quruculuq işləri aparılır, Şərqi Zəngəzur dirçəlir, yenidən məskunlaşdırılır.

Prezident İlham Əliyev qarşıdakı strateji hədəfləri, yol xəritəsini də elan etdi: "Qərbi Zəngəzura qayıdacağıq, kimsə bizi dayandıra bilməz! Zəngəzur dəhlizi bütün türk dünyasını birləşdirəcək, bütün region ölkələri üçün yeni imkanlar yaradacaq. Əgər biz Zəngəzur dəhlizinə qayıdırıqsa, əgər biz bu yolu istifadə ediriksə, niyə də biz İrəvana qayıtmayaq? Zaman gələcək, biz bunu edəcəyik. Mən mövqeyimi təqdim edirəm. Zəngəzurun Şərqi varsa, onun Qərbi də var, bunların qovuşması artıq zaman məsələsidir."

Bütün yollar bizi şərqli, qərbli bütöv Zəngəzura aparır. O gün yaxındadır.

Bu isə "Zəngəzur" romanının son sətridir: "biz o yerlərə dönəcəyik!"

**Dünyaya göz açdığı yurdunda müsibətlər görüb yaşayan, o faciələrin ədəbi salnaməsini yaradan, Zəngəzur ellərimizə dönəcəyimiz günə inanan ədibimiz Əyyub Abasovun ruhu şad, arzuları çin olsun!**



# BAYAT



№ 65 (925)



Ramiz Rövşən

## 80 yaşın ŞEİRİ

Çatdıq, uzun ömür bu imiş demək.
Axı görə bilmir səksəni hamı
Tək bircə sənsənmi, yoxsa sənin tək
Səksənə çatanda səksənir hamı.

Eh, nələr görmədim bu səksən ildə
Səksəndin, dayandın, yoxsa yuxuymuş
Balalar qürbətdə, dostlar qəbirdə
Demək səksən yaşın qazancı buymuş?

Bu nə bəxşiş idi, bu nə hədiyyə?
Axı niyə sənin bəxtinə düşdü?
Sənin uzun ömrün görəsən niyə
Vaxtsız gedənlərin vaxtına düşdü.

Ha səslə, ha çağır, kimdi hay verən,
Otur dizlərini qucaqla, ağla.
Ey bu uzun ömrü mənə pay verən,
Mən indi neyləyim, bu qocalıqla.

Yox, yorma özünü, illəri sayma.
Bacarsan bu səksən yaşını aldat.
Bir az qat başını cızma-qarayla,
Bir az nəvələrlə başını aldat.

Gözündə eynək yox, əlində əsa.
Ağlın başındadır, şükür Allaha!
Hər ömür bir dərsdir, uzun ya qısa,
Son zəngə az qalır, dərs bitir daha!

## QARA PALTARLI QADIN

Kişilər bir olmur atam balası
Qorxağı var, igidi var,
Amma hər kişinin öləndən sonra
Qəbri üstdə ağlamağa
Bir qara paltarlı gözəl bir qadına ümidi var

Sən öləndə kim olacaq gözlərini bağlayan?
Qardaşmı olacaq, yadmı olacaq?
Bu dunyada bəlkə sənə ən çox ağlayan,
Ən çox ağlatdığın qadın olacaq?!

Göz yaşları yuduqca baş daşını
Qəbrində qurcalanıb,deyəcəksən: ilahi
İllər boyu ağlatdığım bu qadın
Görən necə saxlayıbdır bu qədər göz yaşını?!

Bircə kərə nə saçını oxşamışam,
Nə gözünü silmişəm.
Gözlərimə batır indi saçlarının hər dəni,
İllər boyu bu qadına mən axı dərd vermişəm
İndi görən niyə çəkir dərdimi?

Bu qadın baş daşımı öpüb sığallamaqdansa,
Yumruğuyla döysə-döysə yaxşıdı.
Qəbrimin üstündə ağlamaqdansa,
Məni söysə yaxşıdı.

Yeri-yeri,qara paltarlı qadın,
Kiri-kiri,qara paltarlı qadın.
Bu qəbir də min qəbirdən biridir.
Baş daşımı bəsdir basdın bağrına,
Bütün mənə ağlayanlar kiridi,
Sən də kiri, qəbrim damır, ağlama...

## TƏPƏDƏN DIRNAĞA HİRS İÇİNDƏYƏM

Təpədən dırnağa hirs içindəyəm
Dönmüşəm dustağa hirs içindəyəm.
Bu hasar içində, bu hirs içində
Ürəyim özünə yer tapa bilməz.

Bir çiçək qoxusu, bir quş səsi də
Daha ürəyimə yol tapa bilməz.
Səpdim öz yarama mən öz külümü
Adam öz külünə bulanır belə.
Dişim parça-parça kəsir dilimi
Şeirim hecaya bölünür belə...

Mən belə adamam məndən uzaq gəz
Uzaq gəz xeyirimdən, şərimdən mənim
Daha bu qələmim çiçək bitirməz
Qızlar çələng hörməz şeirimdən mənim..

Qaçdım məni sevən gözlərdən daha
Hamının sevgisi gözündə qalsın
Ev tikən deyiləm sözlərdən daha
Qoy hamı o çölün düzündə qalsın.

Sən də daşlamağa özgəsini tap
Məni ömür boyu daşlayan adam
gilası mürəbbə quzunu kabab
Şairi heykəl tək xoşluyan adam.

Yox heykəl ummuram bu yer üzündə
Mənim daş olmağa yoxdu həvəsim.
Daş olub lap ulu Füzulinin də
Yanında durmağa yoxdu həvəsim.

Mən sənin yanında dururam
Sənin... küçənin tinində dilənən qarı
Başından var-dövlət yağan ölkənin
Bəxtəvər günündə dilənən qarı.

Heç kəs sığal çəkməz düm ağ saçına
O gümüş telindən öpürəm sənin
Qorxma pul qoymuram sənin ovcuna
Əyilib əlindən öpürəm sənin...

## MƏN KÜSÜB GEDİRƏM

Mən küsüb gedirəm... Qoy hamı qalsın.
Mən küsüb gedirəm bu yer üzündən.
Oğulam-Qoy dərdim anama qalsın,
Atayam-qoy balam küssün özündən.

Dünya ucuz saydı, ya baha bildi?!
Nə satan tapıldı, nə alan məni.
Nə Allah dünyaya bağlaya bildi,
Nə atam, nə anam, nə balam məni.

İlahi, səndən də sındı ürəyim,
Məni küsdürənin yekəsi sənsən.
Dünyanın ən uzaq..., ələ gəlməyən,
Boğazdan keçməyən tikəsi sənsən.

Mən sənin yanına uça bilərdim,
Uçmuram, beləcə küsüb gedirəm.
Mən sənin sirrini aça bilərdim.
Açmıram, beləcə susub gedirəm.

Yandırıb gedirəm bu varağı da,
Bu şerin külünü kim oxuyacaq?
Söndürüb gedirəm bu çırağı da,
Məni qaranlıqda itirmə ancaq.

İlahi, küssəm də, səninəm yenə.
Gözün axıracan üstümdə olsun.
Bu sonsuz dünyanın son nöqtəsinə
Gedib çıxanacan üstümdə olsun.

Orda-bu dünyanın lap qırağında,
Bir nəhəng boşluğun lap qabağında.
Oturub dincimi alaram bir az.
Boşluğa sallaram ayaqlarımı,
Uşaqtək yellərəm ayaqlarımı,
Uşaqtək sevincək olaram biraz.

Bir ölüm işığı gəzər üzümdə,
Boşluqdan səs gələr: "Yubanma, tez gəl!.
Sənə, çoxdandı ki, bu yer üzündə,
Hər şey maraqsızdı, ölümdən özgə."

İlahi, gəlirəm, eşit səsimi,
Kimsəyə ümid yox, sən ovut məni.
Bu nəhəng boşluğa atdım özümü,
Sənə arxayınam, özün tut məni!

## SON GÖRÜŞ

Bu vaxtsız sevginin əcəli yetdi,
Buydu qismətimiz - ya tez, ya da gec.
Hərə öz dərdini apardı-getdi,
Bəs niyə dərdimiz azalmadı heç?

Dünya dağılmadı biz ayrılanda,
Göylər bir az yağış çilədi ancaq.
Mən sənə xoşbəxtlik dilədim onda,
Sən mənə rahatlıq dilədin ancaq.

Rahatlıq dilədin ev-eşiyimə,
körpəmin beşiyinə.
Nəvəsi dizinin üstünə çıxan
atama, anama da.
Bir vaxt səndən qabaq rastıma çıxan,
məni səndən alan qadınıma da.

İstədim son dəfə basım bağrıma,
Dedin: - Nəyə lazım, yox, yaxşı deyil!..
Ağladın.Dedim ki, kiri, ağlama!
Dedin ki, yağışdı, göz yaşı deyil.

- Bu görüş sonuncu görüşdü daha,
bu gün ayrılırıq, - deyib gəlmişdin.
Bəs niyə mənimlə bu ayrılığa
ən gözəl donunu geyib gəlmişdin?

Bəs niyə o cürə gözəldin onda?
İndi bunu necə yozum - bilmirəm.
Bəlkə də son dəfə mənim yadımda
Gözəl qalmaq idi arzun - bilmirəm.

Bir sevgi yarımçıq qırıldı o gün,
Yağış da kəsildi, bulud da getdi.
Bir qızla bir kişi ayrıldı o gün,
Hərəsi bir yana üz tutdu-getdi.

...O qızdan gözəl qız tapılmaz daha,
Daha o kişidən igidi yoxdu.
Amma bu dünyada xoşbəxt olmağa
Daha heç birinin ümidi yoxdu...

## KÖHNƏ MƏKTUBLAR

Xəbər gələr daha ömrün qışından,
Soyuyarsan -
saçlarına qar düşər.
Ancaq köhnə kitabların içindən
Hərdən-hərdən
köhnə məktublar düşər.

Əyilərsən, götürərsən gizlicə,
boylanarsan -
arvad-uşaq görməsin.
Çəkilərsən otağın bir küncünə,
gizli-gizli oxuyarsan hər sözü.
Bu nə sevgi məktubudu, ilahi,
indiyəcən ağrıyır hər sözü də.
Yazan qızın nəydi adı, ilahi,
Yaddan çıxıb sifəti də, üzü də.

Oxuduqca lal sətirlər səslənər,
Yavaş-yavaş səsi düşər yadına.
Bir hərfdən - qaşı düşər yadına,
Bir hərfdən - gözü düşər yadına.

O gözlərdən yadigartək varaqda
Göz yaşının ləkəsini görərsən.
Birdən donu xışıldayar otaqda,
Pəncərədə kölgəsini görərsən.

Diksinərsən, boylanarsan qapıya;
" o kölgəni arvad-uşaq gördümü?!"
Tez məktubu atarsan külqabıya,
yandırarsan hər sözünü, sətrini.

Sözlər yanar - kağızı da yandırar,
Sözlər yanar - o qızı da yandırar.
Sözlər qaçar o alovun içindən,
Sən baxdıqca -
basar səni soyuq tər.
Sıra-sıra qara qarışqalartək
Qaçıb gedər qara-qara hərflər.

Təkcə o qız qaça bilməz bu oddan.
Bir quş olub uça bilməz bu oddan.
O qız yanar o alovun içində,
Göyə qalxar o alovun dilləri.
O alovun dillərinə sarmaşıb
Yanar, yanar uzun-uzun telləri.

Yanar bir vaxt saçlarını oxşayan
Uzun-uzun barmaqları, əlləri.
O qız yanar -
ərşə çıxar tüstüsü,
Kağız yanar -
külqabıda küllənər.
Qəfil birdən
külqabının içindən
Yerə düşüb bir üzük diyirlənər.

Lap özünü itirərsən - baxarsan,
O üzüyü götürərsən - baxarsan;
Bu üzüyü axı harda görmüsən?
Bu üzüyü görməmisən bəlkə heç.
Sən o qıza haçan üzük vermisən?

Ona üzük verməmisən bəlkə heç.
Arvadın da qəfil girər qapıdan:
- Əlindəki nədi? - deyər.
- Üzükdü.
- O üzüyü nə yaxşı ki, tapmısan,
neçə vaxtdı, itirmişdim, gəzirdim.
Sonra gələr, səndən alar üzüyü:
- Bunun rəngi niyə belə qaralıb?
Barmağına güclə salar üzüyü:
- Elə bil ki, bir balaca daralıb.

Külqabıdan tüstü qalxar hələ də,
o məktubun külü hələ işarar.
Maddım-maddım durub baxar arvadın,
o tüstüdən bir cüt gözü yaşarar.
- Heç olmasa pəncərəni aç, - deyər, -
burda necə oturmusan sən, necə?!
Bu nə yanıq qoxusudu, ilahi,
elə bil ki, adam yanıb indicə...

## SƏNƏ BİR DAŞ ATAR YERİNDƏN DURAN

Sənə bir daş atar yerindən duran,
Səni sevdiklərin daşqalaq eylər.
Bir əlində daş var,birində Quran,
Daş atan bilirmi nə günah eylər?!

Silərsən gözündən axan yaşları,
Öpüb əzizlərsən sən o daşları,
Deyərsən: "Var olun,qan qardaşlarım",
Məni təzə daşa kim qonaq eylər?!

Hər daş özü boyda köz olub yanar,
Cana damga kimi basılıb yanar,
Qanlı yaraların qızarıb yanar,
Səni başdan başa çılçıraq eylər.

Bircə tilsimin var -
Sevgi tilsimi,
Kim qırar Tanrıya bağlı bir simi?!
Tanrı Tanrıdırsa, öz elçisini
Min bir daş altında yenə sağ eylər.

Sən dözərsən ağrısına,
Daş dözməz,daş haray eylər.
O daşlardan Tanrı sənə
Bir ev tikər, saray eylər...

# Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 48 (2471) 19 dekabr 2025-ci il

**Bu gün çox fərəhli haldır ki, ölkəmizdə bütün rayonlarda möhtəşəm abadlıq, quruculuq və yenidənqurma işləri görülür. Təbii ki, bu ilk növbədə həmin rayonun sakinlərini, vətəndaşlarını daha çox sevindirir. Çünki böyük sosial layihələrin, quruculuq və tikinti işlərinin həyata keçirilməsi həmin rayonda yaşayan insanların rifah halının yaxşılaşmasına kömək edir. Yəni bir rayonda böyük işlər görülürsə bu həm də o deməkdir ki, həmin rayonun sakinləri bu və ya digər dərəcədə iş yerləri ilə təmin olunur və onların dolanışığı, həyat tərzi bir qədər də yaxşılaşır.**

sanın üstünə. Sazan, kütüm, qızıl balığı müxtəlif formada bişirmişdilər. Həmin balıqların dadı hələ indiyə kimi damağımdan getməyib. Əlbəttə, Azərbaycanın hər qarış torpağı, hər yurdu, hər yeri gözəldir.

Neftçalanın da öz gözəllikləri, öz füsunkarlığı var. İlk növbədə bu rayon həm Sovet dönəmində, həm də elə indi balıqçılıq rayonu kimi tanınır. Və təsadüfi deyil ki, bu yaxınlarda Neftçalada "Balıq bayramı" keçirilib. Və həmin balıq bayramında respublikamızın çox hörmətli, tanınmış simaları, ziyalıları və Neftçala sakinləri iştirak ediblər. Neftçala yeganə rayondur ki, orda balıqdan yüz cür yemək bişir-



# NEFTÇALA İNKİŞAF YOLLARINDA...



Neftçala rayonu mənim ən çox sevdiyim məkanlardan biridir. Ən azından ona görə ki, bu yurdda mənim xeyli dosttanışım, tələbə yoldaşım və çörək kəsdiyim insanlar olub və var. Neftçalanın bir-birindən gözəl təbii sərvətləri mövcuddur. Və bu təbii sərvətlərin arasında balıq məhsullarını qeyd etməmək mümkün deyil. Neftçalaya gedəsən və orda balıq yeməyəsən, bu böyük günah olar.

Biz də dəfələrlə mənim dostum və qardaşım, qələm yoldaşım, istedadlı jurnalist Babək Yusifoğlu ilə Neftçalada olmuşuq. İndiyə qədər yaxşı yadımdadır, iki dostumuz bizi apardı dənizin sahilinə. Onda sentyabrın axırları idi, yəni balıq mövsümü yenicə başlayırdı. Dənizin kənarında gözəl bir yeməkxanada əyləşdik və bir-birindən dadlı balıqları bişirib gətirdilər məyi bacarırlar. Və balıq bayramında da onlar bir daha bu istedadlarını, bacarıqlarını göstəriblər. Heç şübhəsiz, bu cür möhtəşəm tədbirlərin keçirilməsi həm də bir tarixdir. O tarix ki insanlar bunu uzun müddət yaddan çıxarmırlar və onların yaddaşında əbədi qalır. Onu da qeyd edək ki, Neftçala tək balığı ilə məşhur deyil. Burda kənd təsərrüfatının digər sahələri də inkişaf edib. Və insanlar da bu sahəni günbəgün dirçəldirlər. Rayonda gedən abadlıq və quruculuq işlərinə söz ola bilməz. Çox təəssüf ki, bəzi media qurumlarında Neftçalada gedən abadlıq, quruculuq işlərinə önəm verilmir, amma hardasa balaca bir nöqsanı böyüdüb fil boyda edirlər. Şübhəsiz ki, iş olan yerdə qüsur da olar. Amma bu qüsuru şişirtmək yox, onu həll etmək lazımdır. Başqa sözlə demiş olsaq, problemin həlli yollarını göstərmək vacibdir. Əfsuslar olsun ki, həmin media qurumları problemləri göstərmir, sadəcə olaraq, özləri problem yaradırlar. Bu isə Neftçala sakinləri tərəfindən heç də yaxşı qarşılanmır.

Xeyli vaxtdır ki, Neftçalaya gənc bir icra başçısı təyin olunub. Bu, Mirhəsən Seyidovdur. Gənc olmasına baxmayaraq, öz işini yaxşı bilir, dövlətə və xalqa, Prezidentə sədaqəti ilə seçilir. Bu gənc başçı haqqında da bir neçə media qurumunda şər-böhtan yazıldı. Guya əyninə geydiyi plaşın qiyməti 26 min manatdır. Amma başçı özü isə media qurumlarına açıqlama verərək bildirdi ki, bu plaşı üç il bundan qabaq alıb, qiyməti də 350 manatdır. Nə isə, bizim söhbətimiz Neftçalada gedən abadlıq, quruculuq işləri ilə bağlıdır.

Rayon mərkəzinə daxil olanda adamın diqqətini birbirindən gözəl parklar, xiyabanlar və hər cür infrastruktur olan məkanlar cəlb edir. Son illərdə Neftçala rayonu daha da gözəlləşib və abadlaşıb. Belə ki, bir neçə küçəyə yenidən asfalt örtüyü döşənib, səkilərdə səliqə-səhman yaradılıb. Yolların kənarında əkilmiş ağaclar, bəzək kolları və güllər istər-istəməz adamın diqqətini özünə cəlb edir. Ən maraqlısı odur ki, bu gün rayonda möhtəşəm abadlıq və quruculuq işləri uğurla davam edir. Bir çox binalar və sosial obyektlər əsaslı təmir edilir, yeni tikililər inşa olunur, məktəblər, uşaq bağçaları tikilərək istifadəyə verilib. Təbii ki, bu işlərin həyata keçirilməsində dövlətimizin, konkret olaraq, prezident İlham Əliyevin çox böyük köməkliyi və xidməti var. Eyni zamanda icra başçısı Mirhəsən Seyidov rayonda sağlam mühit yaradaraq insanları öz ətrafına toplamağı bacarıb və bu işdə xalqın gücündən istifadə edir. Rayonda xeyli iş yerləri açılıb. Xırda və orta sahibkarlığın inkişafına böyük önəm verilib. Elə məhz icra başçısı da fəaliyyətə başladığı ilk gündən camaata deyib ki, sizin üçün hər cür şərait yaradılacaq, təki bir iş görüb rayonun iqtisadiyyatına kömək göstərin. Orta sahibkarlıqa məşğul olan Nəcəf Əhmədov deyir ki, bizim rayonumuzda iş adamlarının, sahibkarların, fermerlərin normal fəaliyyəti üçün birmənalı olaraq hər cür şərait yaradılıb, hətta bizə müəyyən güzəştlər də olunur. Bax, bu cür münbit şəraitin yaradılması bizi ruhlandırır. Mənim özüm orta sahibkarlıqla məşğulam və yanımda da üç-dörd nəfər çalışır. Buna görə dövlətə vergi ödəyirəm, Sosial Müdafiə Fonduna vəsait köçürürəm. Həm özümüz dolanırıq, həm də dövlətə xeyir veririk.

Əlbəttə, bu gün tam məsuliyyətlə demək olar ki, Neftçalada gedən və həyata keçirilən möhtəşəm abadlıq, quruculuq işlərində heç bir sakin kənarda qalmır. Bu da onu göstərir ki, insanlar nə qədər zəhmət çəksələr, nə qədər əziyyət çəksələr, onun bəhrəsini görürlər.

Rayonda təhsilin, səhiyyənin və digər sahələrin inkişafına da böyük önəm verilir. Ən başlıcası odur ki, rayon ziyalılarına, onların fəaliyyətinə çox əlverişli imkan yaradılıb. Rayonun icra başçısı sakinləri tək öz kabinetində deyil, qəsəbədə, kəndlərdə səyyar görüşlər keçirməklə onların fikir və təkliflərini öyrənir, mövcud problemləri ortaya çıxarır və onun həllinə nail olurlar.

**Ataların gözəl bir sözü var: "El bir olsa, dağ oynadar yerindən". Bu gün demək olar ki, Neftçalada hamı eyni məqsəd, eyni ideya uğrunda mübarizə aparır. Onlar ölkəmizin siyasi və iqtisadi gücünün möhkəmlənməsi üçün çox böyük işlər görürlər. Bu isə o deməkdir ki, ölkə prezidenti İlham Əliyevin tövsiyyə və tapşırıqları Neftçalada çox böyük uğurla yerinə yetirilir.**

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Gülzar Vahabzadə: "Bu sevgi tamaşaçılarla ifaçıları birləşdirərək, hamını ifaçıya çevirmişdi"

**Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən Mədəniyyət Nazirliyi tərəfindən təsdiq olunmuş "Xalq şairi Bəxtiyar Vahabzadənin 100 illik yubileyinə dair Tədbirlər Planı" çərçivəsində Heydər Əliyev Sarayında tədbir keçirilib.**

Xalq şairi Bəxtiyar Vahabzadənin qızı Gülzar Vahabzadə Adalet.az-a açıqlamasında tədbirin çox yüksək səviyyədə keçirildiyini söyləyib:

"Tədbir çox gözəl keçirildi. Hiss olunurdu ki, tədbiri yüksək səviyyəli mütəxəssislər hazırlayıblar. Şeirləri seçənlərin yüksək bədii zövqü var. Həmin şeirlərə uyğun musiqi və hər ikisinə uyğun olan arxa plandakı fon möhtəşəm bir harmoniya yaradırdı. Şeirləri ifa edən aktyorlarımız şairin nə demək istədiyini tamaşaçıya çatdıra bildilər. Onu da qeyd etmək istəyirəm ki, tamaşaçılar da şeirlərin bir çoxunu əzbər bilirdilər və qiraətçilərlə birlikdə təkrarlayırdılar. Bunu mənə arxa sıralarda oturanlar dedilər".

G.Vahabzadə tədbirdə şeir söyləyən qiraətçilərin ifasını və fortepiano ifaçısının mükəmməl müşaətini xüsusi qeyd edib:




"Əməkdar artist Elşən Rüstəmovun və qiraətçi Xəzər Süleymanlının səslərindəki titrəyişlər onların necə ürəkdən və şeirlərə uyğun duyğularla söylədiklərini göstərirdi. Xalq artisti Mehriban Zəkinin və aktirsa Sabirə Abdullayevanın yerinə görə bəzən qadınlıq işvəsi ilə, bəzən şıltaqcasına, çox vaxt da böyük bir ciddiyyətlə şeirlərin məğzini tamaşaçıya çatdıra bildilər. Şeirlərin fonunda çalınan musiqi və musiqiçilərimizin ifa tərzi ifaçılıq sənətindəki yüksək mədəniyyəti mümayiş etdirdi. Fortepiano ifaçısını isə xüsusi olaraq qeyd etmək istəyirəm. Bu ifaçı məni valeh etdi. Onun ifası ən yüksək təqdirə layiqdir. Xalqın sevimlisi olan müğənnilərimiz də həmişəki kimi yüksək səviyyədə oxuyurdular. Bu, mənim tədbirdən aldığım təəssüratın bir tərəfidir. Digər tərəfi isə hisslərimlə bağlıdır. Görürdüm ki, bütün iştirakçıların üzlərində heç bir gərginlik yoxdur, əksinə bir rahatlıq, sərbəstlik var. Sanki səhnədə yox, evlərində imiş kimi davranırdılar. Heyrətə gəldim. Və başa düşdüm ki, belə davranış yalnız sevgidən irəli gələ bilər. Bu səmimiyyət şeirlərini ifa etdikləri, mahnılarını oxuduqları şairə olan böyük sevgidən qaynaqlanırdı. Şairin özünün dediyi kimi, nifrəti gizlətmək olar, sevgini isə gizlətmək heç mümkün deyil. Və bu sevgi tamaşaçılarla ifaçıları birləşdirərək, hamını ifaçıya çevirmişdi. Belə bir tədbiri təşkil etdiyinə görə Mədəniyyət Nazirliyinə dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm. Səhnədə iştirak edən və səhnə arxasında zəhmət çəkən hər kəsə minnətdaram. Tamaşaçılara isə öz təşəkkürümü bildirirəm. Atamın xatirəsinə bəslədiyi bu böyük sevgiyə görə xalqımızın qarşısında baş əyirəm".

**Əntiqə KƏRİMZADƏ**

# ""Gürcü xəngəli" əslində milli Azərbaycan yeməyidir..."

**""Gürcü xəngəli" adı ilə məşhur olan xörək əslində milli Azərbaycan yeməyidir və adı da "Qaraqoyunlu xəngəli"dir. Donuz əti olmadan, qoyunun quyruq yağı qatılaraq, ət kötükdə döyülərək bişirilir. Mən baba-nənələrimizdən belə eşitmişəm, belə görmüşəm".**

Adalet.az xəbər verir ki, bunu ilahiyyatçı Tural İrfan deyib.

"105 yaşında vəfat edən, atamın əmisi Qaraca lələm, qədim xörəklərin reseptini mükəmməl bilən Hürü nənəm də o xörəyin adının "Qaraqoyunlu xəngəli" olduğuna təkid edirdi. Əslən Qərbi Azərbaycanın Qaraqoyunlu mahalından olan Sayad nənə bu yeməyi Qazaxda, Ağstafada deyildiyi kimi "Qaraqoyunlu xəngəli", Bakıda "qutab", Şəki tərəfdə "afar" adlanan bükümlü xəmir yeməyini isə daha böyük bişirərək "ayrım kətəsi" adlandırırdı. Böyük fətir yayıb sacın üstünə sərər, mis məcmaidə hazırladığı yolotu, cincilim, əmənkömənci və başqa pencərlərdən doğranmış göyü yuxa təpiyənə yaxın üstünə səpərdi. Daha sonra pendir küpəsinə qabar əllərini salıb bir baş qoyun pendiri çıxarıb ovcunda ovxalayıb üstünə səpərdi. Sacın üstündə yuxanın ağzını qatlayar, bişənə yaxın ağzını açıb bir ovuc nehrə yağının yarısını



düz kətənin ortasına, sonra yenidən yuxanı bağlayıb yağın digər yarısını da üstünə çəkib sacdan düşürərdi. Biz uşaqlara da: "A malım - payım, a Kavam-qıvlam, di yiyin, yağı donmamış..." deyərdi. Qərbi Azərbaycan, Azərbaycan Respublikasının Qərb bölgəsi, xüsusən Qazax - Borçalı tərəflərin yemək - süfrə ənənələri demək olar ki, eynidir, daha çox yaxındır, oxşardır. Əsl xəngəl, buna "Qazax xəngəli" də deyirlər, qara dəyirman unundan çox da qalın olmayan fətir (yuxa) yayılaraq xanə şəklində doğranır. (Xəngəl sözünün bu mənada "xanə" sözündən törədiyini deyənlər də var.) Qaynayan suya hamısı birdən deyil, (onda xəmir bir - birinə yapışır) iki-iki, üç-üç atılır. Ocaqda olsa daha gözəldir. Müəyyən qədər qaynadıqdan sonra kəfkirlə çıxarılıb iri sini yaxud mis məcmailərə seyrək şəkildə yayılır.

Bəziləri xəmiri bütövlükdə aşsüzənə boşaldır. Bu doğru deyil. Həm suyu tam süzülmür, həm də onda xəmir bir-birinə yapışır. Digər tərəfdə isə bol soğan ilə əsasən kənd beçəsi qızardılır. Mümkün qədər soğan ötürülməlidir, tam quruyana qədər. Şübhəsiz ki, qurudu isə bir gün əvvəldən suya qoyub yumşaltmaq lazımdır. Olmasa da suya salıb həvəngdəstədə əzmək, zövqə görə sarımsaq əlavə edib xeyli qarışdırmaq lazımdır. Nəhayət yağ-soğan, beçə qızartmasını sinidəki xəngəlin üstünə səpmək, onun üstündən də qurud əlavə etmək gərək. Bax xəngəl budur. Tovuz və Gədəbəy tərəflərdə böyük laylarda kartof da əlavə edilir ki, bunu da zövqə görə etmək olar.

Restoranlarda, kafelərdə qıymə ətlə, qatıqla, sulu, ağ undan xəmir qaynadıb xalqın mükəmməl milli xörəyinin mahiyyətini korlayıb adını da xəngəl qoymaq lazım deyil. Bacarmayan desin ki, bacarmıram, öyrədək. Sonra turistlər, xarici qonaqlar elə bilər əsl xəngəl odur.

Qiymə ətlə bişirilən "Qaraqoyunlu xəngəli" qurutla yeyilən isə "Yarpaq xəngəli"dir. Hər ikisi qədim, milli Azərbaycan xörəyidir",- deyə o, bildirib.

**Vasif ƏLİHÜSEYN**

## *Xalq artisti: "Dəfələrlə mənə dedi ki, "Locco" de. Mən o mahnını oxumamışam"*



**Aktyor Elşən Orucovun aparıcılıq etdiyi proqramda qonaq olan Xalq artisti Niyaməddin Musayevdən "Locco" mahnısını ifa etməsini istəyib. Həmin görüntülər sosial şəbəkələrdə müzakirə obyektinə çevrilib. İzləyicilər tərəfindən tənqid edilən bu video gündəm yaratmağı bacarıb.**

Sözügedən video ilə bağlı Adalet.az-a açıqlama verən Xalq artisti Niyaməddin Musayev bu mahnını ifa etmədiyini söyləyib. O qeyd edib ki, aparıcının xahişi ilə sadəcə "locco" sözünü deyib:

"Mən o mahnını oxumamışam. Bilmirəm ki, mənə qarşı niyə belə edirlər. Bu hərəkətin tək adı məni nüfuzdan salmaqdır. Aparıcı mənə dedi ki, "Locco" denən, mən də dedim. Mən hardan bilim ki, bunlar bu videonu məndən xəbərsiz yayımlayacaqlar. Heç o mahnı haqda məlumatım yoxdur, yəni heç o mahnını bilmirəm. Bircə bilirəm ki, Avropa mahnısıdır. Əvvəlcə hər hansı bir proqrama dəvət edirlər sonra da belə mənasız hərəkətlər edirlər. Ayıb bilmirlər, untanmırlar. Bunu özümə qarşı hörmətsizlik hesab edirəm. Məni xalq sevir, illərin sənətkarıyam, əlbəttə millət bunu mənə yaraşdırmaz. İlk dəfədir o proqramı görürdüm. Dəfələrlə mənə dedi ki, "Locco" de. Anlamadım ki, bunu deməyimi niyə istəyir. Demək, belə səbəbsiz yerə məni qınaq obyektinə çevirmək üçün istəyirmiş.

Videonu sosial şəbəkələrdə görəndə dəhşət əsəbiləşdim. İnanın ki, hələ də sakitləşə bilmirəm. Belə hörmətsizliyi, mədəniyyətsizliyi qəbul etmirəm. Biz mədəniyyət insanlarıyıq. Bu hərəkətlər bizə yaraşmaz axı".

## *Samira: "Qızım dedi ki, arzularımı puç etmə"*



**Uzun zamandır efirlərdə görünməyən müğənni Samira övladlarından danışıb.**

Adalet.az bildirir ki, müğənni onları peşə seçimində sərbəst buraxıb:

"Hər ikisi də gəncdir. Deyərdim ki, hər birinin öz həyatı var. Oğlumun artıq 27 yaşı var. Qızım professional futbolla məşğuldur. Peşələrini hər biri özü seçdi.Mən uşaq vaxtı müğənni olmaq istəyəndə mənə icazə vermirdilər. O zamanlar hər şey başqa idi. Sanki zaman təkrarlandı: qızımın peşəsinə qarşı çıxmaq istədim. Xanım futbol sahəsində irəliləyə bilməz deyə düşündüm. Qızım mənə dedi ki, arzularımı puç etmə".

## *Qumral: "Bacarmıramsa, canlı ifa etmək vacib deyil"*



**Müğənni Qumral hansı səbəbdən proqramlarda canlı ifa etmədiyini söyləyib.**

Adalet.az bildirir ki, o, hər hansı bir ifada xaric notlar ifa erməmək üçün canlı ifa etmir:

"Mənə deyirlər ki, canlı oxuya bilmirsən. Niyə bilmirəm ki? Çox gözəl canlı mahnılar ifa edirəm. Amma bəzən hazırlıqsız oluram. Bu səbəbdən hər hansı bir mahnını xaric notlar üzərində ifa etmək istəmirəm. Bir dəfə oxumuşam. O da aparıcı məcbur edib. Bəzi sənətkarlar var ki, hazırlıqsız canlı mahnı ifa edirlər. Bəzən xaric oxuyurlar və cammatın qınağına tuş gəlirlər. Təyyar Bayramovla Samir Cəfərov yalnız bir dəfə uğursuz ifa ediblər. Ancaq Türkan Vəlizadə, Nəfəs, Kəmalə Günəşli efirlərdə canlı oxumaq istəyiblər, amma xaric oxuyublar. Mahnını düzgün ifa etməyiblər. Bacarmıramsa nə vacibdir axı canlı ifa etmək"!?

**Əntiqə**

Aqil Abbas **Mirmahmud Mirəlioğluna** nəvəsi
**Müşfiqin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**Təsisçi və baş məsləhətçi:** Aqil ABBAS
**Baş redaktor:** İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 259
Çapa imzalanmışdır: 18.12.2025